NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ AZƏRBAYCANIN ƏN DƏYƏRLİ, QABAQCIL ALİ MƏKTƏBLƏRİNDƏN BİRİDİR
HEYDƏR ƏLİYEV

YENİ FİKİR

TƏSİSÇİ: NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ
08 may 2026-cı il, cümə № 4 (73)



# Naxçıvan Dövlət Universiteti “Study in Azerbaijan” təhsil sərgisində təmsil olunub

Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayevin rəhbərlik etdiyi nümayəndə heyəti Qazaxıstan Respublikasının Almatı şəhərində keçirilən “Study in Azerbaijan” təhsil sərgisinin açılış mərasimində iştirak edib.

Qazaxıstan Respublikasının Elm və Ali Təhsil naziri Sayasat Nurbek və Azərbaycan Respublikasının Elm və Təhsil naziri Emin Əmrullayev açılış mərasimində çıxış edərək iki ölkə arasında ortaq mədəni bağların və təhsil əməkdaşlığının əhəmiyyətini vurğulayıblar.

Daha sonra Farabi Hub KazNU Mərkəzində davam edən sərgidə Azərbaycanın 25-ə yaxın aparıcı universiteti, o cümlədən Naxçıvan Dövlət Universiteti təmsil olunmuşdur. Burada abituriyentlər və tələbələr Azərbaycandakı ali təhsil proqramları, qrantlar, akademik mobillik, ikili diplom proqramları və qəbul tələbləri ilə bağlı məlumat əldə edə bilərlər.

Açılış tədbirinin bədii hissəsində Naxçıvan Dövlət Universitetinin muğam və rəqs qrupları çıxış ediblər. İfalar tamaşaçılar tərəfindən maraqla qarşılanıb.

Açılış tədbirində keçirilən lotereya oyununda 3 qazaxıstanlı şagird Naxçıvan Dövlət Universitetində təqaüdlə təhsil almaq imkanı qazanıb.










Açılış tədbirindən sonra Azərbaycan Respublikasının Elm və Təhsil naziri Emin Əmrullayev stendlərlə tanış olub. Naxçıvan Dövlət Universitetinin stendində təhsil proqramları, əcnəbi tələbələr üçün təhsil imkanları və NDU ilə bağlı iştirakçıları maraqlandıran bir sıra məsələlər barədə məlumat verilib.

Bununla yanaşı, səfər çərçivəsində ali təhsil sahəsində əməkdaşlığın genişləndirilməsinə yönəlmiş mühüm görüşlər keçirilib. Qazaxıstan və Azərbaycan ali təhsil müəssisələrinin II Rektorlar Forumu baş tutub. Forum çərçivəsində Naxçıvan Dövlət Universiteti ilə Qazaxıstanın Ualikhanov Universiteti, Cənubi Qazaxıstan Tibb Akademiyası, Almatı Menecment Universiteti, Yessenov Universiteti, Sarsen Amanjolov adına Şərqi Qazaxıstan Universiteti və Qazaxıstan Tibb Universiteti (KSPH) arasında əməkdaşlıq memorandumları imzalanıb.

İmzalanan sənədlər akademik mübadilə, ikili diplom proqramları və birgə elmi fəaliyyət sahələrində əməkdaşlığın genişləndirilməsini nəzərdə tutur, tərəflər arasında təcrübə mübadiləsinin gücləndirilməsi və elmi-tədqiqat işlərinin birgə həyata keçirilməsi üçün zəmin yaradır.






# NDU – Pekin Kimya Texnologiyaları Universiteti əməkdaşlığı yeni mərhələyə qədəm qoyur: Süni İntellekt Mərkəzi yaradılır

Naxçıvan Dövlət Universiteti ilə Pekin Kimya Texnologiyaları Universiteti arasında əməkdaşlıq münasibətlərinin qurulması və inkişaf etdirilməsi məqsədilə rəsmi görüş keçirilib və tərəflər arasında mühüm əməkdaşlıq müqaviləsi imzalanıb.

Görüşdə Pekin Kimya Texnologiyaları Universitetini vitse-prezident Van Fen (Wang Feng), Beynəlxalq Mübadilə və Əməkdaşlıq şöbəsinin direktoru Can Bin (Zhang Bing), Beynəlxalq Təhsil Fakültəsinin dekanı Yan Honq (Yan Hong), Humanitar Elmlər və Hüquq İnstitutunun rəhbəri Çjen Süyin (Zheng Xiuying) təmsil ediblər.







Müzakirələr zamanı ali təhsil və elmi-tədqiqat sahələrində əməkdaşlığın perspektiv istiqamətləri geniş şəkildə nəzərdən keçirilib. Xüsusilə universitetlər arasında birgə Süni İntellekt Mərkəzinin yaradılması əsas prioritetlərdən biri kimi ön plana çıxıb. Bununla yanaşı, tələbələrin Pekin Kimya Texnologiyaları Universitetində istehsalat və təcrübə proqramla- rında iştirakının təmin olunması, eləcə də həmin universitetin professor-müəllim heyətinin Naxçıvan Dövlət Universitetinə dəvət edilərək tədris prosesində iştirakı məsələləri diqqət mərkəzində olub.

Görüşün yekununda vurğulanıb ki, imzalanan əməkdaşlıq müqaviləsi hər iki ali təhsil müəssisəsi arasında elmi, akademik və innovativ fəaliyyətlərin inkişafına, beynəlxalq təcrübə mübadiləsinin genişlənməsinə və yüksəkixtisaslı kadr hazırlığının keyfiyyətinin artırılmasına mühüm töhfə verəcək.

# NDU və Çinin Sincan (Xinjiang University) Universiteti əməkdaşlığa başlayır











Naxçıvan Dövlət Universiteti ilə Çin Xalq Respublikasının Sincan Universiteti arasında əməkdaşlıq əlaqələrinin genişləndirilməsi məqsədilə rəsmi görüş keçirilib.

Sincan-Uyğur Muxtar Vilayətinin Urumçi şəhərində keçirilən görüşdə Sincan Universitetinin prezidenti Ma Xinbin, vitse-prezident Shawulie Yimahazi, Beynəlxalq Mübadilə və Əməkdaşlıq Ofisinin direktor müavini Tian Xin, həmçinin Urumçi Şəhər Xarici Əlaqələr İdarəsinin direktor müavini Zinati Abulikemu və əməkdaşı Huang Jiawen görüşdə iştirak ediblər.

Görüş zamanı tərəflər arasında qarşılıqlı maraq doğuran əməkdaşlıq istiqamətləri üzrə geniş fikir mübadiləsi aparılıb. Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev ali təhsil ocağının fəaliyyəti, xüsusilə beynəlxalq əməkdaşlıqları barədə ətraflı məlumat verib.

İlkin mərhələdə yaşıl enerji sahəsində birgə layihələrin həyata keçirilməsi, "İnformasiya təhlükəsizliyi" ixtisası üzrə ikili diplom proqramının yaradılması, süni intellekt və biotexnologiya sahələrində birgə mərkəzlərin qurulması barədə razılığa gəlinib.

Bununla yanaşı, tərəflər arasında İpək Yolu Araşdırmalar Mərkəzinin yaradılması ilə bağlı razılıq əldə olunub. Bu təşəbbüs gələcəkdə elmi tədqiqat fəaliyyətinin genişləndirilməsinə, akademik mübadilənin gücləndirilməsinə və beynəlxalq əməkdaşlığın daha da dərinləşdirilməsinə mühüm töhfə verəcək.

Görüş çərçivəsində Urumçi və Naxçıvan şəhərləri arasında mövcud qardaşlaşma əlaqələrinin əhəmiyyəti də vurğulanıb. Bu münasibətlər iki şəhər arasında mədəni və elmi sahələrdə əməkdaşlığın genişləndirilməsi üçün əlverişli zəmin yaradır. Universitetlərarası əlaqələrin inkişafının şəhərlərarası tərəfdaşlığın daha da möhkəmlənməsinə töhfə verəcəyi qeyd olunub.

Sonda Sincan Universitetinin kampusu, Süni İntellekt Mərkəzi və İnnovasiya laboratoriyaları ilə tanışlıq olub.

# NDU Çinin daha bir universiteti ilə çoxşaxəli əməkdaşlığa başlayır









Naxçıvan Dövlət Universitetinin Çində baş tutan ikinci görüşündə logistika, turizm, süni intellekt, rəqəmsal media, incəsənət, tibb sahələrində istehsalat təcrübələri və yay məktəbləri istiqamətlərində yeni imkanlar əldə olunub.

Naxçıvan Dövlət Universiteti ilə Çin Xalq Respublikasının Urumçi Peşə Universiteti (Urumqi Vocational University – UVU) arasında keçirilən rəsmi görüşdə təhsil və tətbiqi sahələr üzrə əməkdaşlığın genişləndirilməsi istiqamətində mühüm razılaşmalara imza atılıb.

Görüşdə Çin tərəfini UVU-nun prezidenti, universitetin vitse-prezidenti, Beynəlxalq Əlaqələr Ofisinin direktoru, Süni İntellekt Mühəndisliyi fakültəsinin dekanı, həmçinin Çin Kommunist Partiyasının Baş Partiya Şöbəsinin katib müavini, eləcə də Yeni Enerji və Yeni Materiallar fakültəsinin dekanı təmsil ediblər.

Müzakirələr zamanı əməkdaşlığın prioritet istiqamətləri kimi logistika, turizm, süni intellekt, rəqəmsal media, incəsənət, tibb sahələri üzrə birgə təhsil proqramlarının hazırlanması xüsusi diqqət mərkəzində olub. Bununla yanaşı, Çin dilinin bakalavr səviyyəsində tədrisinin təşkili, müasir əmək bazarının tələblərinə uyğun ixtisaslaşmaların inkişafı və praktik yönümlü təhsil modelinin tətbiqi məsələləri ətrafında geniş fikir mübadiləsi aparılıb.

Görüş çərçivəsində tələbə və müəllim mobilliyi, akademik mübadilə proqramlarının genişləndirilməsi, eləcə də istehsalat təcrübələrinin birgə təşkili istiqamətində konkret əməkdaşlıq imkanları nəzərdən keçirilib. Xüsusilə bakalavr pilləsində 3+1 modeli əsasında ikili diplom proqramlarının hazırlanması və hibrid (onlayn və ənənəvi) formatda birgə kursların təşkili məsələləri ilə bağlı ilkin razılıqlar əldə olunub.

Urumçi Peşə Universitetində universitet-sənaye əlaqələri yüksək səviyyədə inkişaf edib və praktik yönümlü əməkdaşlıq modeli uğurla tətbiq olunur. Belə ki, UVU-nun tərəfdaş olduğu aparıcı Çin şirkətləri ilə NDU-nun əməkdaşlıq imkanları da yaradılacaq.

Qeyd edək ki, əməkdaşlığın daha səmərəli inkişafını təmin etmək məqsədilə hər iki tərəfdən işçi qrupları yaradılıb. Bu qruplara həm Naxçıvan Dövlət Universitetinin, həm də Urumçi Peşə Universitetinin rektorları rəhbərlik edəcək.

Peşəyönümlü təhsil verən UVU-nun çox geniş maddi-texniki, praktiki imkanlarından NDU tələbələrinin tam istifadəsi mümkün olacaq.

# NDU-nun gənc tədqiqatçıları üçün Çində təhsil imkanı








Naxçıvan Dövlət Universiteti Çin Elmlər Akademiyası ilə strateji elmi əməkdaşlığa başlayır.

NDU magistrantları və doktorantları üçün Çində təhsil imkanı yaranır. Naxçıvan Dövlət Universitetinin nümayəndə heyətinin Çin Xalq Respublikasına səfəri çərçivəsində Çin Elmlər Akademiyasının Fizika, Kimya və Texniki Elmlər İnstitutunun rəhbərliyi ilə keçirilən rəsmi görüşdə bu barədə ilkin razılığa gəlinib.

Görüş zamanı tərəflər arasında elmi-tədqiqat və akademik əməkdaşlığın genişləndirilməsi istiqamətində mühüm məsələlər ətraflı müzakirə olunub.

Müzakirələrin əsas istiqamətlərindən biri NDU magistrantlarının adıçəkilən institut da doktorantura təhsili imkanlarının yaradılması olub. Bununla yanaşı, universitetin magistrant və doktorantları üçün birgə elmi rəhbərlik mexanizmlərinin tətbiqi məsələsi diqqət mərkəzində saxlanılıb, bu sahədə fikir mübadiləsi aparılıb və ilkin razılaşmalar əldə edilib.

Görüşdə, həmçinin yaşıl enerji, nanomateriallar, quru və ekstremal iqlim şəraitində enerji və material texnologiyaları, kimya, fizika və tətbiqi fizika sahələrində ortaq elmi-tədqiqat layihələrinin həyata keçirilməsi məsələləri geniş şəkildə müzakirə olunub.

Eyni zamanda beynəlxalq elmi əməkdaşlığın daha da gücləndirilməsi məqsədilə birgə elmi jurnalın təsis edilməsi təşəbbüsü müsbət qarşılanıb və bu istiqamətdə konkret addımların atılması barədə razılıq əldə olunub.

# Azərbaycan Memarlıq və İnşaat Universiteti ilə Naxçıvan Dövlət Universiteti arasında əməkdaşlıq memorandumu imzalanıb

Azərbaycan Memarlıq və İnşaat Universitetinin (AzMİU) növbəti böyük yaradıcılıq platforması olan "Dizayn həftəsi"nin rəsmi açılış mərasimi keçirilib.

Memorandumda dizayn sahəsi üzrə qarşılıqlı akademik əməkdaşlığın genişləndirilməsi, birgə elmi-tədqiqat və yaradıcılıq layihələrinin həyata keçirilməsi, seminar, təlim, ustad dərsləri və sərgilərin təşkili, inklüziv təhsil imkanlarının inkişaf etdirilməsi, ortaq təşəbbüslərin reallaşdırılması, eləcə də gənclərin peşəkar bacarıqlarının artırılmasına yönəlmiş proqramların icrası nəzərdə tutulur.

Eyni zamanda sənədlər ali təhsil müəssisələri ilə sosial tərəfdaş qurumlar arasında əlaqələrin möhkəmləndirilməsi, müasir əmək bazarının tələblərinə uyğun mütəxəssis hazırlığı və yaradıcı sənaye sahəsində yeni əməkdaşlıq platformalarının formalaşdırılmasına xidmət edir.

Rektor Elbrus İsayev çıxışında AzMİU-da dizayn sahəsində tətbiq olunan müasir yanaşmaların öyrənilməsində maraqlı olduqlarını bildirib.

O, bu istiqamətdə qarşılıqlı əməkdaşlığın genişləndirilməsi və birgə layihələrin həyata keçirilməsinin nəzərdə tutulduğunu diqqətə çatdırıb.

"Memarlıq və şəhərsalma ili" çərçivəsində keçirilən tədbir Bakının ev sahibliyi edəcəyi Ümumdünya Şəhərsalma Forumu (WUF13) ərəfəsinə təsadüf edir.

Bu baxımdan platforma gənclərin yaradıcılıq potensialının üzə çıxarılması, onların müasir dizayn düşüncəsi və dayanıqlı şəhər mühiti anlayışları ilə tanış edilməsi baxımından mühüm rol oynayır.



Açılış proqramına uyğun olaraq, qonaq universitetlərin tələbələrinin işlərindən ibarət sərgilər təşkil olunub.





Sərgidə Naxçıvan Dövlət Universitetinin Memarlıq və mühəndislik fakültəsinin tələbələri tərəfindən hazırlanmış memarlıq maketləri, texnoloji həllər və tətbiqi layihələr iştirakçılar tərəfindən böyük maraqla qarşılanıb.

Bununla yanaşı, universitet-sənaye əməkdaşlığı istiqamətində səmərəli görüşlər və mühüm müzakirələr aparılıb.

# NDU-da 2025-2026-cı tədris ilinin ikinci yarısı üçün təşkil olunan təcrübələrin gedişinə dair müşavirə keçirilib

Naxçıvan Dövlət Universitetində 2025-2026-cı tədris ilinin ikinci yarısı üçün təcrübələrin gedişinə dair müşavirə təşkil olunub.

Müşavirədə universitet rəhbərliyi, fakültə dekanları və kafedra müdirləri iştirak ediblər. Tədbirdə tələbələrin istehsalat və pedaqoji təcrübələrinin təşkili, mövcud vəziyyət və qarşıda duran





vəzifələr müzakirə olunub.

Tədris Departamentinin direktoru Şahin Əliyev statistik məlumatlarla çıxış edərək bildirib ki, 2025-2026-cı tədris ilinin ikinci yarısında ümumilikdə 68 ixtisas üzrə 1311 tələbə istehsalat təcrübəsinə cəlb olunub. Təcrübələrə 130 nəfər müəllim heyəti rəhbərlik edir.

Tələbələrin praktiki fəaliyyətinin təmin olunması məqsədilə 41 müəssisə ilə əməkdaşlıq müqaviləsi imzalanıb və bu müəssisələrin tabeliyində olan 46 qurumda təcrübə keçirilir.

Hazırkı vəziyyətə əsasən, əlavə ali təhsil üzrə 67 nəfər və qiyabi ixtisas üzrə 126 nəfər tələbə istehsalat təcrübəsini başa vurub. Hal-hazırda isə əyani şöbə üzrə 1080 nəfər, qiyabi şöbə üzrə 42 nəfər tələbənin təcrübəsi davam edir.

Əyani şöbə üzrə təcrübələrin müddəti 4, 14 və 20 həftə, qiyabi şöbə üzrə isə 1, 4 və 5 həftə olaraq müəyyən edilib.

Pedaqoji təcrübələr 20 həftə davam edir və tələbələrin müəllimlik bacarıqlarının formalaşdırılmasına yönəlib. Ümumilikdə 20 ixtisas üzrə 397 tələbə pedaqoji təcrübəyə cəlb olunub və 43 nəfər müəllim heyəti bu prosesə rəhbərlik edir.

Fakültə dekanları çıxışlarında qeyd ediblər ki, tələbələr təcrübə müddətində MİQ imtahanlarına hazırlaşır, məktəb və müəssisələrdə tapşırıqları yerinə yetirir, həmçinin müxtəlif tədbirlərdə fəal iştirak edirlər.

Yekunda universitetin rektoru Elbrus İsayev təcrübələrin ümumilikdə qənaətbəxş olduğunu vurğulayıb və ciddi nöqsanların müşahidə olunmadığını qeyd edib.

Rektor təcrübələrin keyfiyyətinin artırılması, nəzarət mexanizmlərinin təkmilləşdirilməsi, təcrübə bazalarının genişləndirilməsi və tələbələrin fəaliyyətinin daha sistemli qiymətləndirilməsinin vacibliyini diqqətə çatdırıb.

Sonda keyfiyyətyönümlü tədris prosesinin inkişafı və praktiki hazırlığın gücləndirilməsi istiqamətində müvafiq tapşırıqlar verilib.

# "Çağdaş Azərbaycan dilinin aktual problemləri" mövzusunda IV Respublika Elmi Konfransının açılış mərasimi baş tutub

Konfrans Naxçıvan Dövlət Universitetinin təşkilatçılığı, Azərbaycan Milli Elmlər Akademiyası, Azərbaycan Dövlət Pedaqoji Universiteti, Bakı Slavyan Universiteti, Azərbaycan Dillər Universiteti və AMEA Naxçıvan Bölməsinin tərəfdaşlığı ilə keçirilib.

Əvvəlcə Ümummilli Lider Heydər Əliyevin və Vətən uğrunda canlarından keçmiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Ardınca Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Tədbiri giriş sözü ilə açan Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev çıxışında bildirib ki, bu konfransın keçirilməsinin əsas məqsədi Azərbaycan dilinin müasir inkişaf mərhələsində qarşıya çıxan nəzəri və praktiki məsələlərin, eləcə də müasir tədqiqat nəticələrinin elmi müstəvidə müzakirəsini təşkil etmək, elmi fikir mübadiləsi aparmaq və tədqiqatçılar arasında yeni elmi əməkdaşlıqların formalaşdırılmasına şərait yaratmaqdır.

Prezident İlham Əliyevin Azərbaycan dilinin saflığının qorunması və dövlət dilindən istifadənin daha da təkmilləşdirilməsi ilə bağlı Fərmanına diqqət çəkən rektor bu istiqamətdə qarşıda duran əsas vəzifələrdən, görüləsi işlərdən danışıb.

Elbrus İsayev Azərbaycan dilinin tədrisində innovativ yanaşmaların tətbiq olunması, rəqəmsal resurslarda Ana dilindən istifadə ilə bağlı gənclərə yeni imkanlar yaradılması, Azərbaycan dilinin normalarını qoruyan mətnlər üzərində işləmək, ali və ümumtəhsil məktəbləri üçün yeni proqramlar ərsəyə gətirmək, yeni meyarlar üzərində qiymətləndirmə metodlarının aparılması kimi mühüm məsələlərə diqqət çəkib.

AMEA-nın Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev bildirib ki, əsrlər boyunca Azərbaycan dilinin formalaşdırılmasına böyük əmək sərf olunub. İsmayıl Hacıyev Ümummilli Lider Heydər Əliyevin təşəbbüsü ilə 27 aprel 1978-ci il tarixində Azərbaycan dilinin Konstitusiyada dövlət dili kimi təsbit olunmasının Ulu Öndərin Ana dilimizə göstərdiyi qayğının bariz nümunəsi olduğunu bildirib.





Bakı Slavyan Universitetinin rektoru Anar Nağıyev çıxışında bildirib ki, bugünkü konfrans bizim keçmişimiz, gələcəyimiz, milli kimliyimiz baxımından xüsusi əhəmiyyət kəsb edir. Müxtəlif elm sahələrinin dilçiliklə bir araya gətirilərək araşdırılması elmlərarası əlaqəni gücləndirir, yeni tədqiqat imkanları yaradır. Rektor qeyd edib ki, Bakı Slavyan Universitetdə yaradılmış süni intellekt əsaslı dil laboratoriyası, eləcə də xarici ölkələrdə fəaliyyət göstərən Azərbaycan dili və mədəniyyəti mərkəzləri vasitəsilə dilin həm akademik, həm də praktik səviyyədə öyrənilməsi təmin olunur.

Azərbaycan Dövlət Pedaqoji Universitetinin prorektoru, professor Asəf Zamanov Azərbaycan dilinin qorunması, zənginləşdirilməsi və müasir dövrün tələblərinə uyğun inkişaf etdirilməsinin vacibliyini vurğulayıb. Qeyd edib ki, Ana dilinin tədrisi və elmi tədqiqi sahəsində görülən işlər milli kimliyin möhkəmləndirilməsində mühüm rol oynayır.









Daha sonra AMEA-nın Nəsimi adına Dilçilik İnstitutunun direktoru, professor Nadir Məmmədlinin "Dövlət dili strategiyasına elmin dəstəyi", Azərbaycan Dövlət İqtisad Universitetinin Elmi fəaliyyətin təşkili və idarəedilməsi departmentinin direktoru, professor Zahid Məmmədovun "Dil iqtisadiyyatı: monetizasiya, strategiya və elmdə dil imperializmi", AMEA Naxçıvan Bölməsinin İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü, professor Əbülfəz Quliyevin "Azərbaycan mədəniyyəti - 2040" konsepsiyasında dil və milli kimlik problemi mövzularında məruzələri dinlənilib.

Ardınca NDU-nun rektoru Elbrus İsayev tərəfindən konfransın ərsəyə gəlməsində əməyi olan məsul şəxslərə plaket və təşəkkürnamələr təqdim edilib.

Qeyd edək ki, konfransın bölmə iclaslarında 2 gün ərzində 6 istiqamət üzrə 12 bölmədə 20 elm və təhsil müəssisələrindən 110 əməkdaşın 97 məruzəsi təqdim olunub.

***

## *Konfrans işini bölmə iclasları ilə davam etdirib*

Xəbər verdiyimiz kimi, "Çağdaş Azərbaycan dilinin aktual problemləri" mövzusunda IV Respublika Elmi Konfransı keçirilib. Naxçıvan Dövlət Universitetinin təşkilatçılığı ilə keçirilən konfrans onlayn və üz-üzə bölmə iclasları ilə işini davam etdirib.



12 bölmədə təşkil olunan iclaslarda dil mədəniyyətinin qorunması və inkişafı, rəqəmsal mühit və dil texnologiyaları, Azərbaycan dilinin tədrisində innovativ yanaşmalar, müasir Azərbaycan ədəbi dilinin problemləri, xarici sözlərin təsiri və adaptasiya problemləri, media və kommunikasiya dili istiqamətləri üzrə 100-ə yaxın məruzə dinlənilib.

Bütövlükdə, bölmə iclaslarında ölkənin 20 elm və təhsil müəssisələrindən













110 tədqiqatçı müxtəlif mövzulara dair məruzələrlə çıxış edərək dilin aktual problemləri və inkişaf perspektivlərinə dair fikir mübadiləsi aparıblar.

Konfrans Azərbaycan dilinin dövlət dili kimi nüfuzunun daha da möhkəmləndirilməsinə, onun elmi-nəzəri bazasının zənginləşdirilməsinə və gələcək inkişaf strategiyasının müəyyənləşdirilməsinə mühüm töhfə verib.

***Gülay Tahirli***
***Media və ictimaiyyətlə əlaqələr şöbəsinin əməkdaşı***

# "Çağdaş Azərbaycan dilinin aktual problemləri" mövzusunda IV Respublika Elmi-Praktik Konfransı haqqında xoş təəssüratlar

***Bakı Slavyan Universitetinin rektoru Anar Nağıyev:***

Naxçıvan Dövlət Universitetində keçirilən "Çağdaş Azərbaycan dilinin aktual problemləri" mövzusunda IV Respublika Elmi-Praktik Konfransı iştirak etmək mənim üçün xüsusi əhəmiyyət daşıdı. Bu konfrans Azərbaycan dilinin öyrənilməsi, onun saflığının qorunması və gənc nəslə düzgün şəkildə ötürülməsi baxımından olduqca vacib bir platformadır.

Hesab edirəm ki, Naxçıvan Dövlət Universiteti bu istiqamətdə çox ciddi və məqsədyönlü fəaliyyət göstərir. Universitet Azərbaycan dilinin tədrisi, gənc



kadrların hazırlanması və milli-mənəvi dəyərlərin qorunması sahəsində öz üzərinə düşən missiyanı yüksək səviyyədə yerinə yetirir. Bu yanaşma, əslində, dövlətimizin dil siyasətinə uyğun olaraq həyata keçirilən ardıcıl və sistemli fəaliyyətin göstəricisidir. Bu, ölkə rəhbəri cənab Prezident İlham Əliyevin həyata keçirdiyi dil siyasətinə uyğun olaraq ali təhsil müəssisələrinin üzərlərinə düşən vəzifələri uğurla icra etməsinin növbəti göstəricisidir. Biz bir daha şahid olduq ki, Naxçıvan Dövlət Universitetində azərbaycançılıq ideyalarına, milli kimlik dəyərlərinə yanaşma yüksək səviyyədə həyata keçirilir.

Konfransda iştirak edən müxtəlif ali təhsil müəssisələrinin nümayəndələri, tədqiqatçılar, o cümlədən Azərbaycan Milli Elmlər Akademiyası institutlarının əməkdaşlarının iştirakı tədbirin geniş əhatə dairəsinə malik olduğunu bir daha göstərdi.

Biz bilirik ki, Azərbaycan dilinin qorunması və inkişafı ilə bağlı siyasətin əsası hələ ötən əsrin 70-80-ci illərində Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulmuşdur. Bu gün isə həmin siyasət möhtərəm Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir və yeni mərhələyə yüksəldilir. Bu isə ali təhsil müəssisələrinin üzərinə əlavə məsuliyyət qoyur.

Eyni zamanda hesab edirəm ki, ali təhsil müəssisələrinin əsas vəzifələrindən biri gənclərin təkcə ixtisaslı mütəxəssis kimi deyil, həm də milli kimliyinə, dilinə və dövlətçilik dəyərlərinə bağlı vətəndaş kimi formalaşdırılmasıdır. Bu istiqamətdə həm Bakı Slavyan Universitetində, həm də Naxçıvan Dövlət Universitetində ciddi iş aparılır.

Bakı Slavyan Universiteti ilə Naxçıvan Dövlət Universiteti arasında mövcud əməkdaşlığı da xüsusi qeyd etmək istərdim. Bizim əməkdaşlığımız təkcə rəsmi sənədlərlə məhdudlaşmır, həm də real elmi layihələr, birgə tədbirlər və qarşılıqlı fəaliyyət üzərində qurulub. Bu əməkdaşlıq həm Naxçıvanda, həm Bakıda, həm də digər elmi məkanlarda uğurla davam etdirilir.

Biz Bakı Slavyan Universitetində, eyni zamanda tərəfdaş olduğumuz xarici universitetlərdə Azərbaycan dilinin təşviqi ilə də məşğuluq. Müxtəlif ölkələrdə fəaliyyət göstərən Azərbaycan dili və mədəniyyəti mərkəzlərimiz vasitəsilə azərbaycançılıq ideologiyası, Azərbaycan dili, mədəniyyəti və ədəbiyyatı təbliğ olunur. Eyni zamanda Qərbi Azərbaycan mövzusu və Ulu Öndərin dövlətçilik fəaliyyəti də həmin mərkəzlərdə təqdim edilir ki, xarici gənclər və azərbaycanlı ailələrin övladları bu dəyərlərlə tanış olsunlar.

Bu gün həm də onu qeyd etmək istərdim ki, Azərbaycan dilinin öyrənilməsində süni intellekt və rəqəmsal texnologiyaların rolu artır. Bakı Slavyan Universitetində yaratdığımız Süni İntellekt Əsaslı Dil Öyrənmə Mərkəzində də məqsədimiz rəqəmsal platformalar üçün Azərbaycan dilli məzmunun yaradılmasıdır.

Sonda onu qeyd etmək istərdim ki, Naxçıvan Dövlət Universiteti və Bakı Slavyan Universiteti arasında əməkdaşlığın daha da genişlənməsi Azərbaycan dilinin inkişafına, elmi mühitin güclənməsinə və gənc nəslin milli ruhda formalaşmasına mühüm töhfə verəcək.

Mən fürsətdən istifadə edərək Elbrus İsayevə və onun kollektivinə, professor-müəllim heyətinə və tələbələrə bu fəaliyyətlərinə görə dərin minnətdarlığımı bildirirəm.

***

***AMEA Dilçilik İnstitutunun direktoru, professoru Nadir Məmmədli:***

Mənim konfransdakı məruzəm "Elmin dövlət strukturlarına inteqrasiyası" mövzusuna həsr olunmuşdu. Biz hər zaman qeyd edirik ki, dili zənginləşdirmək vacibdir, lakin bu proses yalnız qeyri-peşəkar yanaşmalarla deyil, alimlərin, dilçilərin və elmi strukturların iştirakı ilə həyata keçirilməlidir. Yəni dil elmi əsaslarla, peşəkar mühitdə inkişaf etdirilməlidir.

Bu məsələ ilə bağlı biz ciddi müzakirələr aparmışıq. Cənab Prezident İlham Əliyevin AMEA-nın 80 illiyi ilə bağlı etdiyi çıxışlarda, eləcə də mətbuat nümayəndələri və televiziya işçiləri ilə görüşlərdə elmin dövlət strukturlarına inteqrasiyası məsələsinə aydınlıq gətirilmişdi. Orada elmin inkişaf istiqamətləri və onun dövlət idarəçiliyi ilə əlaqəsi dəqiq şəkildə müəyyənləşdirilmişdi.

Biz qeyd etmişdik ki, bu gün dilçilik elmi, xüsusilə süni intellekt və rəqəmsal platformalarla mütləq şəkildə uzlaşdırılmalıdır. Əks halda, dil elmi inkişafdan geri qala bilər. Bu baxımdan strateji yanaşma vacibdir.

Birinci növbədə, dövlət dilinə münasibət daha da müasir və sistemli şəkildə formalaşdırılmalıdır. İkinci mühüm məsələ terminoloji boşluqların doldurulmasıdır. Bu prosesdə yalnız Avropa dillərindən və ya rus dilindən alınmalara üstünlük verilməsi doğru yanaşma deyil. Alternativ mənbələrdən, xüsusilə türk dilləri ailəsindən və mövcud elmi fondlardan istifadə etmək daha məqsədəuyğundur.

Eyni zamanda dil üslublarına da yenidən baxıl



ması vacibdir. Xüsusilə rəsmi üslubda artıq formalaşmış, təkrarlanan ifadələrdən imtina olunmalıdır. Məsələn, "yazıb sizə bildirirəm ki…" kimi qəlib ifdələr müasir dil mühitində artıq aktuallığını itirir. Bu məsələdə əsas rolu dilçilər və elmi-tədqiqatçılar oynamalıdır.

Digər mühüm istiqamət rəqəmsal platformaların inkişafıdır. Xüsusilə tərcümə sistemlərinin və alqoritmlərin yaradılması bu sahəyə böyük töhfə verə bilər. Bu, həm iş yükünü azaldar, həm də dilin texnoloji mühitə uyğunlaşmasını təmin edər.

Xüsusi olaraq qeyd etmək istəyirəm ki, korpus dilçiliyi inkişaf etdirilməlidir. Dilin söz bazasının sistemləşdirilməsi, Azərbaycan dilində mövcud leksik fondun tam şəkildə müəyyənləşdirilməsi gələcək elmi - tədqiqatlar üçün mühüm əsas yaradır. Əgər biz dilin söz ehtiyatını tam şəkildə bilsək, onun istifadəsini daha düzgün və səmərəli təşkil edə bilərik.

Bu günlərdə Naxçıvan Dövlət Universitetində "Birinci Türkoloji Qurultayın 100 illiyi"nə həsr olunmuş kitabımın təqdimatı da bu baxımdan xüsusi əhəmiyyət daşıyır. Tədbirdə iştirak edənlərin böyük marağı göstərdi ki, bu mövzu akademik və ictimai müstəvidə ciddi rezonans doğurur. Çünki ilk dəfə idi ki, Türkoloji Qurultay məxfi sənədlər aspektində açılırdı. Həmin materiallar göstərir ki, Türkoloji Qurultay təkcə elmi deyil, eyni zamanda siyasi kontekstdə də mühüm hadisə olmuşdur və onun arxiv sənədləri bu gün daha dərindən araşdırılır.

Naxçıvan xalqına təşəkkür edirəm ki, elmə, alimə belə yüksək qiymət verir. Doğrudan da Azərbaycanda ikinci belə bir universitet yoxdur. Çünki ölkədə müxtəlif ixtisaslaşmış ali məktəblər var, məsələn, Kooperasiya Universiteti ayrıca, Tibb Universiteti ayrıca fəaliyyət göstərir. Lakin Naxçıvan Dövlət Universiteti yeganə universitet şəhərciyidir ki, burada bütün fakültələr yığcam və sistemli şəkildə fəaliyyət göstərir.

Mən Naxçıvana gələndə hörmətli akademik İsa Həbibbəyli belə bir fikir də səsləndirdi ki, bu universitetin yaradılmasında onun böyük zəhməti olub. Lakin bu ali təhsil ocağının inkişafında, formalaşmasında və bu səviyyəyə çatmasında əsas rolu Elbrus İsayevin rəhbərliyi oynayıb. Universitetin bugünkü nüfuzu və elmi mühiti məhz bu ardıcıl fəaliyyətin nəticəsidir.

Bir daha elmə, alimə yüksək qiymət verdiyiniz üçün sizlərə təşəkkür edirəm.

***

***Filologiya elmləri doktoru, professor Sədaqət Həsənova:***

"Çağdaş Azərbaycan dilinin aktual problemləri" mövzusunda keçirilən IV Respublika Elmi Praktik Konfransı Azərbaycan dilçiliyinin inkişafı baxımından



mühüm elmi və ictimai əhəmiyyət daşıyır. Bu kimi elmi tədbirlər ana dilinin qorunması, inkişaf etdirilməsi və müasir dövrün tələblərinə uyğun şəkildə araşdırılması üçün geniş imkanlar yaradır. Xüsusilə qloballaşma və rəqəmsallaşma şəraitində Azərbaycan dili nin qarşılaşdığı problemlərin elmi müstəvidə müzakirəsi xüsusi aktuallıq kəsb edir.

Konfransın əsas üstünlüklərindən biri onun çoxşaxəli mövzu istiqamətlərini əhatə etməsidir. "Dil mədəniyyətinin qorunması və inkişafı" bölməsi Azərbaycan ədəbi dilinin normalarının qorunması, nitq mədəniyyətinin təbliği və gənc nəslin ana dilinə bağlılığının gücləndirilməsi baxımından mühüm rol oynayır. Bu istiqamətdə aparılan müzakirələr milli-mənəvi dəyərlərin yaşadılmasına da xidmət edir.

"İstehsal mühiti və dil texnologiyaları" bölməsi isə müasir dövr üçün xüsusi aktuallıq daşıyır. Süni intellekt, elektron lüğətlər, avtomatik tərcümə sistemləri və korpus dilçiliyi kimi sahələr Azərbaycan dilinin texnoloji inkişafını sürətləndirir. Bu mövzuların konfransda müzakirəsi dilin rəqəmsal platformalarda istifadəsinin genişlənməsinə və beynəlxalq informasiya məkanında mövqeyinin güclənməsinə xidmət edir.

"Müasir Azərbaycan ədəbi dilinin problemləri" istiqamətində aparılan müzakirələr isə dilin normativ qaydalarının qorunması baxımından önəmlidir. Son illərdə danışıq dili ilə yazı dili arasında yaranan fərqlər, sosial şəbəkələrin təsiri və bəzi qrammatik normaların pozulması dilçilərin diqqət mərkəzindədir. Konfrans bu problemlərin elmi əsaslarla araşdırılmasına və həlli yollarının müəyyənləşdirilməsinə şərait yaradır.

Eyni zamanda xarici sözlərin dilə təsiri və onların uyğunlaşdırılması məsələsi də aktual mövzulardandır. Qloballaşma nəticəsində Azərbaycan dilinə daxil olan alınma sözlərin düzgün işlənməsi və normativləşdirilməsi dilin milli xüsusiyyətlərinin qorunması baxımından mühüm əhəmiyyət daşıyır.

"Media və kommunikasiya dili" bölməsi isə müasir informasiya cəmiyyətində xüsusi yer tutur. Televiziya, radio, internet və sosial şəbəkələrdə istifadə olunan dil geniş auditoriyaya təsir göstərdiyi üçün ədəbi dil normalarının qorunması vacibdir. Bu istiqamətdə aparılan müzakirələr ümumi nitq mədəniyyətinin yüksəldilməsinə xidmət edir.

Konfransın mühüm cəhətlərindən biri də müxtəlif ali təhsil müəssisələrinin, elmi mərkəzlərin və Azərbaycan Milli Elmlər Akademiyası institutlarının nümayəndələrinin bir araya gəlməsidir. Bu cür platformalar elmi fikir mübadiləsi, yeni tədqiqat istiqamətlərinin müəyyənləşdirilməsi və gənc tədqiqatçıların formalaşması üçün geniş imkanlar yaradır.

Konfrans həm nəzəri, həm də praktiki baxımdan əhəmiyyətlidir. Burada səsləndirilən fikir və təkliflər gələcəkdə təhsil sistemində, mediada və rəsmi ünsiyyətdə dil siyasətinin təkmilləşdirilməsinə töhfə verə bilər. Eyni zamanda ana dilinin düzgün istifadəsi ilə bağlı ictimai maarifləndirmə işinin gücləndirilməsi baxımından da mühüm rol oynayır.

Tədbirin keçirilməsi Naxçıvan Dövlət Universiteti - nin elmi nüfuzunun artmasına da mühüm töhfə verir. Universitetin digər elmi müəssisələrlə əməkdaşlığı onun ölkənin elmi və mədəni həyatında fəal iştirak etdiyini göstərir və dilçilik sahəsində aparıcı mərkəzlərdən biri kimi tanınmasına şərait yaradır.

Respublikanın müxtəlif bölgələrindən alimlərin, tədqiqatçıların və gənc mütəxəssislərin iştirak etməsi universitetin elmi əlaqələrinin genişlənməsinə və akademik əməkdaşlığın güclənməsinə xidmət edir.

Konfrans tələbə və magistrantlar üçün də böyük əhəmiyyət daşıyır. Onlar tanınmış alimlərin çıxışlarını dinləmək, elmi müzakirələrdə iştirak etmək və müasir dilçilik problemləri ilə yaxından tanış olmaq imkanı əldə edirlər. Bu isə gənclərin elmi fəaliyyətə marağını artırır, onların tədqiqat bacarıqlarının inkişafına və universitetdə elmi mühitin daha da canlanmasına şərait yaradır.

***İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universiteti Bakı filialının Bioloji, Humanitar və İctimai elmlər şöbəsinin müdiri, filologiya üzrə fəlsəfə doktoru, dosent Dürdanə Rəhimzadə:***



Sözümü Naxçıvan Dövlət Universiteti haqqında təəssüratlarımla başlamaq istəyirəm. Naxçıvanda bir neçə dəfə olmuşam, amma universitetə gəlmək mənə ilk dəfə nəsib oldu və həqiqətən möhtəşəm təəssüratlarım yarandı. Gözəl bir tədbir keçirildi.

Xüsusilə rektorun çıxışını son dərəcə bəyəndim. O, çox axıcı, məzmunlu və mükəmməl natiqlik nümayiş etdirdi. Onun nitqinə saatlarla qulaq asmaq olar. Tələffüzdən tutmuş məzmunadək hər şey yerində idi. Bu çıxış həm tələbələr, həm də ümumilikdə hər kəs üçün nümunə olacaq səviyyədə idi.

Tədbirin gedişatı da yüksək səviyyədə təşkil olunmuşdu. Açılışda çox maraqlı və aktual mövzulara həsr olunmuş çıxışlar oldu. Məruzələr əsasən bu gün cəmiyyətimizdə mövcud olan problemlərə — dil məsələlərinə, dilimizdəki aktual çağırışlara və onların həlli yollarına həsr olunmuşdu. Eyni zamanda dil və iqtisadiyyatın əlaqəsi kimi ilk baxışdan fərqli görünən, amma çox maraqlı mövzulara da toxunuldu.

Vaxt məhdud olduğuna görə çıxışlar reqlamentə uyğun şəkildə qısa oldu. Lakin əminəm ki, həmin məruzələrin tam mətnləri oxunduqda daha da maraqlı və faydalı olacaq.

Xüsusi olaraq Türkoloji Qurultayın 100 illiyinə həsr olunmuş kitabların təqdimatı diqqətimi çəkdi. Mən Nadir müəllimə də bildirdim ki, bu kitablardan mütləq əldə edəcəyəm. Çünki bu, çox böyük bir elmi işdir. Türkoloji Qurultayda müasir Azərbaycan dilinin təməli qoyulub, orada səslənən fikirlər və təkliflər sonrakı dövr üçün mühüm elmi baza yaradıb.

Həmin dövrə aid materialların, arxiv sənədlərinin və tədqiqatların bu gün işıq üzü görməsi çox böyük elmi nailiyyətdir. Bu baxımdan Nadir müəllimin və əməyi keçən hər kəsin zəhmətini xüsusi qeyd etmək lazımdır.

Sonda demək istəyirəm ki, həm Naxçıvan Dövlət Universitetində keçirilən bu konfrans, həm də ümumilikdə universitetdə təşkil olunan tədbirlər çox yüksək səviyyədədir. Arzu edirəm ki, bu cür elmi tədbirlər davamlı olsun və universitetin elmi mühiti daha da inkişaf etsin.

***Filologiya üzrə fəlsəfə doktoru, dosent Arif Ağalarov:***

Milli-mənəvi dəyərlərimizin daşıyıcısı, milli kimliyimizin simvolu olan Azərbaycan dilinin saflığının və təmizliyinin qorunması, onun işlənmə arealının genişləndirilməsi günümüzün aktual məsələlərindəndir. Son dövrlərdə ölkə başçısının Azərbaycan dili ilə bağlı verdiyi mesajlar bu istiqamətdə bütün təhsil və elm müəssisələri qarşısında mühüm vəzifələr müəyyənləşdirmişdir.

Məhz bu tapşırıqlara cavab olaraq artıq ənənəvi xarakter alan "Çağdaş Azərbaycan dilinin aktual problemləri" mövzusunda respublika səviyyəli elmi konfranslar dördüncü dəfədir ki, Naxçıvan Dövlət Universitetində keçirilir.

Konfransın əsas əhəmiyyəti ondan ibarətdir ki, biz qloballaşan və rəqəmsallaşan bir dövrdə yaşayırıq. Bu şəraitdə dilə innovativ təsirlər artır, müxtəlif dillərdən yeni sözlərin Azərbaycan dilinə daxil olması, onların işləkliyə düşməsi, terminologiya məsələləri xüsusi aktuallıq kəsb edir. Eyni zamanda son dövrlərdə gündəmə gələn ortaq türk dili müzakirələri fonunda



Azərbaycan dilinin işlənmə arealı, qarşıda duran problemlər və onların həlli yolları elmi müstəvidə geniş şəkildə müzakirə olunur.

Qeyd etmək lazımdır ki, bu konfransın təşkilində Azərbaycan Dövlət Pedaqoji Universiteti, Azərbaycan Milli Elmlər Akademiyası və digər elmi-təhsil müəssisələrinin də iştirakı onun elmi çəkisini daha da artırmışdır. Müxtəlif elm adamlarının birgə iştirakı Azərbaycan dilinin aktual problemlərinə vahid yanaşmanın formalaşmasına xidmət edir.

Bu əməkdaşlıq konfransın həm təşkilati, həm də elmi baxımdan yüksək səviyyədə keçməsinə imkan yaratmışdır və onu ölkənin aparıcı elmi mühitlərindən biri kimi dəyərləndirməyə əsas verir.

Mən hesab edirəm ki, Azərbaycan dilinin saflığının və təmizliyinin qorunması, onun işlənmə arealının genişləndirilməsi bu gün də prioritet məsələlərdən biridir. Bu istiqamətdə Naxçıvan Dövlət Universitetində həm tədris prosesində, həm də elmi - tədqiqatlar sahəsində aparılan işlər, eləcə də digər elmi mərkəzlərlə əməkdaşlıq xüsusi əhəmiyyət daşıyır.

İnanıram ki, konfransda səsləndirilən elmi nəticələr və müzakirələr gələcəkdə həm tədqiqatçılar, həm də magistrant və doktorantlar üçün mühüm elmi mənbə rolunu oynaya bilər.

# NDU-da Magistrantların XV Regional konfransı keçirilib

Naxçıvan Dövlət Universitetində Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 103-cü ildönümünə, 2026-cı il – "Şəhərsalma və Memarlıq İli"nə və Azərbaycan Turizm və Menecment Universitetinin (ATMU) 20 illiyinə həsr olunmuş Magistrantların XV Regional Konfransı təşkil olunub.

Əvvəlcə Ümummilli Lider Heydər Əliyevin Naxçıvan şəhərində əzəmətlə ucaldılan abidəsi ziyarət edilib, abidə önünə gül dəstələri qoyulub.

Konfransa başlamazdan öncə Ümummilli Lider Heydər Əliyevin və Vətən uğrunda canlarından keçmiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Ardınca Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

NDU-nun rektoru Elbrus İsayev tədbiri giriş sözü ilə açaraq ATMU kollektivini 20 illik münasibətilə təbrik edib, bu konfransın birgə keçirilməsinin mövcud əməkdaşlığın daha da genişlənməsinə mühüm töhfə verəcəyini vurğulayıb. Rektor Ümummilli Lider Heydər Əliyevin xatirəsini ehtiramla anaraq bildirib ki, NDU məhz Ulu Öndərin dəstəyi ilə təsis olunub. Ümummilli Liderin NDU-nun Fəxri Doktoru olduğunu vurğulayan rektor bildirib ki, onun adına və ideyalarına layiq fəaliyyət göstərmək, müəyyənləşdirdiyi inkişaf strategiyasını təhsil və elm sahəsində uğurla davam etdirmək universitetin əsas prioritet istiqamətlərindən biridir.




Təkcə 2025-ci ildə universitetin 250-dən çox işçi qəbulu etdiyini vurğulayan rektor, yeni işə qəbul olunanların əksəriyyətinin NDU-nun magistrantları olduğunu bildirib. Elmi-analitik düşüncəyə malik tədqiqatçı gənclərin yetişməsində magistratura təhsilinin önəmindən, son illərdə təhsilin bu pilləsinə marağın artmasından danışıb. Bildirib ki, universitetdə maddi-texniki bazanın gücləndirilməsi, müasir laboratoriya və tədris imkanlarının yaradılması magistrantlar üçün yeni imkanlar açır.

ATMU-nun rektoru İlham Mədətov çıxışında bildirib ki, Ulu Öndərin 103 illiyinə həsr olunmuş bu konfrans yalnız elmi platforma deyil, eyni zamanda Ulu Öndərin zəngin dövlətçilik irsinin, milli inkişaf strategiyasının və azərbaycançılıq ideologiyasının təbliği baxımından mühüm əhəmiyyət daşıyan tədbirdir.

Çıxışında Azərbaycanda turizm sahəsinin inkişafına toxunan rektor qeyd edib ki, 1990-cı illərdə ölkədə siyasi sabitliyin təmin olunması ilə turizm sektoru yeni inkişaf mərhələsinə qədəm qoyub, bu sahədə



mühüm dövlət proqramları və strateji layihələr həyata keçirilib. Azərbaycanın zəngin tarixi-mədəni irsi, təbii gözəllikləri və milli dəyərləri beynəlxalq miqyasda daha geniş tanıdılıb, nəticədə ölkənin beynəlxalq əlaqələri əhəmiyyətli dərəcədə genişlənib.




NDU Magistratura və Doktorantura Mərkəzinin direktoru Çapay Quliyev Naxçıvan Dövlət Universitetində magistr hazırlığının keyfiyyətinin yüksəldilməsi və elmi-tədqiqat mühitinin gücləndirilməsi istiqa mə tində görülən işlərdən danışıb. Vurğulayıb ki, son illərdə universitetdə magistratura səviyyəsində 4 yeni ixtisas üzrə qəbul aparılıb, 2027-2028-ci tədris ili üçün isə 30-a yaxın yeni və perspektivli ixtisasın açılması nəzərdə tutulur. Tədris proqramlarına yeni fənlər daxil edilir, tədrisi ingilis dilində olan ixtisasların sayı artırılır, ikili diplom proqramlarının genişləndirilməsi



istiqamətində işlər davam etdirilir.

Çıxış zamanı bildirilib ki, elmi-tədqiqatların stimullaşdırılması magistr hazırlığında əsas keyfiyyət amillərindən biridir. Bu məqsədlə magistrantlar üçün müxtəlif kurslar, təlimlər və akademik seminarlar təşkil olunur. Universitetdə 30-dan çox əcnəbi professor və elmi məsləhətçi magistrantların tədqiqat fəaliyyətinə dəstək göstərir. Həmçinin bu il magistraturada tədris prosesinə 15-ə yaxın xarici professor cəlb olunub.

Daha sonra ATMU-nun müəllimi, iqtisadiyyat üzrə fəlsəfə doktoru Çinarə İmamverdiyevanın "Heydər Əliyev və Azərbaycan Turizmi", NDU-nun "İnkişaf psixologiyası" ixtisası üzrə I kurs magistrantı Həcər Ələsgərovanın "Valideyn gözləntiləri və gənclərin peşə seçimi arasında konflikt: nəzəri yanaşmalar və psixo-




loji determinatlar" mövzusunda məruzələri dinlənilib.

Tədbirin bədii hissəsində Azərbaycan Respublikasının Əməkdar artisti, dosent Mübariz Əsgərovun bədii rəhbərliyi ilə II kurs magistrantlarının ifasında müxtəlif musiqi nömrələri ifa edilib.

Qeyd edək ki, üz-üzə və onlayn formatda təşkil olunan konfransda 2 gün ərzində 7 istiqamət üzrə 14 bölmədə 19 elm-təhsil müəssisəsindən 134 magistrantın 106 məruzəsi təqdim olunub.

***Gülay Tahirli***
***Media və ictimaiyyətlə əlaqələr şöbəsinin əməkdaşı***

# NDU İnnovasiya Mərkəzində kibertəhlükəsizlik təlimi təşkil olunub

Naxçıvan Dövlət Universiteti İnnovasiya Mərkəzində "CYBER THREAT INVESTIGATION & DIGITAL INTELLIGENCE" BOOTCAMP NAKHCHIVAN – 2026 ("Kiber Təhdidlərin Araşdırılması və Rəqəmsal Kəşfiyyat Təlim Kampı Naxçıvan – 2026") adlı təlim baş tutub.

Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev müasir dövrdə rəqəmsallaşmanın və informasiya təhlükəsizliyinin vacibliyindən bəhs edib.

Universitetdə yeni açılan İnformasiya təhlükəsizliyi ixtisasının bu sahənin inkişafı baxımından əhəmiyyətli rol oynadığını bildirən rektor, eyni zamanda rəqəmsal transformasiya və kibertəhlükəsizlik istiqamətində kadr hazırlığının gücləndirilməsinin, maarifləndirici təlimlərin keçirilməsinin vacibliyini də xüsusi vurğulayıb.

Naxçıvan Rəqəmsal İnkişaf və Nəqliyyat nazirinin müavini, nazir vəzifəsini icra edən Azər Məmmədrəhimov və İRİA İnformasiya Təhlükəsizliyi Departamentinin müdiri Şahmar Hacıyəhyayev çıxışlarında kibertəhlükəsizliyin müasir dövrdə strateji əhəmiyyətindən danışıblar. Rəqəmsal sistemlərin davamlı inkişafı ilə yanaşı, bu sistemlərin təhlükəsizliyinin təmin olunmasının da eyni dərəcədə vacib olduğu bildirilib.






Kompüter mühəndisliyi (tədris ingilis dilində) ixtisası üzrə I kurs tələbəsi Cəmilə Babayeva tələbələr adından çıxış edərək bu cür təlimlərin keçirilməsinin gənclərin bilik və bacarıqlarının inkişafına kömək edəcəyini qeyd edib.

Çıxışlardan sonra iki mərhələdən ibarət praktiki təlim proqramına start verilib. Təlimin birinci mərhələsində real həyatı simulyasiya edən kibercinayət ssenarisi əsasında tapşırıqlar icra olunub. Bu mərhələdə rəqəmsal izlərin aşkarlanması və interpretasiyası, istifadəçi davranışlarının və izbuRaxma mexanizmlərinin təhlili, açıq mənbələrdən məlumatların toplanması və strukturlaşdırılmış analiz yanaşmaları tətbiq edilib.

İkinci mərhələdə isə komandalar üzrə praktiki araşdırmalar aparılıb. Verilmiş məlumatlar əsasında şəxs və fəaliyyətlərin identifikasiyası həyata keçirilib, əlaqələr və strukturlar təhlil olunub. Eyni zamanda "flag-based" tapşırıqlar yerinə yetirilib, komandalar arasında rəqabət mühiti yaradılıb.

Təlimin yekununda əldə olunan nəticələr təqdim olunub, analitik yanaşmalar müzakirə edilib, həmçinin kibertəhlükəsizlik sahəsində peşəkar inkişaf yolları barədə fikir mübadiləsi aparılıb.

Sonda təlim iştirakçılarına sertifikatlar təqdim olunub.

*Badəm Əliyeva*
*Media və ictimaiyyətlə əlaqələr şöbəsinin əməkdaşı*

# "2025-2026-cı tədris ilində TEC xətti ilə aparılan elmi-tədqiqat işlərinin Başlanğıc Konfransı" keçirilib

Naxçıvan Dövlət Universitetində "2025-2026-cı tədris ilində TEC xətti ilə aparılan elmi-tədqiqat işlərinin Başlanğıc Konfransı" baş tutub.







Əvvəlcə NDU-nun İncəsənət fakültəsində tələbələrin TEC xətti ilə hazırladıqları əl işləri, rəsm əsərləri, milli kulinariya nümunələri, həmçinin müxtəlif startap layihələrindən ibarət sərgiyə baxış olub.

Tədbirin girişində Ümummilli Lider Heydər Əliyevin, akademik Zərifə Əliyevanın, Vətən uğrunda canlarından keçmiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Ali təhsil ocağının rektoru Elbrus İsayev tədbiri giriş sözü ilə açaraq bildirib ki, son illərdə tələbələrin elmi fəaliyyəti tələbə sayına nisbətdə həm kəmiyyət, həm də keyfiyyət baxımından qaneedicidir. TEC-in hər il yeni inkişaf mərhələsinə qədəm qoyduğunu vurğulayan rektor tələbələrin artıq öz elmi nailiyyətlərini startapa çevirmələrini böyük uğur kimi dəyərləndirib. Elmi fəaliyyətin inkişafı ilə bağlı qarşıda duran vəzifələri, görüləcək işləri nəzərə çatdıran rektor bütün tədqiqatçı tələbələrə, onların elmi rəhbərlərinə təşəkkür edib, uğurlar arzulayıb.

NDU Tələbə Elmi Cəmiyyətinin sədri Yusif Mirzəzadə hesabat xarakterli çıxış edərək bildirib ki, Naxçıvan Dövlət Universitetində 2025-2026-cı tədris ilində 1775 nəfər tələbə tərəfindən 1751 elmi-tədqiqat işi aparılıb. Bu göstərici universitetdə təhsil alan əyani tələbələrin 24,2%-nə bərabərdir. Son 6 ilə nəzər saldıqda elmi fəaliyyətlə məşğul olan tələbə sayı 3 dəfəyə qədər artıb. Gender kateqoriyasına uyğun olaraq baxdıqda 2025-2026-ci tədris ilində elmi-tədqiqatla məşğul olan 1775 nəfər tələbənin 72,56%-ni qadınlar, 27,44%-ni kişilər təşkil edir. Ən çox tələbənin elmi-tədqiqat apardığı fakültə 228 nəfərlə Tibb fakültəsi, ən çox tələbənin elmi-tədqiqat apardığı kafedra isə 78 nəfərlə "Klinik fənlər və hərbi tibb" kafedrasıdır. Elmi-tədqiqatla məşğul olan tələbələrin 66-sı əcnəbi tələbələrdir. 2026-cı ilin ilk 4 ayı ərzində 3 tələbənin (Dövlət və ictimai münasibətlər, Tibb (tədris ingilis dilində) və Kimya) məqaləsi Scopus və Web of Science elmmetrik bazalarında indekslənib.





Daha sonra "İqtisadiyyat (tədrisi ingilis dilində)" ixtisası üzrə III kurs tələbəsi Gülnar Cabbarova "Naxçıvan Muxtar Respublikasında sahibkarlıq mühitinin optimallaşdırılması istiqamətləri" mövzusunda elmi-tədqiqat işini nümayiş etdirib və hazırladığı Naxçıvan sahibkarlıq xəritəsini rektora hədiyyə edib.





Yer quruluşu və daşınmaz əmlakın kadastrı ixtisası üzrə IV kurs tələbəsi Leyla Süleymanlının "Naxçıvan Dövlət Universiteti kampusunun funksional planlaşdırılması: daşınmaz əmlak obyektlərinin, yaşıl sahələrin və nəqliyyat infrastrukturunun GİS əsaslı xəritələşdirilməsi və 3D modelləşdirilməsi və Kimya ixtisası üzrə III kurs tələbəsi Şahmurad Rüstəmovun "Leklanş elementi əsasında alternativ qalvanik sistemlərin qurulması və səmərəliliyinə təsir edən amillərin araşdırılması" mövzusunda elmi-praktiki məruzələri dinlənilib.

Tədbirin bədii hissəsində "Belkanto" vokal qrupunun ifasında müxtəlif musiqi nömrələri səsləndirilib.

Daha sonra konfrans öz işini bölmə iclasları ilə davam etdirib.

Qeyd edək ki, bölmə iclasları 10 fakültədə, 45 panel üzrə keçirilib, 1700-dən artıq məruzə dinlənilib.

*Gülay Tahirli*
*Media və ictimaiyyətlə əlaqələr şöbəsinin əməkdaşı*

# "Ulu Öndərin Xatirə Həftəsi"nə start verilib: Ümummilli Lider Heydər Əliyevin abidəsi ziyarət edilib

04-08 may tarixlərində Naxçıvan Dövlət Universitetində Tələbə Elmi Cəmiyyətinin təşkilatçılığı ilə Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 103-cü ildönümünə və 2026-cı il – "Şəhərsalma və Memarlıq İli"nə həsr olunmuş "Ulu Öndərin Xatirə Həftəsi"nə start verilib.

"Ulu Öndərin Xatirə Həftəsi" çərçivəsində NDU kollektivi tərəfindən dahi şəxsiyyət Heydər Əliyevin Naxçıvan şəhərində əzəmətlə ucalan abidəsi ziyarət edilib. Rektor Elbrus İsayev, universitetin professor-müəllim heyəti və Tələbə Elmi Cəmiyyətinin üzvü olan tələbələr abidə önünə gül dəstələri qoyub, Ümummilli Liderin əziz xatirəsini dərin ehtiramla yad ediblər.

Daha sonra kollektiv Heydər Əliyev Muzeyini ziyarət edib.





Muzeydə Ulu Öndərin Naxçıvan dövründəki fəaliyyəti, Azərbaycanın müstəqilliyinin qorunması və dövlətçiliyinin möhkəmləndirilməsində müstəsna xidmətləri barədə ətraflı məlumat verilib. Ziyarətçilər muzeydə Heydər Əliyevin müxtəlif dövrlərdə çəkilmiş fotoşəkillərinə, şəxsi əşyalarına, diplomatik görüşlərini əks etdirən sənədlərə və xatirə hədiyyələrinə baxış keçiriblər. Muzeyin ekspozisiyasında Ulu Öndərin Naxçıvan Muxtar Respublikasının Ali Məclisinin Sədri olduğu dövrdə həyata keçirdiyi mühüm siyasi qərarları əks etdirən materiallarla tanış olublar.

Sonda xatirə fotosu çəkdirilib.

Qeyd edək ki, "Ulu Öndərin Xatirə Həftəsi" çərçivəsində "Ömrün Naxçıvan aşırımları" sənədli filminin nümayişi, "Xalqın taleyini öz taleyinə çevirən adam" mövzusunda panel müzakirə, "Heydər Əliyev və dövlət şəhərsalma siyasəti" və "Mənim həyatımın məqsədi Azərbaycandır!" adlı dəyirmi masalar və 2026-cı il – "Şəhərsalma və Memarlıq İli"nə həsr olunmuş 2025-2026-cı tədris ilində TEC xətti ilə yerinə yetirilmiş elmi tədqiqat işlərinin yekun konfransı kimi silsilə tədbirlər keçiriləcək.

# "Akademik Zərifə Əliyeva -103" mövzusunda dəyirmi masa

Naxçıvan Dövlət Universitetinin Tibb fakültəsində Zərifə xanım Əliyevanın anadan olmasının 103 illiyinə həsr olunmuş dəyirmi masa təşkil olunub.

Fakültənin dekan müavini Şəfiqə Süleymanova Zərifə Əliyevanın Azərbaycan tarixində ilk qadın akademik-oftalmoloq kimi elm salnaməsinə adını qızıl hərflərlə yazdırdığını, yalnız alim kimi deyil, həm də pedaqoq və ictimai xadim kimi yüksək nüfuz qazandığını, milli səhiyyə sisteminin inkişafına və ixtisaslı kadrların hazırlanmasına mühüm töhfələr verdiyini bildirib.

"Klinik fənlər və hərbi tibb" kafedrasının müəllimləri tibb üzrə fəlsəfə doktoru Etibar Bababəyli və tibb elmləri doktoru, professor İsa Abdullayev Zərifə Əliyevanın elmi nailiyyətlərindən bəhs ediblər. Qeyd olunub ki, akademik Zərifə Əliyeva zəngin mənəvi dəyərlərə sahib əsl ziyalı kimi mənalı və şərəfli ömür yolu keçib. Elmi fəaliyyəti ilə ölkəmizdə tibb sahəsinin, xüsusilə, oftalmologiyanın inkişafına mühüm töhfələr verən alimin təşəbbüsü ilə Azərbaycanda oftalmologiya məktəbinin ilk tədqiqat bazası kimi ixtisaslaşmış elmi tədqiqat laboratoriyası





yaradılıb. Bildirilib ki, akademikin yorulmaz fəaliyyəti, zəngin elmi və pedaqoji irsi respublikada peşəkar həkim-oftalmoloqların yetişməsində əhəmiyyətli rol oynayıb.

"Zərifə Əliyeva adına" fəxri təqaüdə layiq görülmüş Bəhriyyə Mustafayeva tələbələr adından çıxış edərək bu təqaüdə layiq görülməyin böyük qürur və məsuliyyət olduğunu vurğulayıb.

Qeyd olunub ki, Zərifə Əliyevanın çoxşaxəli elmi və tibbi fəaliyyəti yalnız öz dövrü üçün deyil, bu gün də aktuallığını qoruyur. Bəhriyyə Mustafayeva çıxışında gələcəyin həkimi olmaq yolunda Zərifə Əliyevanın həyat və fəaliyyətini özünə örnək götürdüyünü, onun yüksək peşəkarlıq və insanpərvərlik prinsiplərini davam etdirməyə çalışacağını bildirib.

*Badəm Əliyeva*
*NDU Media və ictimaiyyətlə əlaqələr şöbəsi*

# NDU nəzdində Musiqi Kollecinin II kurs tələbəsi – gənc istedad Fidan Əliyevanın solo konserti keçirilib

NDU nəzdində Musiqi Kollecinin II kurs tələbəsi – gənc istedad Fidan Əliyevanın solo konserti keçirilib.

Naxçıvan Dövlət Universiteti nəzdində Naxçıvan Musiqi Kollecinin Fortepiano ixtisası üzrə II kurs tələbəsi Fidan Əliyevanın Naxçıvan Dövlət Filarmoniyasının Simfonik Orkestrinin müşayiəti ilə "Musiqinin sərhədsiz dünyası" adlı solo konserti baş tutub.

Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 103-cü ildönümünə həsr olunmuş konsert Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin və Naxçıvan Dövlət Universitetinin dəstəyi, Naxçıvan Dövlət Filarmoniyasının təşkilatçılığı ilə keçirilib. Naxçıvan şəhərindəki Heydər Əliyev Sarayında



təşkil olunan konsertdə universitetin professor-müəllim heyəti, tələbələr və ictimaiyyət nümayəndələri iştirak ediblər.

Naxçıvan Dövlət Universitetinin müəllimi, sənət-



şünaslıq üzrə fəlsəfə doktoru, dosent Günay Məmmədova tədbiri giriş sözü ilə açaraq, Fidan Əliyevanın sənət fəaliyyəti və uğurları barədə ətraflı məlumat verib, əldə olunan nailiyyətlərdə təhsil mühitində onun üçün yaradılan imkanların əhəmiyyətindən bəhs edib.

Fikrət Əmirov və Elmira Nəzirovanın " Ərəb mövzularında Konsert" əsərinin I hissəsi ilə başlayan proqram Cahangir Cahangirovun "Füzuli kontatası"nın II hissəsi, Fredrik Şopenin "İnqilabi etüd", Abuzər Manafzadənin "Xocalıya" əsərləri, Sen-Sans "Dans Macabre" (ölüm rəqsi),

Ferens List – "2 saylı rapsodiya", İohannes Brams – "Brams in salsa" (macar rəqsi) və Fərhad Bədəlbəylinin "Dəniz" əsərləri ilə davam edib.

Dünya klassikasının və milli musiqimizin ən dəyərli nümunələrini özündə birləşdirən proqram musiqi mədəniyyətlərinin vəhdətini aydın şəkildə nümayiş etdirib. Təqdim olunan repertuar dinləyicilərə həm klassik Avropa musiqisinin incəliklərini, həm də Azərbaycan bəstəkarlıq məktəbinin zənginliyini dərindən hiss etmək imkanı yaradıb.

Sonda Fidan Əliyevaya gül dəstələri və müxtəlif hədiyyələr təqdim olunub. NDU-nun rektoru Elbrus İsayev gənc istedadı yaddaqalan konserti üçün təbrik edib, ona gələcək sənət fəaliyyətində uğurlar arzulayıb.

Konsert proqramı dinləyicilər tərəfindən böyük maraq və alqışlarla qarşılanıb.

Qeyd edək ki, orkestrin bədii rəhbəri və dirijoru Prezident mükafatçısı Cahangir Qurbanov, konsertin



bədii rəhbəri Azərbaycan Respublikasının Əməkdar artisti Elman Əliyev, müəllim Naxçıvan Muxtar Respublikasının Əməkdar müəllimi Təranə Hüseynovadır.

# Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 103 illiyinə həsr olunmuş bədii yaradıcılıq müsabiqə-festivalı keçirilib

NDU-da Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 103 illiyinə həsr olunmuş bədii yaradıcılıq müsabiqə-festivalı keçirilib, festival öncəsi NDU-nun rektoru Elbrus İsayev münsiflər heyətini qəbul edib.

Rektor festival çərçivəsində universitetdə olan qonaqları səmimi salamlayaraq onların iştirakını yüksək qiymətləndirib.

Görüşdə Bakı Xoreoqrafiya Akademiyasının prorektoru, Xalq artisti Təranə Muradova, Azərbaycan Respublikasının Əməkdar İncəsənət xadimi Baba Vəziroğlu, Xalq artisti Gülyanaq Məmmədova, Qarabağ Universitetinin İncəsənət fakültəsinin "İfaçılıq və musiqi müəllimliyi" kafedrasının müdiri Arslan Növrəsli və digər nümayəndələr iştirak ediblər.





Elbrus İsayev qeyd edib ki, bədii yaradıcılıq müsabiqə-festivalı artıq universitetdə ənənəvi tədbirlərdən birinə çevrilib. Rektor belə layihələrin tələbələrin yaradıcılıq potensialının üzə çıxarılmasında və milli-mədəni dəyərlərin təbliğində mühüm rol oynadığını vurğulayıb. Bildirilib ki, ali təhsil müəssisəsində keçirilən bütün mədəni-kütləvi tədbirlərdə milli dəyərlər əsas prioritet kimi götürülür.








Görüşdən sonra Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi, Elm və Təhsil İşçiləri Həmkarlar İttifaqı Respublika Komitəsi, Naxçıvan Dövlət Universiteti və universitetin Tələbə Həmkarlar İttifaqı Komitəsinin birgə təşkilatçılığı ilə keçirilən bədii yaradıcılıq müsabiqə-festivalının açılış mərasimi baş tutub.

Öncə universitetin İncəsənət fakültəsində tələbələrin rəsm əsərlərindən və dekorativ-tətbiqi sənət nümunələrindən ibarət sərgiyə baxış olub, qonaqlara duzdan hazırlanmış müxtəlif zinət əşyaları hədiyyə edilib.

Tədbirin girişində Ulu Öndər Heydər Əliyevin və Azərbaycanın müstəqilliyi uğrunda canlarından keçmiş şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

NDU-nun rektoru Elbrus İsayev ali təhsil müəssisələrinin tələbələri arasında Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 103 illiyinə həsr olunmuş bədii yaradıcılıq müsabiqə-festivalını açıq elan edərək qonaqları salamlayıb. Rektor çıxışında artıq ənənə halını alan və bu il beşinci dəfə təşkil olunan müsabiqə-festivalın milli mədəniyyətimizin inkişafına verdiyi töhfələrdən bəhs edib. Qeyd olunub ki, bu cür tədbirlər tələbələrin yaradıcılıq potensialının üzə çıxarılmasında, onların istedadlarının aşkarlanması, qiymətləndirilməsi və geniş ictimaiyyətə tanıdılmasında mühüm rol oynayır.

Elbrus İsayev müsabiqə-festivalın ölkə miqyasında keçirilən mütərəqqi layihələrdən biri olmaqla yanaşı, gənclərin milli vətənpərvərlik ruhunda formalaşmasına, onların mədəniyyətimizə, incəsənətimizə və milli adət-ənənələrimizə bağlılığının gücləndirilməsinə xidmət etdiyini vurğulayıb.

Tədbir NDU-nun Xor kollektivinin və NDU nəzdində Musiqi Kollecinin "Aşıqlar Qrupu"nun təqdimatında rəngarəng çıxışlar ilə davam edib.














Sonra müsabiqəyə start verilib. Müsabiqə çərçivəsində milli və dünya xalqlarının çalğı alətlərinin ifası, bədii qiraət, vokal, saz və rəqs kateqoriyaları üzrə iştirakçıların çıxışları izlənilib. Tələbələrdən ibarət solo ifaçılar, bədii qiraətçilər, həvəskar rəqqas və musiqiçilər, eləcə də orkestr və ansambllar, rəqs kollektivləri öz bacarıqlarını nümayiş etdiriblər.

Səhnəyə çıxan hər bir iştirakçı öz ifası ilə fərqlənməyə çalışıb, təqdim olunan nömrələr münsiflər heyəti tərəfindən peşəkarlıq, səhnə mədəniyyəti və ifa keyfiyyəti baxımından qiymətləndirilib.

Tədbirin ən yaddaqalan məqamlarından biri isə Xalq artisti Gülyanaq Məmmədova ilə istedadlı tələbənin birgə səsləndirdiyi ifa olub. Bu duet müsabiqəyə xüsusi rəng qataraq xoş əhval-ruhiyyə yaradıb.

Qeyd edək ki, müsabiqə-festival müxtəlif nominasiyalar üzrə təşkil olunub və bütün mərhələlərdən uğurla keçən tələbələr yekun konsertdə iştirak hüququ qazanacaqlar.



Bədii yaradıcılıq müsabiqə-festivalı çərçivəsində münsiflər heyəti tələbələr üçün ustad dərsi keçiblər.

Azərbaycan Respublikasının Xalq artisti Gülyanaq Məmmədova və Əməkdar artist Rəşad Haşımov İncəsənət fakültəsində tələbələrlə görüşüblər. Görüşdə sənətkarlar tərəfindən tələbələrin ifaları dinlənilib, qavaldan istifadə, səhnə həyəcanının idarə olunması, düzgün tələffüz qaydaları haqqında məlumat verilib.

Universitetin Elmi Kitabxanasında Əməkdar İncəsənət xadimi Baba Vəziroğlu ilə görüş baş tutub. Tədbiri giriş sözü ilə açan Tarix-filologiya fakültəsinin dekanı, filologiya üzrə fəlsəfə doktoru Arif Ağalarov çıxışında şair, tərcüməçi, kinodramaturq Baba Vəziroğlunun nəğməkar şair kimi Azərbaycan ədəbiyyatında xüsusi yer tutduğunu vurğulayıb. Diskussiya formatında davam edən görüşdə Baba Vəziroğlu müəllim və tələbələrin suallarını cavablandırıb, öz şeirlərini səsləndirib.

Azərbaycan Respublikasının Xalq artisti, Bakı Xoreoqrafiya Akademiyasının xarici əlaqələr üzrə prorektoru Təranə Muradova ilə ustad dərsi universitetin İdman Kompleksində təşkil olunub. Ustad dərsi çərçivəsində sənətkar tərəfindən Naxçıvan Dövlət Universitetinin və onun nəzdində fəaliyyət göstərən Musiqi Kollecinin tələbələrinin musiqi və rəqs bacarıqları dəyərləndirilib.

Təranə Muradova müxtəlif rəqs elementləri və kompozisiyaları tələbələr üçün əyani şəkildə nümayiş etdirib.

Qarabağ Universitetinin İncəsənət fakültəsinin "İfaçılıq və musiqi müəllimliyi" kafedrasının müdiri, tanınmış tarzən Arslan Növrəsli ilə NDU-nun İncəsənət fakültəsində görüş keçirilib. Müxtəlif musiqi janrlarını — klassik, caz və xalq mahnılarını öz yaradıcılığında birləşdirən sənətkar, xüsusilə tar alətinin çoxşaxəli imkanları, caz sənətinin incəlikləri barədə ətraflı məlumat verib. O, müasir yanaşmalar, improvizasiya üsulu ilə ifa və digər aktual mövzulara toxunub. Görüş çərçivəsində NDU-nun və NDU nəzdində fəaliyyət göstərən Musiqi Kollecinin müəllim və tələbələrinin sualları cavablandırılıb.

*Gülay Tahirli,*
*Badəm Əliyeva*
*Media və ictimaiyyətlə əlaqələr şöbəsinin əməkdaşları*

# NDU nəzdində Beynəlxalq Kembric Məktəbində "Mədəniyyət Festivalı" keçirilib

NDU nəzdində Beynəlxalq Kembric Məktəbində "Mədəniyyət Festivalı" keçirilib

Naxçıvan Dövlət Universiteti nəzdində fəaliyyət göstərən Beynəlxalq Kembric Məktəbində "Mədəniyyət Festivalı" təşkil olunub. "Qlobal Perspektivlər" fənninin bir parçası olaraq hazırlanan festivalda universitetin rektoru Elbrus İsayev də iştirak edib.

Festival çərçivəsində 6-cı və 7-ci sinif şagirdlərindən ibarət 15 qrup müxtəlif ölkələri təmsil edib. Şagirdlər seçdikləri ölkələr üzrə geniş araşdırma apararaq onların tarixini, mədəniyyətini, musiqisini, rəqsini və digər xüsusiyyətlərini əhatə edən təqdimatlarla çıxış ediblər. Bununla yanaşı, həmin ölkələrə məxsus milli yeməklərin təqdim olunması tədbirə xüsusi rəng qatıb.

Tədbirin əsas məqsədi şagirdlərin dünyagörüşünü genişləndirmək, onların tədqiqat aparmaq, məlumat toplamaq və təqdimetmə bacarıqlarını inkişaf etdirmək olub. Eyni zamanda festival analitik düşünmə və komanda şəklində işləmə vərdişlərinin formalaşdırılmasına da töhfə verib.

Rəngarəng və interaktiv şəraitdə keçirilən festival şagirdlərin həm fərdi, həm də qrup şəklində bacarıqlarını nümayiş etdirməsi baxımından uğurla yekunlaşıb.














# Şahmatçılar arasında keçirilən turnirdə NDU Beynəlxalq Kembric Məktəbinin şagirdləri qalib olublar

Naxçıvan Şəhər Şahmat Məktəbinin təşkilatçılığı ilə Naxçıvan Muxtar Respublikasının yaranmasının 102 illiyinə həsr olunmuş tempo şahmat turniri yüksək rəqabət və böyük maraq şəraitində keçirilib. Turnirdə müxtəlif yaş kateqoriyaları üzrə istedadlı şahmatçılar iştirak edərək öz bilik və bacarıqlarını nümayiş etdiriblər. 14 yaşlı şahmatçılar arasında keçirilən yarışda NDU Beynəlxalq Kembric Məktəbinin şagirdi Ələsgər Hüseynov uğurlu çıxışı ilə bütün rəqiblərini geridə qoyaraq I yerə layiq görülüb və diploma təltif olunub. Gənc şahmatçımızın qazandığı bu nailiyyət məktəbimizin idman sahəsində əldə etdiyi uğurların davamı olmaqla yanaşı, şagirdlərimizin intellektual inkişafına verilən önəmin də göstəricisidir.

Bununla yanaşı, məktəbimizin digər şagirdləri Rüstəm Hüseynov, Cəsur Qurbanov və Səid Əliyev də şahmat sahəsində göstərdikləri fəallıq və əldə etdikləri nəticələrə görə Naxçıvan Şəhər Uşaq Gənclər Şahmat Məktəbi tərəfindən "İdmançının dərəcə kitabı" ilə təltif olunublar. Bu uğur onların gələcək yarışlarda daha böyük nailiyyətlər qazanacağına olan inamı artırır.

Şagirdlərimizi ürəkdən təbrik edir, onlara gələcək yarışlarda yeni-yeni qələbələr, yüksək nailiyyətlər və uğurlu idman yolu arzulayırıq!




# NDU nəzdində Gimnaziyanın 33 şagirdi Respublika Fənn Müsabiqələrində uğur qazanıb



Naxçıvan Dövlət Universitetinin nəzdində Gimnaziya RFM

Respublika Fənn Müsabiqələrində uğur qazanan şagirdlərimiz

Ümumi keçənlərin sayı: 33 nəfər

Riyaziyyat – 14 nəfər | Kimya – 8 nəfər | Təbiət – 5 nəfər | Fizika – 3 nəfər | Biologiya – 3 nəfər

| № | Ad | Soyad | Ata adı | SİNİF | Fənn | Bal |
|---|---|---|---|---|---|---|
| 1 | HƏŞİM | RƏHİMLİ | RAMİZ | 7 | Kimya | 100 |
| 2 | EMİL | MİRZƏYEV | AYAZ | 7 | Kimya | 100 |
| 3 | NİGAR | BAYRAMLI | ELGÜN | 7 | Biologiya | 96 |
| 4 | LEYLA | QASIMBƏYLİ | ELMƏDDİN | 7 | Biologiya | 95 |
| 5 | FƏRİD | HÜSEYNLİ | BİLAL | 7 | Riyaziyyat | 95 |
| 6 | UĞUR | ZEYNALOV | FƏXRİ | 7 | Riyaziyyat | 95 |
| 7 | MƏHƏRRƏM | MƏMMƏDLİ | CEYHUN | 7 | Kimya | 95 |
| 8 | MƏZAHİR | HƏSƏNLİ | FAZİL | 7 | Riyaziyyat | 90 |
| 9 | RAİL | TAHİRLİ | RAMİL | 7 | Fizika | 85 |
| 10 | İLAHƏ | BABAYEVA | BAHADUR | 7 | Riyaziyyat | 82 |
| 11 | NƏRMİN | HÜMBƏTLİ | KAMRAN | 7 | Kimya | 82 |
| 12 | MƏLEYKƏ | TAHİRZADƏ | RÜSTƏM | 7 | Riyaziyyat | 81 |



Naxçıvan Dövlət Universitetinin nəzdində Gimnaziya RFM

Respublika Fənn Müsabiqələrində uğur qazanan şagirdlərimiz

| № | Ad | Soyad | Ata adı | SİNİF | Fənn | Bal |
|---|---|---|---|---|---|---|
| 25 | MƏLEYKƏ | HƏSƏNZADƏ | TALEH | 7 | Kimya | 81 |
| 26 | MÖHSÜN | CƏFƏRLİ | SƏİD | 6 | Riyaziyyat | 90 |
| 27 | ƏLİ | QULİYEV | QÜDRƏT | 6 | Riyaziyyat | 80 |
| 28 | AYLİN | ƏLİYEVA | ANAR | 6 | Təbiət | 75 |
| 29 | ELDAR | PƏNAHLI | AZƏR | 6 | Təbiət | 70 |
| 30 | ƏVƏZ | HƏSƏNOV | QABİL | 6 | Təbiət | 66 |
| 31 | ŞƏMS | MƏMMƏDZADƏ | İLKİN | 6 | Təbiət | 65 |
| 32 | TUNCAY | ƏLİYEV | EMİL | 6 | Riyaziyyat | 63 |
| 33 | AYDIN | Yusifov | ASİMAN | 6 | Təbiət | 60 |



Naxçıvan Dövlət Universitetinin nəzdində Gimnaziya RFM

Respublika Fənn Müsabiqələrində uğur qazanan şagirdlərimiz

| № | Ad | Soyad | Ata adı | SİNİF | Fənn | Bal |
|---|---|---|---|---|---|---|
| 13 | QİSMƏT | TALIBOV | MƏHƏRRƏM | 7 | Riyaziyyat | 80 |
| 14 | MƏDİNƏ | ZAMANLI | AZƏR | 7 | Kimya | 80 |
| 15 | NİGAR | RƏHİMLİ | ŞAMXAL | 7 | Riyaziyyat | 78 |
| 16 | GÜLƏR | MƏMMƏDOVA | HƏSƏN | 7 | Riyaziyyat | 76 |
| 17 | ŞAHİN | MUSAYEV | İSMAYIL | 7 | Fizika | 75 |
| 18 | MEHDİ | QASIMLI | ANAR | 7 | Kimya | 75 |
| 19 | DİLAVƏR | HÜSEYNOV | VÜQAR | 7 | Kimya | 75 |
| 20 | ELŞAD | İSMAYILOV | SƏRXAN | 7 | Fizika | 70 |
| 21 | MƏRYƏM | MƏHƏRRƏMLİ | AQŞİN | 7 | Biologiya | 70 |
| 22 | SƏİD | ƏLİZADƏ | MƏFTUN | 7 | Riyaziyyat | 65 |
| 23 | POLAD | MİRZƏZADƏ | SƏBUHİ | 7 | Riyaziyyat | 62 |
| 24 | EŞQİN | ƏLİYEV | BABA | 7 | Riyaziyyat | 61 |

Naxçıvan Dövlət Universiteti nəzdində fəaliyyət göstərən Gimnaziyanın şagirdləri Respublika Fənn Müsabiqələrində yüksək nailiyyətlər əldə edərək təhsil müəssisəsinin uğur ənənəsini davam etdiriblər. Gimnaziyanın şagirdləri müxtəlif fənlər üzrə keçirilən müsabiqələrdə fəal iştirak edərək bilik və bacarıqları ilə seçiliblər.

Müsabiqələrin nəticələrinə əsasən, gimnaziyanın ümumilikdə 33 şagirdi müxtəlif fənlər üzrə uğur qazanaraq fərqlənib. Uğur əldə edən şagirdlərdən 14-ü riyaziyyat, 8-i kimya, 5-i təbiət elmləri, 3-ü fizika, 3-ü isə biologiya fənni üzrə yüksək nəticələr göstəriblər. Şagirdlərin qazandığı bu uğurlar onların elmə olan marağının, davamlı hazırlığının və məqsədyönlü fəaliyyətinin göstəricisi kimi qiymətləndirilir. Qeyd olunub ki, Respublika Fənn Müsabiqələri ölkənin müxtəlif bölgələrindən istedadlı şagirdlərin iştirak etdiyi mühüm bilik yarışlarından biridir. Bu müsabiqələr şagirdlərin nəzəri biliklərinin, məntiqi təfəkkürünün və praktik bacarıqlarının inkişaf etdirilməsində xüsusi əhəmiyyət daşıyır. Gimnaziya şagirdlərinin əldə etdiyi nəticələr isə təhsil ocağında tədrisin yüksək səviyyədə təşkil olunduğunu bir daha nümayiş etdirir.

Təhsil müəssisəsində yaradılmış müasir tədris mühiti, innovativ yanaşmalar və müəllim heyətinin peşəkarlığı şagirdlərin uğurlarında mühüm rol oynayır. Müəllimlərin şagirdlərlə fərdi işləməsi, onların istedad və bacarıqlarının üzə çıxarılması istiqamətində görülən işlər əldə olunan nəticələrdə öz əksini tapır. Gimnaziyanın rəhbərliyi əldə olunan uğurları yüksək qiymətləndirərək qalib şagirdləri və onların müəllimlərini təbrik edib, gələcək müsabiqələrdə daha böyük nailiyyətlər arzulayıb. Bildirilib ki, bundan sonra da şagirdlərin elmi biliklərinin artırılması, onların beynəlxalq və respublika səviyyəli yarışlara hazırlanması istiqamətində tədbirlər davam etdiriləcək.

*Badəm Əliyeva*
*Media və ictimaiyyətlə əlaqələr şöbəsinin əməkdaşı*

# NDU tələbələri Ali Məclisdə təcrübədə olublar

Naxçıvan Dövlət Universitetinin IV kurs tələbələri Naxçıvan Muxtar Respublikasının Ali Məclisində istehsalat təcrübəsi keçiblər.

Təcrübə proqramının yekununda tələbələr Ali Məclisin sədr müavini Arzu Abdullayev ilə görüşüblər. Görüşdə Arzu Abdullayev tələbələrin yüksək dövlət orqanlarında təcrübə keçməsinin onların peşəkar inkişafında mühüm rol oynadığını vurğulayıb, gələcək fəaliyyətlərində uğurlar arzulayıb.

Tələbələr yaradılan şəraitə və onlara göstərilən diqqətə görə minnətdarlıqlarını bildiriblər. Həmçinin təcrübə müddətində qazandıqları bilik və





təcrübələrdən bəhs edib, müxtəlif təklif və fikirlərini səsləndiriblər. Təkliflər qarşılıqlı şəkildə müzakirə olunub.

Tələbələr bu cür təcrübə proqramlarının onların gələcək peşəkar fəaliyyətləri baxımından mühüm əhəmiyyət daşıdığını qeyd ediblər.

Görüş qarşılıqlı fikir mübadiləsi və səmimi müzakirələr şəraitində başa çatıb, istehsalat təcrübəsinin tələbələrin nəzəri biliklərinin praktiki bacarıqlarla zənginləşdirilməsi, dövlət idarəçiliyi sahəsində peşəkar kompetensiyalarının formalaşdırılması və gələcək əmək fəaliyyətlərinə hazırlanması baxımından mühüm əhəmiyyət daşıdığı xüsusi vurğulanıb.

# NDU-da "Şəhərsalma və Memarlıq İli" və WUF13-ə həsr olunmuş "Silk Road IoT Hackathon 2026" hakatonu baş tutub

Naxçıvan Dövlət Universitetində "Silk Road IoT Hackathon 2026" innovasiya yönümlü müsabiqəsi uğurla yekunlaşıb. İpək Yolu konsepti çərçivəsində təşkil olunan hakaton nəqliyyat, logistika və şəhər infrastrukturu sahə- lərində innovativ texnoloji həllərin hazırlanmasına yönəlmiş 2 günlük intensiv proqram kimi yadda qalıb.

Tədbir müddətində iştirakçı komandalar müxtəlif istiqamətlər üzrə layihələr işləyərək ağıllı nəqliyyat sistemləri, yol hərəkətinin idarəolunması, logistika və yük izləmə texnologiyaları, energy & environment üzrə IoT həlləri, eləcə də smart city və infrastruktur texnologiyaları sahələrində funksional IoT prototiplər hazırlayıblar.

Hazırlanan layihələr real işlək prototiplər formasında təqdim olunub və münsiflər qarşısında canlı demo ilə nümayiş etdirilib. Bu isə iştirakçıların yalnız ideya deyil, eyni zamanda tətbiq oluna bilən texnoloji məhsullar ortaya qoyma bacarığını göstərib.

9 komanda və 40-dan çox tələbənin iştirak etdiyi hakatonun nəticələrinə əsasən pik vaxtlarda işıqforlar vasitəsilə yol hərəkəti qaydalarında dəyişiklik edərək şəhər daxili sıxlığın









və tıxacların qarşısının alınması məqsədilə hazırlanmış layihə ilə SolutionSquad I yerə, aqrar sahədə torpağın şumlanması, suvarılması və əkilməsi prosesini daha səmərəli formada həyata keçirən maşın prototipi ilə Stevee komandası II yerə, metropoliten sistemi üçün sərnişinlərin datalarını ölçən və qatarların hərəkətini həmin datalara görə yönləndirən layihə ilə çıxış edən Redemy komandası isə III yerə layiq görülüb.

"Silk Road IoT Hackathon 2026" tələbələrin innovativ düşüncə bacarıqlarının inkişafına, komanda işinin gücləndirilməsinə və real problemlərə texnoloji yanaşmaların formalaşdırılması baxımından əhəmiyyət lidir.

# NDU tələbələri İğdır Universitetində təcrübədə

Naxçıvan Dövlət Universitetinin "Baytarlıq təbabəti" ixtisasının V kurs tələbələri İğdır Universitetinin tabeliyində fəaliyyət göstərən Heyvan Xəstəxanasında istehsalat təcrübəsində olublar. Təcrübə proqramı tələbələrin nəzəri biliklərini praktik bacarıqlarla möhkəmləndirmək, müasir baytarlıq xidmətləri ilə yaxından tanış olmaq və peşəkar təcrübə qazanmaq məqsədi daşıyıb.

Təcrübənin ilk günündə İsa Özaydının rəhbərliyi ilə Gökhan Koçak və digər müəllim heyəti NDU tələbələrini xəstəxananın müxtəlif şöbələri, müayinə otaqları, cərrahiyyə bölməsi və laboratoriyalar ilə tanış ediblər. Tələbələrə heyvanların diaqnostikası, müalicə üsulları, laborator analizlərin aparılması və klinik prosedurlar barədə ətraflı məlumat verilib. Proqramın ilk günündən etibarən tələbələr praktiki fəaliyyətə cəlb



olunub, cərrahi əməliyyat prosesini izləməklə yanaşı, əməliyyat zamanı istifadə olunan tibbi avadanlıqlar, sterilizasiya qaydaları və əməliyyatdan sonrakı nəzarət mərhələləri barədə də bilik əldə ediblər. Bu imkan tələbələrin peşəkar hazırlığının güc ləndirilməsi baxımından mühüm əhəmiyyət daşıyıb.

Təcrübə müddətində tələbələr müxtəlif heyvan növlərinin müayinəsində iştirak edib, klinik müşahidələr aparıb və müəllimlərin nəzarəti altında praktiki tapşırıqları yerinə yetiriblər. Eyni zamanda, onlar müasir baytarlıq təbabətində tətbiq olunan yeni üsul və texnologiyalarla tanış olmaq imkanı qazanıblar. Qeyd edək ki, təcrübə proqramı 8 may tarixinədək davam edib. Bu müddət ərzində tələbələrin həm nəzəri hazırlığının möhkəmləndirilməsi, həm də gələcək peşə fəaliyyətinə adaptasiyasının artırılması istiqamətində mühüm addımlar atılıb.

Tələbələr təcrübənin yüksək səviyyədə təşkilinə və onlara yaradılan şəraitə görə İğdır Universitetinin və Naxçıvan Dövlət Universitetinin rəhbərliyinə minnətdarlıqlarını bildiriblər.



# TƏLƏBƏ UĞURLARI

## NDU-nun tələbəsi beynəlxalq elmi arenada qızıl medal qazanıb

NDU-nun növbəti tələbəsi beynəlxalq elmi arenada qızıl medal qazanıb.

Naxçıvan Dövlət Universiteti Təbiətşünaslıq və Kənd təsərrüfatı fakültəsinin "Kimya" ixtisası üzrə I kurs tələbəsi Sənan Zeyniyev Rusiya Federasiyasının Moskva şəhərində təşkil olunan "Erudit" Beynəlxalq Onlayn Kimya Müsabiqəsində I yerə layiq görülərək qızıl medal qazanıb.

Təbiətşünaslıq və Kənd təsərrüfatı fakültəsinin "Kimya" kafedrasının müəllimi Fizzə Məmmədovanın elmi rəhbərliyi altında sistemli hazırlıq keçən tələbəmiz beynəlxalq müstəvidə bilik və bacarığı ilə seçilərək I dərəcəli diplomla təltif olunub.







Sənan Zeyniyev müsabiqədə "Kimyəvi elementlərin yaranma tarixi" nominasiyası ilə iştirak edərək həftənin qalibi seçilib və bu nəticə ilə Naxçıvan Dövlət Universitetinin beynəlxalq elmi uğurlarına növbəti birini əlavə edib.

## Gənc fiziklər beynəlxalq elmi arenada iki qızıl medal qazanıblar

NDU-nun gənc fizikləri beynəlxalq elmi arenada iki qızıl medal qazanıblar

Naxçıvan Dövlət Universiteti Fizika-riyaziyyat fakültəsinin "Fizika müəllimliyi" ixtisası üzrə III kurs tələbələri Əsli Əlizadə və Cəsur Məmmədov Rusiya Federasiyasının Moskva şəhərində təşkil olunan "Erudit" Beynəlxalq Onlayn Fizika Müsabiqəsində I yerə layiq görülüblər.





Fizika-riyaziyyat fakültəsinin "Ümumi və nəzəri fizika" kafedrasının müəllimi Leyla İbrahimovanın elmi rəhbərliyi altında sistemli hazırlıq keçən tələbələrimiz beynəlxalq müstəvidə rəqiblərini geridə qoyaraq I dərəcəli diplom və qızıl medallarla təltif olunublar.

Fizika elminin dərinliklərinə yiyələn bu gənclərin qələbəsi, universitetimizdə gənc alimlərin yetişdirilməsi və onların potensialının beynəlxalq səviyyədə reallaşdırılması istiqamətində görülən işlərin nəticəsidir.

## NDU-nun tələbəsi dünya çempionatında ikiqat uğur qazanıb

Naxçıvan Dövlət Universitetinin tələbəsi Qafar Hüseynov beynəlxalq idman arenasında növbəti uğuruna imza atıb. İstanbul şəhərində keçirilən 16th Shotokan World Championship yarışında iştirak edən idmançımız yüksək nəticə göstərib. Qafar Hüseynov Senior Male "Shobu Ippon Kumite (75 kq)" və "Senior Male Shobu Nihon Kumite (75 kq)" kateqoriyalarında mübarizə apararaq hər iki növdə II yerə layiq görülüb. Rəsmi nəticələrə əsasən, Qafar Hüseynov "Shobu Nihon Kumite" üzrə final mərhələsinə qədər yüksələrək gərgin və maraqlı qarşılaşmalarda uğurla çıxış edib. İdmançımız yalnız həlledici görüşdə Qırğızıstan təmsilçisinə məğlub olaraq gümüş medal qazanıb. Yarış boyunca nümayiş etdirdiyi yüksək performans, texniki hazırlıq və döyüş əzmi iştirakçılar və məşqçilər tərəfindən də xüsusi rəğbətlə qarşılanıb. Qafar Hüseynovun beynəlxalq turnirdə qazandığı bu ikiqat uğur onun uzunmüddətli hazırlığının və zəhmətinin nəticəsi kimi qiymətləndirilir. Eyni zamanda, tələbəmizin əldə etdiyi nailiyyət gənclərin idmana marağının artırılması və universitet idmanının inkişafı baxımından da mühüm əhəmiyyət daşıyır. Bu nailiyyət Naxçıvan Dövlət Universitetinin idman sahəsində qazandığı uğurlar sırasına növbəti töhfə kimi qiymətləndirilir. Universitet kollektivi Hüseynov Qafarı təbrik edir, gələcək yarışlarda ona daha böyük qələbələr və yeni nailiyyətlər arzulayır.




*Badəm Əliyeva*
*NDU Media və ictimaiyyətlə əlaqələr şöbəsinin əməkdaşı*

## NDU əməkdaşlarından IELTS imtahanında yüksək nəticə

Naxçıvan Dövlət Universitetinin Xarici Dillər fakültəsinin əməkdaşları universitetdə fəaliyyət göstərən IELTS qeydiyyat və imtahan mərkəzində təşkil olunan növbəti imtahanda iştirak edərək yüksək nəticələr əldə ediblər.

- Sadıqzadə Zərifə Zəfər qızı - 8.0 bal
- Həsənzadə Türkan Məmməd qızı - 7.5 bal
- Nağıyeva Günay Yasin qızı - 7.0 bal

Əldə olunan yüksək göstəricilər universitetdə xarici dillərin tədrisinə göstərilən diqqətin, müasir tədris metodlarının tətbiqinin və müəllimlərin peşəkar hazırlıq səviyyəsinin bariz nümunəsidir.

Qeyd edək ki, Naxçıvan Dövlət Universitetində fəaliyyət göstərən IELTS qeydiyyat və imtahan mərkəzi beynəlxalq dil imtahanlarına çıxış imkanlarının genişlənməsinə və müvafiq akademik mühitin formalaşmasına mühüm töhfə verməkdədir.



IELTS™
Test Report Form — ACADEMIC
NOTE Admission to undergraduate and post graduate courses should be based on the ACADEMIC Reading and Writing Modules. GENERAL TRAINING Reading and Writing Modules are not designed to test the full range of language skills required for academic purposes. It is recommended that the candidate's language ability as indicated in this Test Report Form be re-assessed after two years from the date of the test. To find out more about IELTS, IELTS band scores and the CEFR levels, please visit ielts.org/scores
Centre Number: AZ001 | Date: 23/APR/2026 | Candidate Number: 500072
Candidate Details
Family Name: SADIGZADE
First Name(s): ZARIFA
Candidate ID: [redacted]
Date of Birth: 05/02/2000 | Sex (M/F): F | Scheme Code: Private Candidate
Country or Region of Origin:
Country of Nationality: AZERBAIJAN
First Language: AZERBAIJANI
Test Results
Listening 8.0 | Reading 8.5 | Writing 6.5 | Speaking 8.0 | Overall Band Score 8.0 | CEFR Level C1
Administrator Comments
Recognising organisations must verify this score at ielts.org/verify
Validation stamp: IELTS



IELTS™
Test Report Form — ACADEMIC
Centre Number: AZ001 | Date: 23/APR/2026 | Candidate Number: 500079
Candidate Details
Family Name: HASANZADE
First Name(s): TURKAN
Candidate ID: AA5280998
Date of Birth: 13/05/1991 | Sex (M/F): F | Scheme Code: Private Candidate
Country or Region of Origin:
Country of Nationality: AZERBAIJAN
First Language: AZERBAIJANI
Test Results
Listening 8.5 | Reading 7.5 | Writing 7.0 | Speaking 6.5 | Overall Band Score 7.5 | CEFR Level C1
Administrator Comments
Recognising organisations must verify this score at ielts.org/verify
Validation stamp: IELTS



IELTS™
Test Report Form — ACADEMIC
Centre Number: AZ001 | Date: 24/APR/2026 | Candidate Number: 500019
Candidate Details
Family Name: NAGHIYEVA
First Name(s): GUNAY
Candidate ID: AA3867153
Date of Birth: 13/12/1995 | Sex (M/F): F | Scheme Code: Private Candidate
Country or Region of Origin:
Country of Nationality: AZERBAIJAN
First Language: AZERBAIJANI
Test Results
Listening 8.0 | Reading 7.5 | Writing 6.5 | Speaking 6.5 | Overall Band Score 7.0 | CEFR Level C1
Administrator Comments
Recognising organisations must verify this score at ielts.org/verify
Validation stamp: IELTS

## *Eyni anda dünyanın 3 nüfuzlu universitetindən qəbul alan NDU məzunu*



Naxçıvan Dövlət Universitetinin İqtisadiyyat (tədrisi ingilis dilində) ixtisası üzrə məzunu Tuncay Ələkbərov dünyanın nüfuzlu ali təhsil müəssisələrindən magistratura səviyyəsi üzrə qəbul alaraq beynəlxalq uğur qazanıb.

- Kaliforniya Universiteti
- Edinburq Universiteti
- Mançester Universiteti

Məzunumuzu ürəkdən təbrik edir, gələcək təhsil həyatında uğurlar arzulayırıq!

## *Naxçıvanda keçirilən sertifikatlaşdırma prosesinin 2-ci dövriyyəsində maksimum nəticə əldə etmiş NDU məzunları! Məzunlarımızla qürur duyuruq!*



**İlhamə Fərzəliyeva** **Xatirə Əhmədova** **Reyhan Əliyeva**

# “Şəhərsalma və Memarlıq İli” çərçivəsində fərdi fotosərgi

Naxçıvan Dövlət Universitetinin İncəsənət fakültəsinin “Rəngkarlıq” ixtisası üzrə III kurs tələbəsi Vüsal Babayevin “Zaman və sükut” adlı ilk fərdi fotosərgisi keçirilib.

Ali təhsil ocağının rektoru Elbrus İsayev gənc fotoqrafı ilk fotosərgisi münasibətilə təbrik edib, ona uğurlar arzulayıb. Tələbələrin yaradıcı potensialının üzə çıxarılmasının əsas prioritetlərdən biri olduğunu vurğulayan rektor qeyd edib ki, belə sərgilər gənclərinin estetik zövqünün formalaşmasına, incəsənətə marağın artırılmasına xüsusi töhfə verir.

“Şəhərsalma və Memarlıq İli”nə həsr olunan sərgidə Naxçıvanın təbiətini və gündəlik məişət həyatını əks etdirən 41 foto nümayiş olunub. Fotolarda bölgənin bənzərsiz təbiəti, məişət səhnələri və milli-mənəvi dəyərləri bədii baxış prizmasından təqdim edilir.

Ekspozisiyanın əsas məqsədi Naxçıvanın zəngin təbiətini, adət-ənənələrini və mədəni irsini geniş ictimaiyyətə çatdırmaq, eyni zamanda gənclər arasında mənzərə fotoqraflığına marağı artırmaqdan ibarətdir.

Sərgidə Vüsal Babayevə təşəkkürnamə təqdim edilib. Gənc fotoqraf göstərilən diqqətə, yaradılan imkanlara görə universitet rəhbərliyinə minnətdarlığını bildirib.








# NDU tələbələri təbiət qoynunda bahar mənzərələrindən etüd çəkiblər

Naxçıvan Dövlət Universitetinin İncəsənət fakültəsinin “Rəngkarlıq” və “Təsviri incəsənət müəllimliyi” ixtisası üzrə təhsil alan tələbələr “Təsviri incəsənət” kafedrasının müəllimləri ilə birgə təbiətin bahar görüntülərini kətana köçürmək məqsədilə açıq havada etüd məşğələləri həyata keçiriblər.

Etüd zamanı tələbələr yaz fəsli üçün xarakterik olan rəng çalarlarını, işıq-kölgə effektlərini və təbii kompozisiyaları canlı müşahidə edərək kətan üzərində əks etdiriblər. Gənc rəssamlar təbiətin ümumi koloritini düzgün qavramaq, kompozisiyada əsas və ikinci dərəcəli elementləri ayırd etmək kimi vacib məqamlara diqqət yetiriblər. Açıq hava şəraiti tələbələrə real mənzərəni daha dərindən dərk etmək və rəngkarlıq bacarıqlarını inkişaf etdirmək imkanı yaradıb.



Bu məşğələ tələbələrin yaradıcılıq potensialının güclənməsinə, onların müşahidə qabiliyyətinin və estetik zövqünün inkişafına töhfə verib, həmçinin gələcək sənət fəaliyyətləri üçün təcrübə qazandırıb.





# “Şəhərsalma və Memarlıq ili” çərçivəsində silsilə tədbirlər həyata keçirilir

Tədbirlər planına uyğun olaraq, Naxçıvan Dövlət Universiteti tərəfindən milli-mədəni irsin təbliği, tələbələrin tarixə və memarlıq abidələrinə marağının artırılması məqsədilə müxtəlif ekskursiyalar təşkil olunub.

Tələbə Gənclər Təşkilatının heyəti Mömünə Xatun türbəsi və Açıq Səma Altında Muzeyə ekskursiya edərək bu tarixi məkanlarla yaxından tanış olublar. Ekskursiya çərçivəsində “Bələdiyyə və turizm” kafedrasının müəllimi Mehman Şabanov tərəfindən açıq dərs keçirilib, abidələrin tarixi və memarlıq xüsusiyyətləri haqqında ətraflı məlumat verilib.



Tələbə Həmkarlar İttifaqı Komitəsinin üzvləri ekskursiya çərçivəsində Yusif ibn Küseyr türbəsini ziyarət ediblər, burada “Memarlıq” kafedrasının müəllimi Anar Sadıqov tərəfindən açıq dərs təşkil olunub. Açıq dərsdə abidənin memarlıq xüsusiyyətləri və tarixi əhəmiyyəti geniş şəkildə izah edilib.

Tələbə Turizm Assosiasiyasının heyəti növbəti ekskursiyada Qarabağlar türbəsinə səfər edib. Ekskursiya zamanı tarix elmləri doktoru, dosent Toğrul Xəlilov və Vətən tarixi üzrə doktorant, “Azərbaycan tarixi” kafedrasının müəllimi Nuray Məmmədli tərəfindən tələbələrə ətraflı məlumat verilib, abidənin tarixi və əhəmiyyəti geniş şəkildə şərh olunub.

Eyni zamanda “NSU SDG” klubun üzvləri üçün Naxçıvanqala Tarixi-Memarlıq Muzey Kompleksinə ekskursiya təşkil olunub. Bura da tələbələrə kompleksin tarixi əhəmiy yəti, ekspozisiyaları və Naxçıvanın qədim şəhər mədəniyyəti barədə geniş məlumat təqdim edilib.

Qeyd edək ki, bu cür təşəbbüslər tələbələrin milli irsə bağlılığının gücləndirilməsi, tarixi-memarlıq abidələrinin qorunması və gələcək nəsillərə ötürülməsi baxımından mühüm əhəmiyyət daşıyır.

# 2026-cı ilin ilk IELTS imtahanı baş tutub

23–24 aprel tarixlərində Naxçıvan Dövlət Universiteti nəzdində fəaliyyət göstərən IELTS Qeydiyyat və İmtahan Mərkəzində kompüter əsaslı akademik IELTS imtahanı təşkil olunub. İki gün davam edən imtahanda universitetin müəllimləri, ingilis dilində təhsil alan tələbələr və şagirdlərdən ibarət ümumilikdə 14 nəfər iştirak edib.



İmtahanın ilk günü iştirakçıların bir qismi dinləmə, oxu və yazı bacarıqları, digər bir qismi isə danışıq bacarıqları üzrə qiymətləndirilib. İkinci gün isə iştirakçılar imtahanın növbəti mərhələsini tamamlayıblar. Bütün mərhələlərdə imtahan suallarının hazırlanması, təşkili və qiymətləndirilməsi Britaniya Şurası tərəfindən həyata keçirilib.

2022-ci ildən fəaliyyət göstərən mərkəz Azərbaycanda ali təhsil müəssisələri arasında ilk dəfə Naxçıvan Dövlət Universitetində yaradılıb. Mərkəzdə indiyədək 350-dən artıq müəllim, tələbə və şagird beynəlxalq imtahan verib. Nəticədə mərkəz ingilis dili biliklərinin beynəlxalq meyarlara uyğun qiymətləndirilməsini təmin etməklə yanaşı, iştirakçıları qlobal səviyyədə tanınan sertifikatlarla təmin edir. Eyni zamanda iştirakçılar 7.0 və ya daha yüksək nəticə əldə etdikdə imtahan üçün ödənilmiş vəsait onlara geri qaytarılır.

Qeyd edək ki, mərkəzin maddi-texniki bazası müasir tələblərə uyğun şəkildə yenilənib, kompüter avadanlıqları və səskeçirməz qapalı qulaqlıqlarla təmin olunub.

Həmçinin bildirək ki, NDU-nun IELTS Qeydiyyat və İmtahan Mərkəzində beynəlxalq imtahanlar müntəzəm olaraq hər üç aydan bir təşkil edilir. Növbəti IELTS imtahanının isə iyun ayında keçirilməsi planlaşdırılır.

*Badəm Əliyeva*
*Media və ictimaiyyətlə əlaqələr şöbəsi*

# NDU-da “Beynəlxalq təlim aylığı”na start verilib

Naxçıvan Dövlət Universitetində “Beynəlxalq təlim aylığı”na start verilib. Bu istiqamətlərdə keçirilən təlim proqramı akademik və inzibati heyətin peşəkar inkişafına yönəlib.



Proqram çərçivəsində Acıbadem Universitetinin alimi Tayyip Karaman tərəfindən “Akademik tədqiqat bacarıqları” mövzusunda təlim təşkil olunub. Təlim zamanı müasir elmi yanaşmalar, tədqiqat metodologiyası və akademik fəaliyyətin əsas istiqamətləri iştirakçılara ətraflı şəkildə izah edilib.



Həmçinin müxtəlif elmi bazalar və qabaqcıl texnologiyalar haqqında məlumat verilib. Xüsusilə, AlphaFold, DNA, Sanger sequencing, İllumina sequencing və Nanopore sequencing kimi müasir yanaşmalar əhatə olunub. Təlim iştirakçılar tərəfindən maraqla qarşılanıb.

Sonda təlimçi tərəfindən iştirakçıların sualları ətraflı şəkildə cavablandırılıb.

Qeyd edək ki, ənənə halını almış “Beynəlxalq təlim aylığı” çərçivəsində 1–30 aprel tarixləri arasında ümumilikdə 10 müxtəlif mövzu üzrə təlimlərin keçirilməsi nəzərdə tutulur.

*Badəm Əliyeva*
*NDU, media və ictimaiyyətlə əlaqələr şöbəsi*

# “Beynəlxalq təlim aylığı” çərçivəsində növbəti təlim





Naxçıvan Dövlət Universitetində “Beynəlxalq təlim aylığı” çərçivəsində növbəti təlim təşkil olunub.

“Baytarlıq təbabəti” klinikasında magistrant və doktorantlar üçün keçirilən təlim “Magistr və doktorluq dissertasiyalarının hazırlanması və yazılma prinsipləri” mövzusuna həsr edilib.

Təlim Qars Qafqaz Universitetinin Baytarlıq fakültəsinin əməkdaşı, Prof.dr. İsa Özaydın tərəfindən aparılıb. Tədbir zamanı dissertasiya işlərinin strukturlaşdırılması, elmi tədqiqatın mərhələləri, mövzu seçimi, ədəbiyyat icmalı, metodologiyanın düzgün qurulması və nəticələrin elmi əsaslarla təqdim olunması kimi mühüm məsələlər izah edilib.

İştirakçılar dissertasiya yazılışı zamanı yol verilən tipik səhvlər, akademik etik qaydalar və elmi üslubun xüsusiyyətləri barədə də geniş məlumat əldə ediblər. Təlim interaktiv formada keçib, magistrant və doktorantların sualları cavablandırılıb, praktiki tövsiyələr verilib.

*Badəm Əliyeva*
*Media və ictimaiyyətlə əlaqələr şöbəsinin əməkdaşı*

# NDU-da elmi tədqiqatların rəqəmsal transformasiyası müzakirə olunub

Naxçıvan Dövlət Universitetində “Beynəlxalq təlim aylığı” çərçivəsində İstanbul Universitetinin dosenti Bahadır Fatih Yıldırım tərəfindən “Akademik tədqiqat bacarıqları” mövzusunda təlim keçirilib.




Təlimdə elmi tədqiqat fəaliyyətinin əsas mərhələləri ilə bağlı müasir yanaşmalar barədə iştirakçılara məlumat verilib. Ədəbiyyat axtarışı, istinadların düzgün verilməsi, məlumatların təhlili və vizuallaşdırılması məsələlərindən danışılıb.

Məruzədə məlumat analizi üçün Tableau və PowerBI kimi vizuallaşdırma alətlərinin istifadəsi və müxtəlif akademik yazı elementləri xüsusi qeyd olunub. Süni intellektin araşdırmalarda rolu ayrıca müzakirə olunaraq Consensus, ChatPDF və ChatGPT kimi proqramlardan istifadə yolları göstərilib.

Təlimdə araşdırma etikası və plagiatın qarşısının alınması mövzusu da diqqət mərkəzində olub. Süni intellektdən istifadə etikası, məlumatların gizliliyi barədə geniş məlumat verilib. Son olaraq, nəşr prosesi və görünürlük mövzusu izah edilərək ORCID, ResearcherID, ResearchGate və Google Scholar kimi platformalarda elmi profil yaratmağın əhəmiyyəti vurğulanıb.



# Strateji planlaşdırma mövzusunda təlim

Naxçıvan Dövlət Universitetində “Beynəlxalq təlim aylığı” çərçivəsində İstanbul Universitetinin dosenti Ali Özgür Karagülle tərəfindən “Müasir universitet idarəetməsi: strateji planlaşdırma və əsas performans göstəriciləri” mövzusunda təlim keçirilib.







Təlimdə strateji planlaşdırma, iş birliyi, karyera hədəflərinin müəyyənləşdirilməsi, rəqəmsal transformasiya və yeni mexanizmlər vasitəsilə tələbələrin gələcəkdə işlə təmin olunması kimi mühüm məsələlərə geniş yer verilib. Eyni zamanda məzunlarla davamlı və effektiv əlaqələrin qurulmasının əhəmiyyəti vurğulanıb, onların əmək bazarına inteqrasiyasının gücləndirilməsi yolları müzakirə edilib. Bu kontekstdə Naxçıvan Dövlət Universitetinin ölkə iqtisadiyyatına verdiyi töhfələr xüsusi olaraq qeyd olunub.

İnteraktiv formada keçirilən təlimdə iştirakçıların sualları ətraflı cavablandırılıb, professor-müəllim heyətinə müasir və innovativ dərs metodlarının tətbiqi ilə bağlı praktiki tövsiyələr verilib, tədris prosesinin daha effektiv təşkili üçün fikir mübadiləsi aparılıb.

# “Tiroid xəstəliklərində radioloji diaqnostika və differensial yanaşma” mövzusunda təlim keçirilib

4 aprel 2026-cı il tarixdə Naxçıvan Dövlət Universiteti xəstəxanası və Tələbə Elmi Cəmiyyətinin birgə təşkilatçılığı ilə “Tiroid xəstəliklərində radioloji diaqnostika və differensial yanaşma” mövzusunda təlim təşkil olunub.

Təlim Baku City Hopital Görüntüləmə Mərkəzinin Radiologiya şöbəsinin müdiri, həkim-radioloq Sevinc Musayeva tərəfindən aparılıb. Tədbir çərçivəsində iştirakçılara tiroid patologiyalarının müasir görüntüləmə üsulları, differensial diaqnostika prinsipləri və real klinik nümunələr əsasında praktiki yanaşmalar təqdim olunub.

Təlimdə tibb tələbələri, gənc həkimlər və bu sahəyə maraq göstərən şəxslər iştirak ediblər. İnteraktiv müzakirələrlə zəngin olan proqram iştirakçıların nəzəri biliklərinin möhkəmləndirilməsi və praktiki bacarıqlarının inkişafı baxımından faydalı olub.

Daha sonra Sevinc Musayeva universitet xəstəxanasında tələbələrlə birgə xəstə müayinəsi həyata keçirib.







# Effektiv akademik təqdimat və kommunikasiya mövzusunda təlim keçirilib

Naxçıvan Dövlət Universitetinin Memarlıq və mühəndislik fakültəsində “Beynəlxalq təlim aylığı” çərçivəsində növbəti təlim keçirilib. İstanbul Teknik Universitetinin professoru Derya Güleç Özer tərəfindən keçirilən təlim universitetin akademik və inzibati heyəti üçün nəzərdə tutulub. “Effektiv akademik təqdimat və kommunikasiya” mövzusunda keçirilən tədbir interaktiv şəkildə davam etdirilib, iştirakçıların sualları cavablandırılıb.

Təlim çərçivəsində təqdimat hazırlanarkən yol verilən əsas səhvlər və onların aradan qaldırılması istiqamətində vacib məqamlar diqqətə çatdırılıb. Eyni zamanda App.gptzero.me, sci.space, notebookLM, gimp.org və kahoot.it kimi süni zəka və rəqəmsal platformaların mahiyyəti izah olunub, bu alətlərdən səmərəli istifadə qaydaları barədə ətraflı məlumat verilib. Bununla yanaşı, mövzunun daha yaxşı mənimsənilməsi məqsədilə təlimçi tərəfindən mini quiz də təşkil olunub. QR kod vasitəsilə yarışmaya qoşulan iştirakçılar sualları cavablandıraraq həm biliklərini sınayıb, həm də təqdim olunan məlumatları daha dərindən mənimsəmək imkanı əldə ediblər.





Qeyd edək ki, keçirilən təlim iştirakçılarda effektiv təqdimat bacarıqlarının formalaşdırılması, akademik kommunikasiya sahəsində bilik və təcrübənin artırılması baxımından mühüm əhəmiyyət kəsb edib.

*Badəm Əliyeva*
*Media və ictimaiyyətlə əlaqələr şöbəsinin əməkdaşı*

# “Beynəlxalq qrant layihələrin yazılması və layihə menecmenti” mövzusunda təlim

Naxçıvan Dövlət Universitetinin akademik və inzibati heyəti üçün peşəkar inkişaf təlimləri çərçivəsində İstanbul Universiteti – Cərrahpaşanın professoru Erkan Kılınç tərəfindən “Beynəlxalq qrant layihələrin yazılması və layihə menecmenti” mövzusunda təlim təşkil olunub.






Təlimdə beynəlxalq qrant proqramlarının tələbləri, layihələrin hazırlanma mərhələləri, düzgün planlaşdırma və effektiv idarəetmə mexanizmləri haqqında ətraflı məlumat verilib.

Bildirilib ki, uğurlu layihə üçün ideyanın düzgün formalaşdırılması, məqsəd və vəzifələrin müəyyənləşdirilməsi, dəqiq plan qurulması, risklərin nəzərə alınması, eləcə də layihə büdcəsinin əsaslandırılmış şəkildə hazırlanması mühüm əhəmiyyət kəsb edir.

Layihələrin yazılma üsulları real nümunələrlə izah edilib.

Sonda təlimçi tərəfindən iştirakçıların sualları cavablandırılıb.

# NDU-da növbəti maarifləndirici təlim keçirilib

Naxçıvan Dövlət Universitetində “Beynəlxalq təlim aylığı” çərçivəsində növbəti maarifləndirici təlim təşkil olunub.

Təlimdə İstanbul Universiteti – Cərrahpaşanın professoru Aysel Ersoy “Travma məlumatlı təhsil: universitet tələbələrinin psixoloji rifahının dəstəklənməsi” mövzusunda çıxış edib. Təlimçi tələbələrin psixoloji vəziyyətinin təhsil prosesində mühüm rol oynadığını vurğulayaraq mənəvi dəstəyin əhəmiyyətindən bəhs edib.

Professor qeyd edib ki, tələbələrə yanaşmada məcburi müalicə son variant kimi nəzərdən keçirilməlidir. Bunun əvəzinə onların gündəlik həyat fəaliyyətinin izlənməsi, travma əlamətlərinin düzgün tanınması və kriz anlarının effektiv idarə olunması əsas istiqamətlərdən biridir.







Təlim interaktiv müzakirələr şəklində davam etdirilib və iştirakçılar mövzu ətrafında fikir mübadiləsi aparıblar.

*Badəm Əliyeva*
*Media və ictimaiyyətlə əlaqələr şöbəsinin əməkdaşı*

# “Startup School Naxçıvan” layihəsi çərçivəsində təlim və mentorluq proqramı










Naxçıvan Dövlət Universitetində “Startup School Naxçıvan” layihəsi çərçivəsində təlim və mentorluq proqramı təşkil olunub. İki gün davam edən proqram çərçivəsində universitetin professor-müəllim he - yəti və tələbələrinin iştirakı ilə innovasiya və sahibkarlıq istiqamətində xüsusi təlimlər keçirilib.

Proqramın ilk günü NDU tələbələri üçün startapların formalaşdırılması və inkişafı ilə bağlı praktiki təlimlər təşkil olunub. Universitetin professor-müəllim heyəti üçün isə “Elmin kommersiyalaşdırılması: startapların formalaşdırılması və inkişafı” mövzusunda təlim keçirilib. Təlimlər zamanı iştirakçılara innovativ ideyaların biznes layihələrinə çev- rilməsi, bazar yönümlü yanaş- ma və startap ekosisteminin tələb və gözləntilərinə cavab verən metod və texnikalar öyrədilib. Xüsusilə professor-müəllim heyətinə keçirilən təlimlərdə akademik sahibkarlığın formalaşdırılmasının metorologiyaları işlənib və praktiki nümunələr əsasında iştirakçılarla iş aparılıb.



Bildirilib ki, təlim və mentorluq xidmətlərinin növbəti mərhələdə onlayn formatda davam etdirilməsi nəzərdə tutulur. Bu mərhələdə iştirakçıların startap ideyalarının daha da inkişaf etdirilməsi və onların praktik tətbiq imkanlarının genişləndirilməsi istiqamətində dəstək göstəriləcək.

Qeyd edək ki, “Startup School Naxçıvan” layihəsi “Startup School 4: 5 Continents – 500 Startups” proqramı çərçivəsində həyata keçirilərək regionda startap ekosisteminin inkişafına töhfə verməyi hədəfləyir. Layihə çərçivəsində formalaşdırılan perspektivli startapların beynəlxalq proqramlara inteqrasiyası üçün də imkanlar yaradılır.

# NDU-nun prorektoru ali təhsil müəssisələrinin prorektorları üçün təşkil olunan təlimdə iştirak edib

Naxçıvan Dövlət Universitetinin Elm və innovasiyalar üzrə prorektoru Elsəvər Əsədov 15-16aprel tarixlərində Elm və Ali Təhsil üzrə Dövlət Agentliyinin təşəbbüsü və təşkilatçılığı ilə İsmayıllı şəhərində ali təhsil müəssisələrinin prorektorları üçün keçirilən təlimdə olub.

Təlim çərçivəsində ali təhsil müəssisələrinin idarə olunması və Elmi Şuraların fəaliyyəti, tədrisin təşkili və keyfiyyət təminatı, təcrübənin təşkili istiqamətləri üzrə təqdimatlar edilib və müzakirələr aparılıb.

Təlim proqramının əsas məqsədi ali təhsil müəssisələrinin rəhbər şəxslərinin idarəetmə bacarıqlarının artırılması, elmi əməkdaşlıq və ali təhsilin beynəlmiləlləşməsi sahələrində səriştələrinin inkişaf etdirilməsidir. Ümumilikdə, proqram çərçivəsində 5 əsas istiqamət üzrə 40-dan artıq mövzunun təhlili nəzərdə tutulub.

Qeyd edək ki, təlimdə ölkənin 7 regionunu təmsil edən 19 ali təhsil müəssisəsinin prorektoru və 4 orta ixtisas təhsili müəssisəsinin direktoru iştirak edib.







# İnnovasiya Mərkəzində dövlət satınalmalarına həsr olunmuş təlim təşkil edilib

Təlimdə Naxçıvan Muxtar Respublikası ərazisində fəaliyyət göstərən 40-dan çox təşkilatın əməkdaşları, o cümlədən Naxçıvan Dövlət Universitetinin əməkdaşları iştirak edib.







Tədbir çərçivəsində Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinin sektor müdiri Nicat Xəlilov "Dövlət satınalmalarında müşahidə olunan əsas çağırışlar və Agentliyin tövsiyələri" mövzusunda təqdimatla çıxış edib.

Təqdimat zamanı dövlət satınalmalarının əsas prinsipləri iştirakçıların diqqətinə çatdırılıb, satınalma prosedurlarının həyata keçirilməsi zamanı ortaya çıxan aktual məsələlər barədə məlumat verilib.

Eyni zamanda ehtimal olunan qiymətin düzgün formalaşdırılması, şərtlər toplusunun qanunvericiliyin tələblərinə uyğun hazırlanması, təchizatçıların təkliflərinin qiymətləndirilməsi, onların satınalmadan kənarlaşdırılması halları, şikayətlərin verilməsi və satınalma müqaviləsinin tərtibi qaydaları izah edilib, Dövlət satınalmalarının vahid internet portalı (Etender.gov.az) portalı vasitəsilə dövlət satınalmalarında düzgün iştirak qaydaları diqqətə çatdırılıb.



Digər təqdimat isə Azərbaycan Respublikası Hesablama Palatasının əməkdaşı Nizami Almәmmədov tərəfindən "Dövlət satınalmalarının auditi" mövzusuna həsr olunub.

Təlim zamanı dövlət satınalmalarında audit prosesinin əhəmiyyəti, bu sahədə tətbiq olunan nəzarət mexanizmləri və auditin əsas mərhələləri barədə ətraflı məlumat verilib.

Qeyd olunub ki, auditin əsas məqsədi dövlət vəsaitlərinin səmərəli və məqsədyönlü istifadəsini təmin etmək, qanun pozuntularını aşkar etmək və maliyyə intizamını gücləndirməkdir. Tədbir infosessiya formatında davam edib.

Təlimçilər iştirakçıların suallarını cavablandıraraq mövzu ətrafında ətraflı izahlar veriblər.

# NDU-nun şəhid məzunu Bəşir Mehdiyevin xatirəsi əbədiləşdirilib

Naxçıvan Dövlət Universitetinin Pedaqoji fakültəsində şəhid leytenant Bəşir Mehdiyev adına hərbi kabinənin açılış mərasimi keçirilib. Tədbirdə universitetin rektoru Elbrus İsayev, professor-müəllim heyəti və şəhidin ailə üzvləri iştirak ediblər.







Rektor Elbrus İsayev çıxışında şəhidlərin döyüş yolunun gənclərə örnək olduğunu, əsl dərsin onların qəhrəmanlıq hekayələrindən öyrənildiyini vurğulayıb. Bildirib ki, universitetin hər iki Qarabağ müharibəsində iştirak etmiş şəhid məzunlarının xatirəsi təhsil aldıqları fakültələrdə əbədiləşdirilib.

Qeyd olunub ki, NDU-da hər yeni semestrin ilk dərsi şəhid ailələri tərəfindən keçirilir və bu ənənə gənclərin vətənpərvərlik ruhunun formalaşmasında mühüm rol oynayır.

Şəhid leytenant Bəşir Mehdiyevin valideynləri universitet rəhbərliyinə təşəkkür edərək bu təşəbbüsün onlar üçün böyük qürur mənbəyi olduğunu bildiriblər. Atası Yusif Mirzəyev universitetdə şəhid ailələrinə göstərilən diqqət və qayğını xüsusi qeyd edib.

Fakültə dekanları və digər çıxışçılar Bəşir Mehdiyevin nümunəvi tələbə olduğunu, yüksək əxlaqi keyfiyyətləri ilə seçildiyini vurğulayıblar.

Tədbirdə çıxış edənlər belə auditoriyaların gənclərdə vətənpərvərlik hisslərinin gücləndirilməsində mühüm rol oynadığını qeyd ediblər.

NDU-nun "Texnologiya" ixtisası üzrə II kurs tələbəsi Aytəkin Əliyeva "Şəhidim" şeirini bədii qiraət edib.

Sonda xatirə fotosu çəkdirilib.

# KİTAB TƏQDİMATLARI

***Naxçıvan Dövlət Universitetinin Elmi Kitabxanasında AMEA Nəsimi adına Dilçilik İnstitutunun direktoru, professor Nadir Məmmədlinin müəllifi olduğu "1926-cı il I Türkoloji Qurultay – tarixi zəminində, arxiv sənədlərində, milli mətbuatda" adlı kitabın təqdimat mərasimi keçirilib.***

Tədbirdə çıxış edən universitetin rektoru Elbrus İsayev müəllifi təbrik edərək ona gələcək elmi fəaliyyətində uğurlar arzulayıb.

Rektor, həmçinin Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin I Türkoloji Qurultayın 100 illik yubileyinin keçirilməsi ilə bağlı 22 oktyabr 2025-ci il tarixli Sərəncamını diqqətə çatdırıb və bu istiqamətdə görülən işlərin vacibliyini vurğulayıb.

Elbrus İsayev bildirib ki, nəşr I Türkoloji Qurultayın tarixi mahiyyətinin, onun ideoloji və elmi əsaslarının daha dərindən öyrənilməsi baxımından mühüm əhəmiyyət kəsb edir.



AMEA-nın müxbir üzvü, filologiya elmləri doktoru, professor Əbülfəz Quliyev kitab haqqında ətraflı məlumat verərək qeyd edib ki, nəşrdə qurultayın tarixi konteksti, uzun illər tədqiq olunmamış arxiv sənədləri və milli mətbuat materialları xronoloji ardıcıllıqla təqdim olunub.

Onun sözlərinə görə, kitabda protokollar, məruzə və çıxış mətnləri, rəsmi teleqramlar, həmçinin müxtəlif komissiyalara aid sənədlər yer alır və bu materiallar analitik şərhlərlə müşayiət olunur.

Təqdimatda AMEA-nın Naxçıvan Bölməsinin sədri akademik İsmayıl Hacıyev, Bakı Slavyan Universitetinin rektoru Anar Nağıyev, NDU-nun "Azərbaycan dilçiliyi" kafedrasının professoru Sədaqət Həsənova və həmin kafedranın dosenti Zülfiyyə İsmayıl çıxış edərək kitabın elmi əhəmiyyətindən danışıblar.

Qeyd olunub ki, üç fəsildən ibarət nəşrdə I Türkoloji Qurultay sovet məkanında türk dillərinin inkişafı, yazı sisteminin dəyişməsi və mədəni inteqrasiya məsələlərinin müzakirə olunduğu mühüm platforma kimi təqdim edilir.

Kitabda qurultayın tarixi-funksional





mahiyyəti və türkologiyanın inkişafına təsiri sistemli şəkildə araşdırılıb. Sonda müəllif Nadir Məmmədli tədbirin təşkilinə görə universitet rəhbərliyinə və iştirakçılara təşəkkürünü bildirib.

Professor çıxışını bu sözlərlə yekunlaşdırıb: "Mən arzu edirəm ki, gələcək zamanda bu qurultayın ikincisi baş tutsun və türkdilli xalqlardan olan qardaşlarımız bu sözlərlə çıxış etsinlər: "İkinci Türkoloji Qurultayı açıq elan edirik. Hər biriniz xoş gəlmisiniz.""

* * *

***Təbiətşünaslıq və kənd təsərrüfatı fakültəsi "Kimya" kafedrasının dosenti, pedaqogika üzrə fəlsəfə doktoru Qızıllı Əliyevanın müəllifi olduğu "Üzvi kimya kursunda oksidləşmə-reduksiya reaksiyalarının effektiv üsulla tədrisinin vacibliyi və idrak proseslərinin, varisliyin inkişaf etdirilməsinin əsas mərhələləri" adlı monoqrafiyanın təqdimatı olub.***

Tədbiri giriş sözü ilə açan universitetin Elmi fəaliyyətin təşkili və təhlili şöbəsinin müdiri, biologiya üzrə elmlər doktoru, dosent Ənvər İbrahimov monoqrafiyanın aktual mövzuya həsr olunduğunu vurğulayıb. Bildirib ki, təqdim olunan monoqrafiya yalnız ali təhsil pilləsi üçün deyil, eyni zamanda orta məktəb şagirdləri və abituriyentlər üçün də faydalı vəsait kimi dəyərləndirilə bilər.

Təbiətşünaslıq və kənd təsərrüfatı fakültəsinin tədris işləri üzrə dekan müavini, biologiya üzrə fəlsəfə doktoru, dosent Hilal Qasımov, "Kimya" kafedrasının müdiri, kimya üzrə fəlsəfə doktoru, dosent Şəmil Mahmudov, kimya üzrə fəlsəfə doktoru, dosent Akif Əliyev, kimya üzrə fəlsəfə doktoru, dosent Qorxmaz Hüseynov, Keyfiyyət Təminatı və Monitorinq şöbəsinin müdiri, "Kimya" kafedrasının baş müəllimi Sevinc Kərimova və digər çıxışçılar monoqrafiya haqqında fikirlərini bölüşüblər. Qeyd olunub ki, üzvi kimya kursunda oksidləşmə-reduksiya reaksiyalarının effektiv tədrisi həm nəzəri biliklərin möhkəmləndirilməsi, həm də tələbələrdə analitik düşünmə və idrak proseslərinin inkişafı baxımından mühüm əhəmiyyət daşıyır. Həmçinin nəzərə çatdırılıb ki, nəşrdə mövzuların sistemli və ardıcıl şəkildə izah olunması, eləcə də həyatla əlaqələndirilərək təqdim edilməsi oxucuların materialı daha asan mənimsəməsinə imkan yaradır.







Daha sonra müəllif Qızıllı Əliyeva göstərilən diqqət və qayğıya görə universitet rəhbərliyinə öz minnətdarlığını bildirib. Tədbir xatirə fotosunun çəkilməsi ilə yekunlaşıb.

* * *

***"Məşqçilik" kafedrasının baş müəllimi Kifayət Hüseynova, professor Məhəmmədəli Rəhimov, dosent Cavanşir Rəhimovun həmmüəllifi olduqları "XX əsrdə və XXI əsrin əvvəllərində Naxçıvan Muxtar Respublikasında bədən tərbiyəsi və idmanın inkişaf tarixi" və "Məşqçilik" kafedrasının baş müəllimi Kifayət Hüseynova, dosent Cavanşir Rəhimovun həmmüəllifi olduqları "Azərbaycanda şahmat kompozisiyaları, etüdlər və məsələlər" adlı dərs vəsaitlərinin təqdimatı olub.***

Tədbiri giriş sözü ilə açan NDU-nun Sosial məsələlər və ictimaiyyətlə əlaqələr üzrə prorektoru, filologiya üzrə fəlsəfə doktoru, dosent Nicat Yaqubov universitet əməkdaşlarının müəllifi olduğu tədris-metodik vəsaitləri sırasında bədən tərbiyəsi və idman haqqında yazılan kitabların sayında artım olmasını yüksək qiymətləndirib. Prorektor çıxışında son dövrlər Naxçıvan Dövlət Universitetinin idman sahəsində qazandığı uğurlardan da bəhs edib.







Daha sonra çıxış edən Pedaqoji fakültənin dekanı, pedaqogika üzrə fəlsəfə doktoru, dosent Vəli Əliyev, "Məşqçilik" kafedrasının baş müəllimi Nazim Əliyev təqdimatı keçirilən dərs vəsaitlərinin elmi dəyərindən bəhs edib. Qeyd olunub ki, 5 fəsildən ibarət olan "XX əsrdə və XXI əsrin əvvəllərində Naxçıvan Muxtar Respublikasında bədən tərbiyəsi və idmanın inkişaf tarixi" dərs vəsaiti Azərbaycan Respublikası Prezidentinin bədən tərbiyəsi və idmanla bağlı Fərman və Sərəncamları ilə başlayır. "Azərbaycanda şahmat kompozisiyaları, etüdlər və məsələlər" adlı dərs vəsaiti isə "Şahmat oyununu necə öyrənməli və oyunda necə təkmilləşməli?", "Şahmat kompozisiyaları, etüdlər, məsələlər, qambitlər", "Şahmat üzrə üçüncü dünya çempionatından etüdlər" adlı 3 fəsildən ibarətdir.

Sonda çıxış edən müəlliflər dərs vəsaitlərinin tədrisin məzmununun və keyfiyyətinin yüksəldilməsində səmərəli olacağına inamlarını ifadə edərək tədbirin təşkilatçılarına göstərilən diqqət və qayğıya görə öz minnətdarlıqlarını bildiriblər.



* * *

***"İngilis dili və tərcümə" kafedrasının baş müəllimi, filologiya üzrə fəlsəfə doktoru Sərcan Sadıqovanın müəllifi olduğu "İngilis dilində say tərkibli frazeoloji birləşmələr: struktur və mədəni aspektlər" adlı monoqrafiya və "İngiliscə-azərbaycanca say tərkibli frazeoloji birləşmələr" adlı metodik vəsaitin təqdimatı keçirilib.***

Tədbiri giriş sözü ilə açan Tədris departamentinin direktoru Şahin Əliyev universitet əməkdaşlarının müəllifi olduğu əsərlərin, metodikaların tədris prosesinə cəlb olunmasını təhsilin keyfiyyətinin artırılması baxımından yüksək qiymətləndirib. Qeyd olunub ki, Xarici dillər fakültəsində dillərin mənimsənilməsi prosesi müasir metodologiyalar, elmi yanaşmalar və intensiv tədris proqramları əsasında həyata keçirilir.

Daha sonra Xarici dillər fakültəsinin dekanı, filologiya üzrə fəlsəfə doktoru, dosent İlhamə Məmmədova, filologiya elmləri doktoru, dosent Ramiz Qasımov, "Tərcümə Mərkəzi"nin əməkdaşı, filologiya üzrə fəlsəfə doktoru Süsənbər Ağamalıyeva, "İngilis dili və metodika" kafedrasının baş müəllimi, filologiya üzrə fəlsəfə doktoru Cavid Babayev və digər çıxışçılar təqdimatı keçirilən kitabların elmi dəyəri haqqında danışıb və oxuculara çatdırdığı əsas ideyalar haqqında fikirlərini bölüşüblər.

Sonda çıxış edən müəllif Sərcan Sadıqova universitet rəhbərliyinə və təqdimat təşkilatçılarına öz minnətdarlığını bildirib.







# Xalqının zəka zirvəsinə ucalan lider

***Ümummilli Lider Heydər Əliyev Azərbaycanı tarixin ən mürəkkəb sınaqlarından çıxarmış qüdrətli şəxsiyyətdir. Bugünkü müasir Azərbaycan Heydər Əliyevin uzaqgörən siyasətinin və amalının təntənəsidir.***

***O, uzaqgörən siyasətçi, mahir təşkilatçı, ilhamlı qurucu idi. Hansı səmtə üz tuturdusa orada misilsiz idi, qüdrətli idi. Bu daimi böyüklüyün, tükənməz qüdrətin hikməti nə idi? Bəlkə də çətindən-çətin görünən bu sualın sadədən-sadə bir cavabı var. Heydər Əliyev ömrü boyu dilimizə və elimizə bağlı oldu. Dilimiz və elimizsə torpaqdır. Torpağın üstündə nəsil-nəsil yaşamış insanlardır, ata-babalarımızdır, ata-babalarımızın min illər boyu yaratdığı mənəvi sərvətlərdir. Heydər Əliyev ömrü boyu dilimizə, elimizə, mənəvi sərvətlərimizə sahib oldu, gücü onlardan aldı.***

Qədim Antey haqqındakı əsatirdə ibrət var. O, gücünü torpaqdan alırdı. Ayağı yerdən üzülən kimi taqətdən düşməyə, zəifləməyə başlayırdı. Heydər Əliyev mübarizələrdən keçdi, savaşlardan adladı, sınaqlarla üzləşdi. Heç vaxt gücü azalmadı, heç vaxt taqəti tükənmədi. Həmişə müvəffəq oldu, daim məqsədə yetişdi, qarşılaşdığı dürlü sınaqlardan müdam zəfərlə çıxdı. Çünki möhkəm təməl üzərində ucalmışdı, ona görə ki, ayaqları həmişə ana torpağın üzərində idi, o səbəbdən ki, həmişə dilimizə və elimizə bağlı idi. Bu əbədi qaynaqlardan bəhrələnənlərin, dildən və eldən qüvvət alanların gücü tükənərmi?! Ömrü boyu dildən və eldən enerji aldığından həyatı uzunu borcunu qaytarmağı da ən ümdə vəzifəsi saydı, dilimizi və elimizi daha möhtəşəm etmək üçün bacardığını əsirgəmədi. Ona görə də Heydər Əliyevin hələ bundan belə nə qədər yaşayacağı da dəqiq bəllidir – onun ömrü elə dilimizin və elimizin ömrü qədər olacaq.

Vaxtın insana öyrətdiyi əsas dərs barışmaq qabiliyyətidir. Dünyayla, onun dəyişməz həqiqətləri ilə barışmadan yaşamağa davam etmək mümkünsüz olardı. Barışmalı olduğumuz ən kədərli gerçəklik isə bizə əziz, doğma olan insanlardan əbədi ayrılıqlardır. Dünənəcən səninlə bir yerdə olan, duyğu, düşüncə bölüşən, sənin və ətrafdakıların həyatını daha mənalı edən əzizlər bir-bir gedir. İnsanların ömürlərindən qopan yeri dolmaz itkilərə tab gətirərək, taleyin belə gərdişi ilə razılaşaraq yaşamağa davam etməsinin səbəbi heç vaxt tükənməyən, daim diri qalan xatirələrdir. Özləri sönsələr də işıqları insanlara doğru yüz illərlə uçmaqda davam edən uzaq ulduzlar kimi hafizədə qalan izlər bizə munis olmuş insanları biryolluq getməyə qoymur, bizimlə saxlayır, yaddaşımızdakı surətlərini yeri düşdükcə məhrəm həmsöhbətlərimizə çevirir.

Azərbaycan xalqının tanıdığı, oxuduğu, sevdiyi çox kitablar var. Amma bu nəhayətsiz kitablardan ikisi millətimiz üçün ən müqəddəs masaüstü kitablardır. Biri Əsas qanunumuz, biri də Quran.

İslami dəyərlərə Heydər Əliyev ömrü boyu çox dərin rəğbət bəsləmişdi. Hətta sovet dönəmində, kommunist rejiminin ən öndə gedən rəhbərlərindən biri olduğu zamanda da özünün etiraf etdiyi kimi, həmişə o ideallar onun içərisində yaşayırdı. Təbii ki, sovet dönəmində bir kommunistin, xüsusən də partiya işi sahəsində yüksək vəzifə tutan şəxsin belə hisslərini evdən qırağa çıxarmaq imkanı yox idi. Amma məgər Sovet İttifaqı boyunca allahsızlığı özünə şüar etmiş Kommunist Partiyasının sıralarındakı cibində partiya bileti daşıyan və müəyyən vəzifələr tutan milyonlarla müsəlmanların hamısı rəsmi ideologiyanın tələb etdiyi kimi ateist idi? Üzdə bəli, özlərini o cür göstərməyə məcbur idilər, ancaq o cəmiyyətin içərisində yaşayırdıq, insanları tanıyırdıq, bilirdik, görürdük ki, əksəriyyət qəlbində din-imanına sədaqətlidir, hər kəsin daxilində bir Allah xofu və öz dininə inam var. Soyadı da, atasının və özünün adı da İslam müqəddəsləri ilə bağlı olan Heydər Əliyev də, təbii ki, istisna deyildi və onun alın yazısında İslam ziyarətgahlarının ən alisində namaz qılmaq varmış. Qismət oldu ki, yeni müstəqillik dövründə yenidən hakimiyyətə qayıdandan sonra ilk səfərlərindən birini Səudiyyə Ərəbistana etsin, Məkkədə Zəmzəm quyusundan su içsin, Mədinədə Peyğəmbər məscidinin qarşısında xəyala dalsın və dualar etsin. Ulu Öndər çıxışlarının birində söyləyirdi: "Hər bir müsəlman üçün bura ən müqəddəs ziyarətgahdır. Hər bir müsəlmanın ömür arzusu, niyyəti olur ki, buranı ziyarət etsin. Şübhəsiz ki, hamıya bu, nəsib olmur, qismət olmur. Ancaq bu gün bizə bu qismət olubdur. Dünyada insanın çox arzuları olur, çox istəkləri olur, çox niyyətləri olur. Hansı yerinə yetirsə, ona xoşbəxtlik gətirir. Ancaq bundan yüksək arzu ola bilməz və bu arzu bizim üçün nəsib oldu. Buna biz nail olduq. Biz xoşbəxtik, öz müqəddəs dinimizə bundan sonra da sadiq olacağıq və güman edirəm ki, bizim başqa arzularımız da müstəqil Azərbaycanın bu bəladan xilas olması, Azərbaycanın işğal olunmuş torpaqlarının azad olunması, müharibəyə son qoyulması arzumuz da yerinə yetəcəkdir. Əgər Allah bizim bu arzumuzu yerinə yetirməyə imkan veribsə, deməli, bu arzularımızın da yerinə yetirilməsinə kömək edəcək.

İbadətgahlara, ziyarət yerlərinə, tapınaqlara insanlarımız həmişə inamla, ümidlə yollanıb. Zəmanələr olub ki, pirlər, məscidlər dağıdılıb, ya dağıdılmayanları da bir başqa şəkildə alçaldılaraq anbarlara döndərilib. Ancaq insanlar iriliyindən-xırdalığından asılı olmayaraq həmin müqəddəs məskənlərə daim Allah evi kimi baxıb, o yerlərdə ruhi asayiş tapıblar.

Yüksək mənəviyyat sahibi Heydər Əliyevin ictimai vicdanımız qarşısında bir xidməti də bu oldu ki, ziyarətgahlarımıza, ibadətgahlarımıza xüsusi diqqət və nəvazişlə yanaşdı, onların ömrünə ömür artırmaq üçün əlindən gələni etdi.

Həm də qabil rəssam olan böyük vətənpərvər, Azərbaycan ziyalılığının və XX yüzilin başlanğıcında millət quruculuğu səmtində çalışanların ən fədakar simalarından olmuş Əli bəy Hüseynzadənin fırçaya aldıqları arasında Bibiheybət məscidinin rəsmi varmış və günlərin birində maddi sıxıntılar vadar edir ki, həmin tablonu satışa çıxarsın. Bu lövhənin satışa qoyulduğu dükana girən Bakıdakı ingilis konsulu rəsmi görüncə bəyənir, beh də verir ki, az sonra gəlib aparacaqlar. İş elə gətirir ki, təsadüfən Hacı Zeynalabdin Tağıyev bu sövdələşmədən xəbər tutur və ləngimədən rəsm üçün elan edilmiş məbləği ödəyərək deyir: "Rəva görmək olmaz ki, Azərbaycanın sərvəti olan bir əsər buradan bir əcnəbi tərəfindən alınıb kənara aparılsın".

Hacının bu xeyirxahlığı illər sonra gerçəkləşəcək başqa bir nəciblikdən ötrü təmələ çevrilir.

Şura hökuməti Bakıya kirli qədəmlərini basanda ilk dağıdıb məhv etdiklərindən biri də Bibiheybət məscidi olur. Guya fəxr olunmalı bir iş görürlərmiş kimi gələcəkdə özlərini ifşa edəcək, dəlilə çevriləcək bir kinoxronika da çəkiblər. Bibiheybət məscidinin uçurulmasını əks etdirən o kadrlara baxırkən indi də ürək ağrıyır.

Heydər Əliyevin millət qarşısında daha bir ləyaqətli işi də bu oldu ki, zamanında xalqın mənəvi dayaqlarını laxlatmağa yönələn siyasət aparan, o gedişatda Bibiheybət məscidi kimi bir memarlıq inci və ruh abidəsini dağıdanların xətasını düzəltdi. Məscidi elə öz tarixi yerindəcə əvvəlkindən də əzəmətli bir görkəmdə ucaltdı. Və bu məqamda tarixdəki nəcibliklər səsləşdi. Əli bəy Hüseynzadənin XX əsrin əvvəlində çəkdiyi rəsm həmin yüzilliyin sonunda Bibiheybət məscidinin bərpa edilməsində dada yetdi.

Heydər Əliyevin zərbülməsələ çevrilmiş deyişidir ki, Azərbaycan dünyaya Günəş kimi parlayacaqdır.

Bu elə istəkdir ki, böyüklükiçikli hər azərbaycanlının könlündə həmişə var və gələcəkdə də belə olacaq. Lakin bu sözləri demiş Heydər Əliyev sadəcə arzulamır, ümid bəsləmir, Azərbaycanın həqiqətən dünyanın hər nöqtəsindən görünən bir Günəş kimi parlaması üçün gecə-gündüz çalışırdı.

Azərbaycan tarixən dözümlülüyün, həmrəy birgəyaşayışın, ən müxtəlif dillərdə danışan və fərqli dinlərə tapınan insanlara mehriban köksündə səxavətlə yerayırmanın misilsiz meydanı olub. Əsrlər öncə bunun məhz belə olmasının aynası İçəri şəhərimizdir. Yüz illər əvvəl qala divarları arasında məscid də, kilsə də, atəşpərəst məbədi də yanaşı olub və bu ənənə nəsil-nəsil ötürülüb. XX əsrin dünyanı dəyişən təlatümlü hadisələrlə daşan son çərçivəsində dünyanın çox yerində dinlər arasında ədavət toxumu səpənlər, bu qızışdırıcılıqla bir çox qanlı qarşıdurmalara rəvac verənlər də oldu. Heydər Əliyev yeni müstəqillik dönəmində Azərbaycan Respublikasına rəhbərliyinin lap başlanğıcından bu həssas mövzunu daim diqqətində saxladı, macal vermədi ki, əsrlərcə qazandığımız və daim öyündüyümüz tolerantlıq təcrübəsini naşı, ya fitnəkar insanlar zədələsinlər. Siyasətdə balanslaşdırılmış bir xətt tutaraq Azərbaycan üçün beynəlxalq əlaqələrin ən sərfəli və ağıllı düsturunu yaradan Heydər Əliyev eyni yanaşmanı inanclar şəbəkəsinə də tətbiq etdi. Özünün çox sərrast ifadəsi vardı. Deyirdi ki, biz Sirat körpüsü kimi nazik bir yolla irəliləyirik. Sağa və sola atılan yanlış bir addım, istənilən büdrəmə uçuruma yuvarlanmağa səbəb ola bilər.

Siyasətdə də, ölkədəki din siyasətində də qızıl ortanı meyar olaraq götürməsi bir tərəfdən Heydər Əliyevin siyasət qrossmeysteri olmasından irəli gəlirdisə, ölçülü-biçili xətt tutmaq diplomatiyasının fövqəladə peşəkarı olmasından irəli gəlirdisə, digər yandan, bu, elə həm də Öndərin təbiətindən doğurduğu daxilindəki demokratizmin təzahürü idi.

O, dünyaca məşhur İslam liderləri ilə əl tutanda da, Roma Papası ilə bir masa arxasında əyləşəndə də eyni dərəcədə səmimi, həmsöhbətləri ilə eyni dərəcədə məhrəm idi. Və bunu əlavə sözlərlə sübuta yetirməyə zərurət yox idi. Çünki müdrikliklə aparılan siyasətin, görülən işlərin sayəsində Azərbaycan məhz bu məziyyəti ilə dünyanın hər guşəsindən qibtəoyadıcı ucalığı ilə görünürdü.

Heydər Əliyev siyasi hakimiyyətə yenidən qayıdışının ilk dövrlərindən qeyd edirdi ki, "Müstəqil Azərbaycan Respublikasının qarşısında duran əsas vəzifələrdən biri respublikanın dövlət quruculuğunu təşkil etməkdir. Bizim yolumuz aydındır, bunu dəfələrlə bəyan etmişik. Yolumuz demokratiya yoludur. Müstəqil Azərbaycanda demokratik hüquqi dövlət qurulmalıdır. Bunun üçün Azərbaycanda bütün imkanlar yaranıb və bundan sonra da yaranacaqdır. Azərbaycanda insan azadlığı, söz azadlığı, din azadlığı, vicdan azadlığı – bunların hamısı demokratik, sivilizasiyalı cəmiyyətin yaranmasına imkan verən şərtlərdir. Biz bu şərtlərin bərqərar olmasını təmin edəcəyik".

Ulu Öndərin birbaşa iştirakı və rəhbərliyi ilə həyata keçirilən ən mühüm addımlardan biri 1995-ci ildə müstəqil Azərbaycanın ilk Konstitusiyasının qəbul edilməsi oldu. Ümummilli Lider yeni milli konstitusiyanı mükəmməl bir sənəd kimi hazırlamağı tövsiyə edərək deyirdi ki: "Biz elə bir Konstitusiya qəbul etməliyik ki, müstəqil Azərbaycan Respubilkasının demokratik prinsiplər əsasında uzun müddət sabit yaşamasını təmin etsin, Əsas Qanun tarixi sənəd olsun". Tariximizə Heydər Əliyev Konstitusiyası kimi düşən bu Konstitusiya Azərbaycan dövlətinin hüquqi əsaslarını müəyyənləşdirdi, insan və vətəndaş hüquq və azadlıqlarını təsbit etdi, həmçinin hakimiyyət bölgüsü prinsipini rəsmləşdirdi.Bu sənəd müasir hüquqi dövlət quruculuğunun təməl daşı hesab olunur.

Heydər Əliyevin hüquqi islahatlarının mühüm istiqamətlərindən biri də respublikamızda məhkəmə sisteminin yenidən qurulması idi. Onun təşəbbüsü ilə müasir, üçpilləli məhkəmə sistemi yaradıldı və təsis olundu. Bu addımlar məhkəmə hakimiyyətinin müstəqilliyini gücləndirdi və vətəndaşların hüquqlarının daha da effektiv müdafiəsinə geniş şərait yaratdı.

Bununla yanaşı, qanunvericilik bazasının yenilənməsi istiqamətində mühüm addımlar



atıldı. Müasir dövrün tələblərinə cavab verən yeni və digər mühüm aktlar qəbul edildi. Bu sənədlər köhnə sovet hüquq sistemindən imtina edərək bazar iqtisadiyyatına uyğun müasir hüquqi mühitin formallaşmasına xidmət etdi.

Eyni zamanda Heydər Əliyevin qanunvericilik siyasəti beynəlxalq hüquq sisteminə inteqrasiyanı da əhatə edirdi. Azərbaycan Respublikasının Avropa Şurasına üzv qəbul olunması ölkədə insan hüquqlarının qorunması sahəsində yeni mərhələnin başlanğıcı oldu. Bu istiqa mətdə milli hüquq sistemi beynəlxalq standartlara uyğunlaşdırıldı.

Bir sözlə, Heydər Əliyevin həyata keçirdiyi hüquqi islahatlar Azərbaycan Respublikasında hüquqi dövlət quruculuğunun möhkəm əsaslarını yaratdı. Onun qanvericilik siyasəti ölkədə sabitliyin, ədalətin və qanunun aliliyinin təmin olunmasına xidmət etdi və bu gün də öz aktuallığını saxlayır.

O gün Heydər Əliyev həyatda olanda görünürdü, indi bu müstəsna şəxsiyyətlə ayrılığın üstünə illər gəldikcə, müasir Azərbaycanın qurucusunun əbədi ömrünün ikinci əsri başlanandan sonra da aydınlığı ilə duyulur. Heydər Əliyevin uca boyu vaxtın bütün gələcəklərindən də görünəcək, hər dəfə də onun peyğəmbərcə dəqiq söylədiyi "Mən həmişə Azərbaycanda olacağam" gerçəyini təsdiq edəcək! Böyük şairimiz Xanəli Kərimlinin Ulu Öndərə həsr etdiyi "Onu zaman doğmuşdu" şeirində söylədiyi kimi:

O, dünyaya gələndə
Təkcə özü ağladı.
Dünyadan köçəndəsə
Cahan qara bağladı.
O bir Tanrı elçisi
O bir Göy adamıydı.
Hava kimi, su kimi,

Hələ yaşamalıydı.
O, insan azadlığı,
Sülhün əlifbasıydı.
O, bir millətin deyil,

Bəşərin dühasıydı.
O, Ali Baş Komandan,
Həm də bir əsgər idi.
Siyasət meydanında,
Alınmaz səngər idi.

Heydər özü bir əsr,
Əsrlər ona möhtac.
Heydərsiz çox əsrlər,
Qalacaqdır beyni ac.

O, sahibi-zamanmış,
Sən demə bilmədik biz.
İndi onun yoxluğun,
Ovudanmır qəlbimiz.

Heydər kimi bir düha,
Yetiribdirsə bu xalq.
Bu xalqa ölüm yoxdur –
Əbədi yaşayacaq!

***Səfiyar Abışov,***
***Naxçıvan Dövlət Universitetinin Beynəlxalq münasibətlər və Hüquq fakültəsinin müəllimi***

# Mədəni irsin qorunması, dünya təcrübəsi və Naxçıvan nümunəsi

İnsanlıq tarixi yalnız kitablarda yazılmış səhifələrdən ibarət deyil, o, eyni zamanda şəhərlərin qədim küçələrində, məbədlərin sütunlarında, qalaların divarlarında, məzar daşlarında və memarlıq nümunələrinin səssiz dilində də yaşayır. Dünyanın müxtəlif coğrafiyalarında yerləşən tarixi abidələr və qədim məkanlar xalqların keçmişini, mədəni kimliyini, estetik zövqünü və mənəvi yaddaşını əks etdirən canlı salnamələrdir. Misirin ehramları, İtaliyadakı Kolizey, Hindistandakı Tac Mahal, Perudakı Maçu Pikçu və dünyanın digər məşhur tarixi məkanları yalnız bir xalqın deyil, bütün bəşəriyyətin ortaq mədəni irsi hesab olunur. Bu abidələr zama nın sınağından çıxaraq keçmişin səsini gələcəyə çatdıran qiymətli miraslardır.

Məhz bu tarixi və mədəni sərvətlərin qorunmasının vacibliyini dünya ictimaiyyətinə çatdırmaq məqsədilə hər il 18 aprel tarixi Beynəlxalq Abidələr və Tarixi Yerlər Günü kimi qeyd olunur. Bu gün dünyada daha çox Dünya İrsi Günü adı ilə tanınır.

Abidələr və Tarixi Yerlər üzrə Beynəlxalq Şura (International Council on Monuments and Sites – ICOMOS) bu əlamətdar günün təsisi ideyasını 1982-ci ildə irəli sürmüşdür. Təklif ilk dəfə Tunis şəhərində keçirilən beynəlxalq simpoziumda səsləndirilmiş, daha sonra 1983-cü ildə UNESCO-nun Baş Konfransının 22-ci sessiyasında rəsmi şəkildə qəbul edilmişdir. O vaxtdan etibarən 18 aprel dünya miqyasında mədəni irsin mühafizəsi və təbliği baxımından mühüm tarix kimi qeyd olunur.

Bu günün əsas məqsədi yalnız tarixi abidələri xatırlamaq deyil, həm də onların qarşılaşdığı təhlükələrə – müharibələrə, təbii fəlakətlərə, urbanizasiya prosesinə, laqeydliyə və iqlim dəyişikliklərinə diqqət çəkməkdir. Tarixi yerlərin qorunması milli kimliyin, mədəni müxtəlifliyin və bəşəriyyətin ortaq yaddaşının saxlanılması baxımından xüsusi əhəmiyyət kəsb edir. Mədəni irsin məhv olması isə bütün dünya xalqları üçün ciddi mənəvi itki deməkdir. Təəssüf ki, bəzən humanizm prinsiplərindən uzaq qüvvələr tərəfindən törədilən müharibələr, vandalizm və qeyri-qanuni fəaliyyət nəticəsində əsrlər boyu nəsildən-nəslə ötürülən daş və daşlaşmış xatirələr məhv edilir. Hər dağıdılmış abidə yalnız daş və kərpicdən ibarət olmayıb, o, bir xalqın ruhunun, tarixinin və mədəni yaddaşının sönən işığıdır. Bu itkilər insanlığın ortaq irsində boşluqlar yaradır və gələcək nəsillər üçün unudulmaz dərslər ehtiva edir.

Belə təhlükələrin qarşısını almaq üçün dövlətlər, beynəlxalq təşkilatlar və regional qurumlar arasında sıx əməkdaşlıq, maarifləndirmə və mədəni dialoq vacibdir. Multikultural və tolerant yanaşma çərçivəsində, fərqli xalqların tarixi və mədəni irsinə hörmət göstərilməsi, gənc nəsillərin mədəni irs haqqında məlumatlandırılması və abidələrin qorunmasına ictimai marağın artırılması, vandalizm və laqeydliyə qarşı ən güclü müdafiə mexanizmi ola bilər. Tarixi abidələr yalnız bir xalqın deyil, bütün bəşəriyyətin ortaq sərvətidir və onların qorunması mədəni müxtəlifliyi, dialoqu və insanlıq prinsiplərini gücləndirir.

Bu günün beynəlxalq səviyyədə qeyd olunmasında aparıcı rol oynayan əsas qurum – Abidələr və Tarixi Yerlər üzrə Beynəlxalq Şura (International Council on Monuments and Sites – ICOMOS) dur. ICOMOS dünya üzrə tarixi abidələrin, memarlıq nümunələrinin, arxeoloji sahələrin və mədəni landşaftların qorunması istiqamətində nüfuzlu fəaliyyət göstərən beynəlxalq təşkilat olaraq tanınır. Təşkilat müxtəlif ölkələrdə milli komitələr vasitəsilə seminarlar, elmi konfranslar, sərgilər və maarifləndirici tədbirlər həyata keçirir, abidələrin qorunması və gələcək nəsillərə ötürülməsi üçün standartlar müəyyən edir. Bununla yanaşı, UNESCO da dünya irsinin qorunması və təbliği sahəsində mühüm rol oynayır. UNESCO-nun Dünya İrs Komitəsi tarixi və mədəni əhəmiyyətə malik obyektlərin siyahıya alınması, mühafizəsi və gələcək nəsillərə ötürülməsi istiqamətində fəaliyyət göstərir. Bu təşkilatlar, beynəlxalq əməkdaşlıq və standartlar vasitəsilə tarixi abidələrin yalnız bir xalqın deyil, bütün bəşəriyyətin ortaq sərvəti olaraq qorunmasını təmin edirlər.

18 Aprel yalnız keçmişə ehtiram günü deyil, həm də gələcəyə qarşı məsuliyyətin çağırışıdır. Hər bir abidə xalqın tarixinin daşlaşmış yaddaşı, milli ruhunun bədii ifadəsi və sivilizasiyanın izidir. Onları qorumaq, keçmişi anlamaq və gələcək nəsillərə çatdırmaq hər birimizin borcudur.

Beynəlxalq səviyyədə mədəni irsin qorunması və təbliği sahəsindəki tədbirlər yalnız qlobal əhəmiyyət kəsb etmir, eyni zamanda hər bir ölkənin, o cümlədən Azərbaycanın zəngin tarixi və mədəni irsinin dünya miqyasında tanınması və qorunmasına zəmin yaradır.

Azərbaycanın zəngin tarixi və mədəni irsi bu gün yalnız milli sərvət kimi qiymətləndirilmir, həm də beynəlxalq təşkilatlar tərəfindən tanınan və bəşəri irs nümunəsi kimi yüksək dəyər verilən əhəmiyyətli bir mədəniyyət mirasıdır. Xüsusilə UNESCO tərəfindən bir sıra tarixi abidə və obyektlərimizin Dünya İrs Siyahısına daxil edilməsi ölkəmizin qədim sivilizasiya mərkəzlərindən biri olduğunu bir daha təsdiqləyir.

Azərbaycanın beynəlxalq səviyyədə tanınan ən mühüm tarixi abidələrindən biri İçərişəhərdir. Qədim qala divarları, dar küçələri, karvansaraları, məscidləri və orta əsr memarlıq nümunələri ilə zəngin olan İçərişəhər, Azərbaycanın tarixi yaddaşının canlı simvolu hesab olunur. 2000-ci ildə bu kompleks UNESCO-nun Dünya İrs Siyahısına daxil edilmişdir.

Bu kompleksin tərkib hissəsi olan Qız Qalası və Şirvanşahlar Sarayı yalnız Azərbaycan memarlığının deyil, bütün dünya memarlıq sənətinin nadir incilərindən hesab olunur. Tarixi abidələrin qorunması və təqdimatı baxımından böyük əhəmiyyət kəsb edən bu yerlər Azərbaycanın qədim mədəni irsinin canlı simvoludur. Beynəlxalq aləmdə tanınan digər mühüm abidəmiz isə Qobustan qayaüstü rəsmləridir. 2007-ci ildə UNESCO-nun Dünya İrs Siyahısına daxil edilmiş bu kompleks, ibtidai insanların həyat tərzini, ov səhnələrini, dini ayinlərini və gündəlik məişətini əks etdirən minlərlə qayaüstü təsvirlə zəngindir və bəşəriyyət üçün unikallıq daşıyır.

Şəki Xan Sarayı və Şəkinin tarixi mərkəzi də beynəlxalq səviyyədə tanınan əhəmiyyətli abidələr sırasındadır. 2019-cu ildə bu kompleks UNESCO tərəfindən Dünya İrs Siyahısına daxil edilmişdir. Son illərdə isə Xınalıq kəndi və "Köç Yolu" marşrutu da beynəlxalq aləmdə tanınaraq dünya irsi statusunu qazanmışdır, beləliklə, Azərbaycanın qədim mədəniyyət mərkəzlərinin zənginliyi və unikal irsi bir daha təsdiqlənmiş olur.

Şimali Azərbaycanın Böyük Qafqaz dağlarında yerləşən Xınalıq kəndi, yüksək dağ yaylaqları və Aran düzənliklərindəki qışlaq ərazilərini birləşdirən təxminən 200 km-lik mövsümi köç marşrutu – "Köç Yolu" bu mədəni landşaftın əsas elementlərini təşkil edir. Bu abidə yalnız müəyyən bir məkan deyil, həm də geniş bir coğrafiya və həyat tərzinin canlı mənzərəsidir.

Xınalıq və "Köç Yolu" Transhumans (yaylaq-qışlaq köç yolu) Marşrutu 2023-cü ildə UNESCO tərəfindən Dünya İrs Siyahısına daxil edilmiş və həm etnoqrafik, həm də tarixi-mədəni əhəmiyyətə malik olduğu təsdiqlənmişdir. Bu abidə yalnız bir yer deyil, geniş coğrafi məkan və həyat tərzinin mənzərəsini əks etdirir, Şimali Azərbaycanın Böyük Qafqaz dağlarında yerləşən Xınalıq kəndi, yüksək dağ yaylaqları və Aran düzənliklərindəki qışlaq ərazilərini birləşdirən təxminən 200 km-lik mövsümi köç marşrutu – Köç Yolu burada mədəni landşaftı təşkil edir. Xınalıq kəndi qədimdən bəri yarımköçəri xalqın mərkəzi olub və bu xalqın yaşam tərzi uzun illər boyunca mövsümi yaylaqlara və qışlaqlara dağlıq və aran ərazilər arasında mövsümi köç ənənəsinə əsaslanıb, "Köç Yolu" isə bu köçəri heyvandarlıq ənənəsinin praktikasının əsas elementi olmaqla yanaşı, insanla təbiət arasında tarazlaşdırılmış harmoniya yaradan dayanıqlı ekologiyasosial sistemin nümunəsidir. Bu mədəni landşaft yalnız fiziki coğrafiyanı deyil, həm də köçəri həyat tərzi ilə bağlı mədəni elementləri əhatə edir, qədim yollar, müvəqqəti otlaqlar, gecələmə yerləri, su mənbələri, qəbirlər, dini məkanlar, məscidlər və digər infrastruktur elementləri insan-təbiət münasibətinin əsrlər boyu qorunmuş izlərini nümayiş etdirir. UNESCO tərəfindən bu nominasiyanın qəbul olunması Xınalığın və "Köç Yolu"nun yalnız Azərbaycan tarixinin deyil, bütün bəşəriyyətin ortaq mədəni irsinin əvəzsiz nümunələrindən biri olduğunu təsdiqləyir və yaşadığı çətin relyef və iqlim şəraitinə baxmayaraq, məskunlaşma, heyvandarlıq və köçəri ənənələrlə bağlı qədim yaşam təcrübəsinin bu günədək qorunub saxlanmasının mühüm şahididir.



Azərbaycanın digər qədim mədəniyyət mərkəzlərindən biri olan Naxçıvan da öz zəngin maddi və qeyri-maddi irs nümunələri ilə beynəlxalq aləmdə xüsusi yer tutur. Tarixin müxtəlif mərhələlərində formalaşmış bu abidələr və mədəni dəyərlər beynəlxalq təşkilatlar tərəfindən ardıcıl şəkildə tanınaraq nüfuzlu siyahılara daxil edilmişdir. Bu baxımdan Naxçıvanın beynəlxalq səviyyədə qəbul olunmuş irs nümunələrinə xronoloji ardıcıllıqla nəzər salmaq xüsusi əhəmiyyət kəsb edir.

Naxçıvanın zəngin maddi və qeyri-maddi mədəni irsi müxtəlif illərdə beynəlxalq təşkilatlar tərəfindən yüksək qiymətləndirilərək bir sıra nüfuzlu siyahılara daxil edilmişdir. Bu fakt qədim diyarın yalnız Azərbaycanın deyil, bütövlükdə dünya mədəniyyət tarixinin mühüm mədəniyyət ocaqlarından biri olduğunu bir daha təsdiqləyir. Xronoloji baxımdan ilk mühüm mərhələ 1998-ci ildə "Naxçıvan məqbərələri"nin UNESCO-nun Dünya İrsinin İlkin Siyahısına daxil edilməsi olmuşdur. Bu nominasiya çərçivəsində Möminə Xatun türbəsi, Yusif ibn Küseyir türbəsi, Qarabağlar türbəsi və Gülüstan türbəsi dünya əhəmiyyətli memarlıq abidələri kimi tanınmış, beləliklə, Naxçıvan memarlıq məktəbinin zəngin ənənələri beynəlxalq səviyyədə təsdiq olunmuşdur. Xüsusilə Əcəmi Naxçıvaninin memarlıq dühasını əks etdirən Möminə Xatun və Yusif ibn Küseyir türbələri Şərq memarlıq sənətinin ən nadir incilərindən hesab olunur.

Bunun ardınca, 24 oktyabr 2001-ci ildə Ordubad Tarixi-Memarlıq Qoruğunun UNESCO-nun Dünya İrsinin İlkin Siyahısına daxil edilməsi Naxçıvanın tarixi şəhərsalma mədəniyyətinin beynəlxalq səviyyədə tanınmasında mühüm mərhələ olmuşdur. Bu qərar Ordubadın özünəməxsus memarlıq üslubunun, qədim məhəllə sisteminin, dar küçələrinin, yaşayış evlərinin, məscidlərinin, hamam və karvansaralarının Şərq şəhərsalma ənənələrinin dəyərli nümunəsi kimi beynəlxalq səviyyədə qəbul olunduğunu aydın şəkildə göstərir. Naxçıvanın qeyri-maddi mədəni irsi sahəsində növbəti mühüm mərhələ 2018-ci ildə Şərur yallılarının UNESCO-nun Təcili Qorunmaya Ehtiyacı Olan Qeyri-Maddi Mədəni İrs Siyahısına daxil edilməsi olmuşdur. "Yallı (Köçəri, Tənzərə)" adı ilə qeydə alınan bu qədim xalq rəqsləri, xüsusilə Şərur bölgəsinin zəngin folklor və mərasim ənənələrini dünya miqyasında tanıtmışdır. Yallı burada yalnız bir rəqs forması deyil, həm də xalqın birlik ruhunu, kollektiv həmrəyliyini, tarixi yaddaşını və mənəvi bağlılığını yaşadan mühüm millimədəni dəyər kimi qiymətləndirilir.

Xronoloji baxımdan daha yeni və mühüm hadisələrdən biri isə 28 sentyabr 2024-cü ildə Gəmiqaya və Göygöl Tarixi-Mədəni və Təbii Kompleksinin UNESCO-nun İlkin Siyahısına daxil edilməsi olmuşdur. Ordubad rayonu ərazisində yerləşən bu kompleks minilliklərə aid qayaüstü rəsmləri, qədim insan məskənlərinə dair arxeoloji izləri və zəngin təbii landşaftı ilə Naxçıvanın ən qədim sivilizasiya ocaqlarından biri kimi xüsusi əhəmiyyət daşıdığını bir daha təsdiqləyir. Gəmiqaya petroqlifləri (petroqlif - qədim insanların daşların və qayaların üzərinə həkk etdikləri şəkillər, işarələr və təsvirlər) burada yaşamış qədim insanların düşüncə tərzini, inanclarını, məişətini və təbiətlə münasibətlərini əks etdirən unikal tarixi qaynaq kimi xüsusi əhəmiyyət daşıyır.

Nəhayət, 11 fevral 2026-cı ildə Ordubad Tarixi-Memarlıq Qoruğunun ICESCO-nun İslam Dünyası İrsinin İlkin Siyahısına daxil edilməsi bu qədim şəhərin beynəlxalq miqyasda daha geniş tanınmasının mühüm mərhələsinə çevrilmişdir. Bu qərar Ordubadın yalnız UNESCO çərçivəsində deyil, bütövlükdə İslam memarlıq və şəhərsalma irsinin mühüm nümunələrindən biri kimi qəbul olunduğunu göstərir. Eyni zamanda bu fakt Naxçıvanın zəngin tarixi-mədəni irsinin dünya miqyasında yüksək qiymətləndirilməsinin növbəti bariz nümunəsidir. Bu qərar Ordubadın yalnız UNESCO çərçivəsində deyil, bütövlükdə İslam memarlıq və şəhərsalma irsinin mühüm nümunələrindən biri kimi qəbul olunduğunu göstərir və Naxçıvanın zəngin tarixi-mədəni irsinin dünya miqyasında yüksək qiymətləndirilməsinin növbəti bariz nümunəsidir.

***Gülxarə Əhmədova***
***Filologiya üzrə fəlsəfə doktoru, dosent***

# Azərbaycan musiqisinin inkişafında tarixi addımlar: Heydər Əliyev dövrü

*"Çox sevindirici haldır ki, Azərbaycanın böyük tarixə malik olan incəsənəti, musiqi sənəti hər il yeni istedadlar yetişdirir. Bu, xalqımızın mədəniyyətinin, incəsənətin zənginliyini nümayiş etdirir"*

***HEYDƏR ƏLİYEV***



Heydər Əliyevin zəngin və çoxşaxəli irsi XX-XXI əsr Azərbaycan musiqi mədəniyyətinin yarıməsrlik inkişaf mərhələsini əhatə edir və bu dövrdə musiqimizin bütün sahələrini, yeniliklərini və nailiyyətlərini özündə birləşdirir. Onun musiqi mədəniyyətinin inkişafı istiqamətində gördüyü işlər müasir musiqişünaslıq üçün qiymətli, real və təkzibolunmaz fakt və materiallarla zəngindir.

1969-cu ildən respublikaya rəhbərlik etməyə başlayan Ulu Öndər elmin, təhsilin, mədəniyyət və incəsənətin müasir tələblərə uyğun inkişafı üçün məqsədyönlü dövlət siyasəti həyata keçirdi. Onun milli və dünya incəsənətinə dərindən bələd olması, yüksək zövqü və ziyalı şəxsiyyəti Azərbaycan mədəniyyətində yeni inkişaf mərhələsinin əsasını qoydu, yaradıcılıq mühitini genişləndirdi və böyük sənət nailiyyətləri üçün möhkəm zəmin yaratdı. Ümumilikdə, dövlətin inkişafı onu idarə edən liderin şəxsiyyəti ilə sıx bağlıdır. Bu baxımdan Azərbaycan xalqı xoşbəxtdir ki, onun müasir tarixində xalqına və vətəninə bağlı, qurucu və uzaqgörən lider – Heydər Əliyev kimi dahi şəxsiyyət mühüm rol oynamışdır. Bu fikirləri Heydər Əliyevin XX-XXI əsr Azərbaycan musiqi mədəniyyəti və incəsənətinin inkişafı, yüksəlişi, təbliği istiqamətində həyata keçirdiyi dövlət siyasəti ilə bu sahədəki əvəzsiz tarixi xidmətləri ilə əsaslandırmaq olar.

1969-cu ildə Heydər Əliyev Azərbaycanın siyasi rəhbərliyinə gələnədək respublikada professional musiqi incəsənəti və bəstəkarlıq məktəbi artıq SSRİ miqyasında tanınırdı. Üzeyir Hacıbəyov milli klassik-peşəkar musiqinin banilərindən biri kimi böyük nüfuz qazanmış, bəstəkarlarımızın əsərləri müxtəlif şəhərlərdə səslənmiş, ifaçılarımızın çıxışları maraqla qarşılanmışdı. Lakin bu uğurlar əsasən sənətkarların şəxsi istedadı və zəhməti hesabına əldə olunurdu. Sovet dövründə incəsənət çox vaxt ideologiyanın təbliği vasitəsinə çevrilmiş, Azərbaycan isə mərkəz tərəfindən milli-mədəni "ucqar" kimi təqdim edilmişdi. SSRİ-nin böyük şəhərlərində Azərbaycanın zəngin musiqi mədəniyyəti haqqında dolğun təsəvvür hələ tam formalaşmamışdı.

Azərbaycan mədəniyyət və incəsənət sahəsində milli ucqar kimi qəbul edilməsi onun təmsilçilərinə də hiss etdirilirdi. Azərbaycan Bəstəkarlar İttifaqı böyük nailiyyətlər əldə etsə də, daim tənqid edilirdi, musiqi mədəniyyətimiz isə "durğun", "ətalətli" və "yeniliklərə meyildən uzaq" göstərilirdi. Azərbaycan musiqisinin tanınması əsasən bəstəkar, dirijor və ifaçılarımızın şəxsi təşəbbüsləri hesabına mümkün olurdu. Belə bir mürəkkəb siyasi şəraitdə Heydər Əliyev milli musiqi incəsənətinin inkişafı qarşısındakı maneələri aradan qaldırdı. O, Azərbaycan musiqi mədəniyyətinə milli və dünya mədəniyyətinin ayrılmaz hissəsi kimi yanaşaraq "milli ucqar" baxışını dəyişdi, musiqi əlaqələrinin coğrafiyasını genişləndirdi və Azərbaycan musiqisinin dünyada daha geniş tanınmasına şərait yaratdı.

Sovet dövründə Azərbaycan mədəniyyət və incəsənəti "milli ucqar" kimi təqdim olunur, musiqi mədəniyyətimiz "durğun" və "yeniliklərdən uzaq" kimi qərəzli qiymətləndirilirdi. Azərbaycan Bəstəkarlar İttifaqı nailiyyətlər qazansa da Azərbaycan musiqisinin uğurları əsasən sənətkarların şəxsi təşəbbüsü ilə qorunurdu. Heydər Əliyev bu qərəzli münasibəti aradan qaldıraraq Azərbaycan musiqi mədəniyyətinə milli və dünya mədəniyyətinin ayrılmaz hissəsi kimi yanaşdı, "milli ucqar" stereotiplərini dağıtdı və musiqi əlaqələrinin coğrafiyasını genişləndirdi. Nəticədə ,Azərbaycan musiqisi beynəlxalq miqyasda daha geniş tanınmağa başladı.

Heydər Əliyev musiqi mədəniyyəti və incəsənətin inkişafını respublikanın iqtisadi, sosial, elm və təhsil sahələrindəki tərəqqi ilə birbaşa əlaqələndirirdi. Onun həyata keçirdiyi inkişaf siyasəti nəticəsində ölkənin iqtisadi və sənaye potensialı gücləndi, bu isə mədəniyyət və incəsənətin inkişafı üçün möhkəm maddi-texniki baza yaratdı. Bu siyasətin nəticəsi olaraq respublikada çoxsaylı mədəniyyət ocaqları, konsert salonları, musiqi və incəsənət məktəbləri yaradıldı. Heydər Əliyev Sarayı, Bakı Xoreoqrafiya Akademiyası, Azərbaycan Dövlət Filarmoniyası kimi mühüm mədəniyyət müəssisələri istifadəyə verildi. Eyni zamanda musiqi təhsilinin inkişafına xüsusi diqqət ayrıldı, peşəkar musiqiçi və müəllim kadrların hazırlanması dövlət siyasətinin vacib istiqamətlərindən birinə çevrildi.

Heydər Əliyev musiqi incəsənətinin inkişafına milli inkişafın ayrılmaz və mühüm tərkib hissəsi kimi baxırdı. Musiqi mədəniyyətinin tərəqqisinə özünün bir dövlət başçısı kimi yaratdığı və həyata keçirdiyi milli inkişaf konsepsiyasının ayrılmaz tərkibi, vacib amili kimi yanaşması tarixin də təsdiq etdiyi kimi olduqca səmərəli, uğurlu bir yanaşma, perspektivli bir siyasət idi. Heydər Əliyev öz məruzə və çıxışlarında dəfələrlə vurğulamışdır ki, millətin inkişafı birxətli yaxud təkcə bir sahənin inkişafı ilə mümkün ola bilməz. Bu ideyası onun milli inkişafın konseptual həllinə yönəlik siyasi fəaliyyətində də öz ifadəsini və real əməli nəticəsini tapmışdır.

Heydər Əliyev Azərbaycan musiqi mədəniyyəti və incəsənətinin inkişafını yalnız bu gün üçün deyil, gələcək nəsillər üçün də düşünürdü. O, milli inkişafın davamlılığını təmin etmək məqsədilə iqtisadi, sosial və mədəni sahələri vahid sistem kimi inkişaf etdirərək musiqi mədəniyyətinin uzunmüddətli tərəqqisi üçün möhkəm zəmin yaratdı. Heydər Əliyev Azərbaycan musiqisinin inkişafına, dünya musiqi nümunələrinin ölkədə təbliğinə, peşəkar musiqiçilərə və tədris ocaqlarına daim dəstək göstərmişdir. Onun siyasəti nəticəsində musiqi ölkənin müasirləşməsində, dünyaya inteqrasiyasında və beynəlxalq əməkdaşlığında mühüm vasitəyə çevrilmiş, millimədəni inkişafın əsas dayaqlarından biri olmuşdur.

Heydər Əliyev milli-humanist dəyərlərin, adət-ənənələrin və xalq sənətinin qorunmasına daim xüsusi diqqət yetirirdi. O, muğamı, xalq musiqisini və peşəkar musiqi sənətini xalqın mənəvi sərvəti kimi qiymətləndirir, onların yaşaması və inkişafı üçün dövlət qayğısını gücləndirirdi. Muğamların və xalq musiqisinin bəstəkar yaradıcılığı vasitəsilə yeni forma və üsullarla dünyaya tanıdılmasını vacib sayırdı. Dəfələrlə Üzeyir Hacıbəyovun, Müslüm Maqomayevin, Bülbülün, Şövkət Məmmədovanın, Qara Qarayevin, Fikrət Əmirovun, Cövdət Hacıyevin, Niyazinin, Səid Rüstəmovun, Rəşid Behbudovun, Cahangir Cahangirovun, Tofiq Quliyevin, Arif Məlikovun, Vasif Adıgözəlovun, Vaqif Mustafazadənin, Zeynəb Xanlarovanın və b. yaradıcılığına qiymət verərkən, onların xalq-milli musiqisinə məhəbbətlə, ustalıqla yanaşmalarını da vurğulamış, onların nümunəsində ənənə və novatorluğun uğurlu sintezini milli və bəşəri ruhda musiqi tərbiyəsinin vacib amili saymışdır.

Üzeyir Hacıbəyov, Qara Qarayev, Fikrət Əmirov kimi görkəmli sənətkarların yaradıcılığında milli ənənə ilə novatorluğun vəhdətini yüksək qiymətləndirirdi. 1970-1980-ci illərdə Azərbaycan Dövlət Filarmoniyasında təşkil olunan "Musiqili cümə" və "Musiqili şənbə" konsertləri vasitəsilə cəmiyyətdə musiqi-estetik zövqün formalaşmasına çalışır, incəsənəti anlayan və qiymətləndirən mədəni idarəçilərin yetişməsinə önəm verirdi.

Heydər Əliyevin musiqi sahəsindəki fəaliyyəti onun yüksək mədəniyyəti və sənətə bağlılığını aydın göstərirdi. O, həm Azərbaycana, həm də SSRİ Nazirlər Kabinetinə rəhbərlik etdiyi dövrlərdə Azərbaycan bəstəkarlarının yeni opera, balet və simfonik əsərlərinin ilk ifa və tamaşalarında daim iştirak edir, bəstəkar, dirijor və ifaçıların yaradıcılığına böyük dəstək verirdi. Heydər Əliyev sənətdə ruslaşdırma, ayrı-seçkilik və mərkəzçi yanaşmalara qarşı çıxaraq Azərbaycan musiqisinə qarşı ədalətsiz münasibətin aradan qaldırılmasına nail olmuşdur. Üzeyir Hacıbəyov, Qara Qarayev, Fikrət Əmirov və digər sənətkarların əsərlərinə verdiyi yüksək qiymət peşəkar musiqiçilər üçün mühüm stimul idi. Onun təşəbbüsü ilə məmurların musiqi və incəsənətə marağı artırılır, cəmiyyətdə yüksək bədii-estetik zövq formalaşdırılırdı.

Heydər Əliyevin mədəniyyət siyasətinin əsas istiqamətlərindən biri Azərbaycan gənclərinin musiqi-estetik tərbiyəsi və dünya musiqisinə marağının artırılması idi. O, gənclərin təhsilinə xüsusi diqqət yetirir, istedadlı gəncləri daim dəstəkləyirdi. Onun təşəbbüsü ilə televiziya və radioda musiqi-maarifləndirici verilişlər hazırlanır, Azərbaycan Dövlət Filarmoniyasında və Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrında məktəblilər və tələbələr üçün xüsusi konsert və tamaşalar keçirilirdi. "Məktəblilərin musiqi həftəsi", "Məktəbli filarmoniyası" kimi layihələr həyata keçirilir, gənclər arasında müsabiqə və festivallar təşkil olunurdu. Bu siyasət nəticəsində gənclərin musiqi-estetik tərbiyəsi güclənir, milli və dünya musiqisinə maraqları artırdı.

Heydər Əliyev sovet dövründə milli özünüdərkin və milli şüurun qorunmasında mədəniyyət və incəsənəti mühüm vasitə hesab edirdi. Onun təşəbbüsü ilə ədəbiyyat, teatr, musiqi və rəssamlıqda milli mövzulara, tariximizə və tarixi şəxsiyyətlərə daha çox yer verilmiş, xalqın milli ruhunu yaşadan əsərlər yaradılmış və təbliğ olunmuşdur. Üzeyir Hacıbəyovin ev-muzeyinin yaradılması, 18 sentyabrın Milli Musiqi Günü elan olunması, görkəmli bəstəkarların yubileylərinin keçirilməsi və Bakıda tarixi şəxsiyyətlərin heykəllərinin ucaldılması milli yaddaşın qorunmasına xidmət etmişdir. Eyni zamanda Heydər Əliyev musiqini xalqlar arasında dostluq və əməkdaşlıq körpüsü kimi dəyərləndirərək beynəlxalq musiqi əlaqələrinin genişlənməsinə və Azərbaycan musiqisinin dünyada nüfuzunun artmasına nail olmuşdur.

1972-ci ildə Azərbaycan Dövlət Konservatoriyasının 50 illik yubileyi böyük təntənə ilə qeyd olunmuş, Heydər Əliyev konservatoriyanın Azərbaycan musiqisinin inkişafındakı rolunu yüksək qiymətləndirmişdir. Tədbir Azərbaycan musiqi mədəniyyətinin nüfuzunun artmasına mühüm töhfə vermişdir. 1975-ci ildə Üzeyir Hacıbəyovun 90 illik yubileyi SSRİ miqyasında geniş qeyd olunmuş, Moskva və Leninqradda konsertlər təşkil edilmiş, əsərləri nəşr olunmuşdur. Heydər Əliyevin təşəbbüsü ilə Üzeyir Hacıbəyovun ev muzeyi yaradılmış, sonrakı illərdə Bülbül və Niyazinin ev muzeyləri də açılmışdır. Bu addımlar milli musiqi irsinin qorunması və gələcək nəsillərə çatdırılmasında mühüm rol oynamışdır.

Heydər Əliyev daim Azərbaycan Bəstəkarlar İttifaqı ilə sıx əməkdaşlıq etmiş, qurumun plenum və qurultaylarında iştirak edərək musiqi sənətinin inkişafı, gənc kadrların yetişdirilməsi və ifaçılıq məsələlərini mütəmadi müzakirə etmişdir. Onun təşəbbüsləri nəticəsində musiqi kollektivlərinin fəaliyyəti təkmilləşdirilmiş, yubileylər və yaradıcılıq tədbirləri geniş şəkildə təşkil olunmuşdur. 1979-cu ildə Bəstəkarlar İttifaqının qurultayında Heydər Əliyevin çıxışı Azərbaycan musiqi mədəniyyəti üçün mühüm hadisəyə çevrilmiş, o, bəstəkarları milli ənənələrə sadiq qalmağa, müasir mövzulara müraciət etməyə və yaradıcılıqda yenilik axtarışlarını davam etdirməyə çağırmışdır. O, eyni zamanda görkəmli bəstəkarların öz məktəblərinin və davamçılarının olmasının vacibliyini vurğulamışdır.

Heydər Əliyev bəstəkarları qarşılıqlı hörmət, xeyirxahlıq və əməkdaşlıq ruhunda birləşməyə, şəxsi incikliklərı kənara qoyaraq musiqi sənətində monolit və yaradıcı kollektiv formalaşdırmağa çağırdı. O, Q.Qarayev, F.Əmirov, Niyazi kimi müasir Azərbaycan musiqisinin sütunlarını yüksək qiymətləndirərək onların fəaliyyətini dəstəkləməyi və musiqiçilərin yaradıcılıq imkanlarını genişləndirməyi vəd etdi. Heydər Əliyev musiqinin hər yaş və sosial qrupdan insanın həyatında əhəmiyyətini vurğulayaraq bəstəkarları geniş kütlələrin mənəvi və estetik tərbiyəsində musiqinin təsirini gücləndirməyə, yaradıcı fəaliyyətləri ilə Azərbaycan musiqisini daha da inkişaf etdirməyə çağırdı.

Heydər Əliyevin təşəbbüsü ilə 1978-ci ildə Qara Qarayevin 60 illik yubileyi yüksək səviyyədə qeyd olunmuş, Moskvada – Kremlin sütunlu salonunda və Böyük Teatrda onun əsərləri böyük maraqla qarşılanmışdır. Bu tədbirlər Azərbaycan bəstəkarlıq məktəbinin nailiyyətlərini nümayiş etdirmiş və Qarayev Heydər Əliyevin mədəniyyətə dəstəyini yüksək qiymətləndirmişdir.

1970-1980-ci illərdə Azərbaycanda keçirilən konsert və festivallarda SSRİ-nin görkəmli musiqi xadimləri iştirak etmiş, ölkədə musiqiyə göstərilən dövlət qayğısı yüksək dəyərləndirilmişdir. Heydər Əliyev Dmitri Şostakoviç, Dmitri Kabalevski və Tixon Xrennikov kimi sənətkarlarla görüşərək Azərbaycan musiqisi ilə əməkdaşlığın genişlənməsinə çağırış etmişdir.

1980-ci illərin əvvəllərində Qara Qarayev, Fikrət Əmirov, Səid Rüstəmov və Niyazinin vəfatı ümumxalq itkisinə çevrilmiş, Heydər Əliyev onların dəfn mərasimlərində iştirak edərək yaradıcılıqlarını yüksək qiymətləndirmişdir. Ümumilikdə bu faktlar göstərir ki, Heydər Əliyevin siyasəti Azərbaycan musiqi mədəniyyətinin inkişafı, qorunması, təbliği və müasirləşməsi üçün dövlət səviyyəsində ardıcıl və məqsədyönlü şəkildə həyata keçirilmişdir.

***Sevinc Musayeva***
***Naxçıvan Dövlət Universitetinin "Musiqi təlimi" kafedrasının müdiri***



# 2028-ə doğru: Azərbaycanın rəqəmsal suverenlik hədəfləri

Bir zamanlar nağıllarda gördüyümüz “sehrli güzgü”lər, “‘uçan xalça”lar bu gün ovcumuzun içində – smartfonlarımızdadır. Amma bu sehrin arxasında nağıl qəhrəmanları deyil, mürəkkəb alqoritmlər, “süni beyinlər” və “ağıllı gələcək” dayanır. Bəs bu “ağıllı gələcək” bizə nələr vəd edir? İlk öncə bir faktı qeyd edək ki, “Süni intellekt bizim yerimizə keçmək üçün deyil, bizi superinsan etmək üçün yaradılıb”. O, bizim min ilə edə biləcəyimiz kəşfləri bir ömrə sığdırmağımıza kömək edən müasir zamanın sehrli çubuğudur.

Çoxları elə bilir ki, süni intellekt termini yenidir. Lakin “Süni intellekt” (Artificial Intelligence) ifadəsi ilk dəfə **1956-cı ildə** Darmut konfransında Con Makkarti tərəfindən işlədilib. Yəni, bu “gənc” texnologiyanın əslində 70-ə yaxın yaşı vardır.

***Bəs, süni intellektin imkanları nələrə qadirdir?***

Süni intellekt artıq təkcə görmür və eşitmir, həm də “qoxu bilir”. Hazırda bəzi Sİ sistemləri hava tərkibindəki molekulları analiz edərək xərçəng və ya diabet kimi xəstəlikləri insanın nəfəsindən, hətta simptomlar yaranmadan müəyyən edə bilir.

Sİ artıq təkcə hesablama aparmır, həm də rəsm çəkir, musiqi bəstələyir və şeir yazır. Belə ki, 2018-ci ildə süni intellekt tərəfindən çəkilmiş “Edmond de Belaminin portreti” adlı rəsm əsəri hərrac - da 432,500 dollara satıldı. Bu, gözlənilən qiymətdən 45 dəfə baha idi.

Arxeoloqlar min illər əvvəl daşlar üzərində yazılmış, lakin oxuna bilməyən qədim dilləri Sİ-nin köməyi ilə deşifrə edə bilirlər. Məsələn, Mesopotamiyaya aid bəzi akkad mətnləri Sİ vasitəsilə bir neçə saniyəyə tərcümə edilib. Bu, tarixin “səssiz” qalan səhifələrini danışdırmaq deməkdir.

Bir radioloq həyatı boyu minlərlə rentgen şəklinə baxa bilər, lakin Sİ cəmi bir neçə saat ərzində milyonlarla tibbi təsviri analiz edir və ən kiçik patologiyanı belə nəzərdən qaçırmır. Üstəlik, onun nə qəhvə fasiləsinə, nə də yuxuya ehtiyacı var.

Süni intellekt teleskoplardan gələn nəhəng məlumat selini analiz edərək insanların on illərlə tapa bilmədiyi yeni planetləri bir neçə günə aşkar edir. Biz kainatı artıq Sİ-nin “gözləri” ilə kəşf edirik.

Lakin maraqlı və bir qədər narahatlıq doğuran fakt budur ki, ChatGPT-yə verdiyiniz hər 10-50 sual təxminən **yarım litr suyun** buxarlanmasına (serverlərin soyudulması üçün) səbəb olur. Yəni rəqəmsal zəkanın da real təbiətə fiziki təsiri var.

***Süni intellekt Strategiyası Azərbaycana nə vəd edir?***

2025-ci ilin martında imzalanan “Süni İntellekt Strategiyası” ölkəmiz üçün sadəcə bir sənəd deyil, rəqəmsal dünyanın qapısını açan bir açardır. Bəs biz bu qapıdan içəri girməyə nə dərəcədə hazırıq?

Azərbaycanın 2025-2028-ci illəri əhatə edən strategiyası aydın hədəflər qoyur: hər dövlət qurumunda süni intellektə cavabdeh rəhbər müavinləri, superkompüter mərkəzləri və 2026-cı ilədək yaranacaq onlarla yeni startap layihələri. Bu, “rəqəmsal suverenlik” deməkdir,yəni xarici alqoritmlərdən azad texnoloji müstəqillik və daha böyük hədəflər.

Azərbaycanda Sİ-nin inkişafı qarşısında duran əsas maneə texniki infrastrukturdan daha çox “data” (məlumat) azlığıdır. Sİ-nin Azərbaycan dilində mükəmməl danışması üçün milyardlarla cümləlik rəqəmsal bazaya ehtiyac vardır. ChatGPT-nin dilimizdə bəzən “axsaması” məhz bu bazanın azlığından xəbər verir.

Azərbaycanda süni intelleklə bağlı əsas problemlərdən biri də bu sahə üzrə kadr çatışmazlığıdır. Strategiya süni intellekt üzrə gələcək kadr təminatını gələcək hədəflər sırasına daxil edib. Yerli proqramçıların çoxluğu rəqəmsal ordumuzun əsgərlərinin çoxluğu deməkdir. Bu sahə üzrə gələcək vəzifələrdən biri də qanunvericilik bazasının yaradılması və müasir tələbələrə cavab verməsidir.

Həll yolları artıq masadadır. Təhsil sistemində Sİ-nin tədrisi isə gələcəyin “məlumat memarlarını” yetişdirir. Ən maraqlısı isə odur ki, biz Sİ-ni milli dəyərlərimizlə birləşdiririk, məsələn, Nizami Gəncəvi irsinin rəqəmsallaşdırılması kimi layihələr elmimizi dünyaya yeni dildə təqdim etmək məqsədi daşıyır.

Süni intellekt insanı əvəz etmək üçün deyil, insanı gücləndirmək üçün gəlir. Azərbaycan bu qlobal yarışda “start” xəttini artıq keçib. İndi əsas məsələ sürəti artırmaq və bu texnologiyanı milli ruhla, elmi biliklə zənginləşdirməkdir. Unutmayaq ki, ən güclü alqoritm belə insanın xəyal gücü ilə birləşəndə möcüzələr yaratmağa qadirdir.

***Surə Seyid***
***Filologiya üzrə fəlsəfə doktoru, dosent***

# ELM VƏ HUMANİZMİN VƏHDƏTİ

Azərbaycan cəmiyyətinin inkişafında mühüm rol oynamış şəxsiyyətlərin fəaliyyəti müxtəlif istiqamətlərdə özünü göstərir və bu fəaliyyətlər, adətən yalnız bir sahə ilə məhdudlaşmır. Belə görkəmli simalardan biri də Zərifə Əliyevadır. Onun həyat və fəaliyyəti elmi nailiyyətlərlə yanaşı, ictimai məsuliyyət, insanlara göstərilən diqqət və yüksək mənəvi dəyərlərlə seçilir. Bu baxımdan, Zərifə Əliyevanın irsi yalnız tarixi aspektdə deyil, müasir dövrdə də dəyərləndirilməli olan mühüm bir nümunədir.

Zərifə Əliyevanın fəaliyyəti çoxşaxəli xarakter daşıyır. O, bir tərəfdən elm sahəsində mühüm nəticələr əldə etmiş, digər tərəfdən isə cəmiyyətin müxtəlif təbəqələri ilə sıx əlaqə quraraq ictimai həyatın fəal iştirakçısına çevrilmişdir. Onun fəaliyyəti göstərir ki, elmi uğur yalnız fərdi nailiyyət kimi deyil, həm də cəmiyyətin ümumi inkişafına xidmət edən mühüm amil kimi nəzərdən keçirilməlidir. Məhz bu səbəbdən onun adı Azərbaycan ziyalılıq ənənəsi daxilində xüsusi yer tutur.

Müasir dövrdə elmi və ictimai fəaliyyət arasında qarşılıqlı əlaqənin daha da güclənməsi fonunda belə şəxsiyyətlərin irsi xüsusi aktuallıq qazanır. Zərifə Əliyevanın fəaliyyəti bu baxımdan diqqəti cəlb edir, çünki o, əldə etdiyi bilik və təcrübəni yalnız peşəkar sahədə deyil, daha geniş ictimai müstəvidə də tətbiq etmişdir. Onun həyat yolu göstərir ki, insanın cəmiyyətə xidməti yalnız tutduğu vəzifə və ya ixtisas sahəsi ilə deyil, həm də daşıdığı mənəvi mövqe ilə müəyyən olunur.

Belə şəxsiyyətlərin fəaliyyətinin araşdırılması yalnız keçmişə nəzər salmaq məqsədi daşımır. Bu cür tədqiqatlar həm də müasir cəmiyyət üçün mənəvi və intellektual örnəklərin müəyyən olunmasına xidmət edir. Zərifə Əliyevanın fəaliyyəti bu mənada xüsusi maraq doğurur, çünki onun timsalında elmə bağlılıq, insanlara həssas münasibət və ictimai məsuliyyət birbiri ilə üzvi şəkildə birləşir.

Bu məqalənin əsas məqsədi Zərifə Əliyevanın ictimai və elmi fəaliyyətini müasir baxımdan dəyərləndirmək, onun Azərbaycan cəmiyyətinə təsirini və irsinin aktuallığını sistemli şəkildə təqdim etməkdir. Bununla yanaşı, onun həyat və fəaliyyətinin bugünkü nəsil üçün hansı baxımdan əhəmiyyət daşıdığı da ümumi şəkildə nəzərdən keçirilir.

***Zərifə Əliyevanın həyat yolu və çoxşaxəli fəaliyyətinin formalaşması***

Zərifə Əziz qızı Əliyeva 1923-cü ildə Naxçıvan şəhərində anadan olmuşdur. Onun şəxsiyyət kimi formalaşmasında ailə mühiti mühüm rol oynamışdır. Erkən yaşlarından təhsilə və elmə maraq göstərməsi gələcək həyat yolunun müəyyənləşməsində əsas amillərdən biri olmuşdur. O, Azərbaycan Dövlət Tibb İnstitutunda təhsil alaraq həkim ixtisasına yiyələnmiş, sonrakı fəaliyyətini isə elmi və ictimai istiqamətdə davam etdirmişdir.

Onun peşəkar fəaliyyətə başlaması praktik təcrübə ilə müşayiət olunmuşdur. Həkim kimi çalışdığı illərdə qarşılaşdığı problemlər onun elmi maraqlarının formalaşmasına təsir etmişdir. Bu mərhələdə o, müşahidə etdiyi halları ümumiləşdirməyə və onları daha geniş şəkildə araşdırmağa çalışmışdır. Bu yanaşma onun fəaliyyətində nəzəri biliklə praktikanın vəhdətini təmin etmişdir.

Zərifə Əliyevanın fəaliyyətinin mühüm xüsusiyyətlərindən biri onun yalnız ixtisas sahəsi ilə məhdudlaşmamasıdır. O, elmi fəaliyyətlə yanaşı ictimai proseslərdə də fəal iştirak etmiş, insanların rifahı və sosial məsələlərlə bağlı təşəbbüslərdə yer almışdır. Bu baxımdan, onun fəaliyyəti cəmiyyətlə birbaşa əlaqə üzərində qurulmuşdur. 1960–1980-ci illər onun fəaliyyətinin daha məhsuldar dövrü hesab olunur. Bu illərdə o, tədqiqatlarını genişləndirmiş, müxtəlif istiqamətlərdə araşdırmalar aparmış və əldə etdiyi nəticələri praktik müstəviyə yönəltmişdir.

Zərifə Əliyeva, eyni zamanda elmi-pedaqoji fəaliyyətlə məşğul olmuş, gənc mütəxəssislərin hazırlanmasına xüsusi diqqət yetirmişdir. Onun rəhbərliyi ilə yetişən mütəxəssislər sonrakı dövrdə müxtəlif sahələrdə fəaliyyət göstərmişdir. Bu fakt onun yalnız alim kimi deyil, həm də elmi ənənənin formalaşmasında mühüm rol oynadığını göstərir.

Akademik Zərifə Əliyevanın insanlara qarşı həssas münasibəti və ictimai məsuliyyət hissi onu cəmiyyət arasında nüfuzlu şəxsiyyətə çevirmişdir. Bu xüsusiyyətlər onun fəaliyyətinin daha geniş miqyasda dəyərləndirilməsinə səbəb olmuşdur.



Zərifə Əliyevanın həyat yolu göstərir ki, elmi fəaliyyət və ictimai məsuliyyət bir-birini tamamlayan anlayışlardır. Onun fəaliyyəti bu iki istiqamətin vəhdətində formalaşmış və nəticədə cəmiyyət üçün əhəmiyyətli bir irs meydana çıxmışdır. Bu baxımdan, onun həyatı və fəaliyyəti müasir dövrdə də nümunə kimi qiymətləndirilir.

Zərifə Əliyevanın həyat və fəaliyyəti müasir dövrdə yalnız tarixi şəxsiyyətin xatırlanması kimi deyil, həm də çoxşaxəli irsin yenidən dəyərləndirilməsi baxımından əhəmiyyət kəsb edir. Onun keçdiyi həyat yolu göstərir ki, elmi fəaliyyət, mənəvi məsuliyyət və ictimai faydalılıq bir-birindən ayrı anlayışlar deyil, əksinə, bir-birini tamamlayan istiqamətlərdir. Məhz bu vəhdət onun fəaliyyətinə davamlı dəyər qazandırmışdır.

Zərifə Əliyevanın fəaliyyəti yalnız bir peşə sahəsində əldə edilmiş nəticələrlə məhdudlaşmır. O, elmi biliklərin praktik əhəmiyyətini ön plana çıxaran, eyni zamanda ictimai münasibətlərdə yüksək insani keyfiyyətləri ilə seçilən ziyalı nümunəsi kimi yadda qalmışdır. Onun irsinin dəyəri həm konkret elmi nəticələrdə, həm də cəmiyyətə münasibətində, insan amilinə verdiyi önəmdə və peşə məsuliyyətinə yanaşmasında özünü göstərir.

Müasir baxımdan yanaşdıqda, Zərifə Əliyevanın fəaliyyəti Azərbaycan cəmiyyətində elmə, maarifçiliyə və ictimai məsuliyyətə verilən dəyərin ifadəsi kimi görünür. Onun irsi bu gün də yalnız keçmişin bir hissəsi kimi deyil, mənəvi və intellektual örnək kimi qəbul edilir. Bu səbəbdən Zərifə Əliyevanın ictimai və elmi fəaliyyətinin öyrənilməsi həm tarixi yaddaşın qorunmasına, həm də müasir nəslin dəyərlər sisteminin formalaşmasına xidmət edir.

***Güldanə Haqverdiyeva***
***Texnologiya müəllimliyi ixtisasının II kurs tələbəsi***

# Çanaqqala zəfəri - türk xalqının şərəf tarixi

Çanaqqala döyüşlərindən 111 il ötür. Birinci Dünya müharibəsi zamanı, yəni 1915-1916-cı illərdə Osmanlı dövləti ilə Antanta dövlətləri arasında baş vermiş dəniz və quru döyüşüdür. İttifaq dövlətləri Osmanlı dövlətinin paytaxtı İstanbulu almaq məqsədilə boğazlara nəzarəti ələ keçirmək, Rusiya ilə etibarlı ticarət yolu açmaq, Almaniyanın müttəfiqlərindən birini zəiflətmək məqsədləri ilə ilk hədəf olaraq Çanaqqala boğazına girmiş, ancaq hücumları müvəffəqiyyətsiz olmuş və iki tərəf də çox ağır itkilər vermişdir. 1915-ci il martın 18-dən 1916-cı il yanvarın 9-dək olan dövrdə baş verən bu döyüşün Türkiyə tarixi üçün çox böyük əhəmiyyəti var idi.

Osmanlı dövlətinə məxsus boğazlar strateji baxımdan Antanta dövlətləri üçün ən əlverişli şans sayılırdı. Boğazları tutmaqla onların məqsədi Almaniya ilə Osmanlı Türkiyəsini bir-birindən təcrid etmək və İstanbulu ələ keçirməklə Osmanlı Türkiyəsinin Qara dənizdə hökmranlığına birdəfəlik son qoymaq idi.

İstanbulu ələ keçirməyin ən real qapısı olan Çanaqqala boğazının təhlükəsizliyi hələ 1914-ci ilin avqustundan nəzarətə götürülmüşdü. 1914-cü il noyabrın 3-də ingilis və fransız qüvvələri boğazın ağzına doğru yaxınlaşdılar. İngilislər Seddülbahir və Ərtoğrul qalalarını, fransızlar da Anadolu yaxtasında Qumqala və Orhaniyə qalalarını topa tutdular. İngilis sualtı qayıqları dekabrın 2-də boğaza girdi və 750 metr irəlidə yerləşən "Mesudiye" zirehli gəmisinə mərmi ataraq gəmini batırdı. Bu iddialarla İngiltərə 1915-ci il yanvarın 28-də Osmanlı dövləti ilə döyüş qərarı verdi və bu qərara Fransa da qoşuldu. Fevralın 19-da düşmən döyüş gəmiləri amansız bombardmanla xeyli irəlilədi. Martın 18-də ingilis-fransız gəmiləri şiddətli atəşə başladılar. Mecidiyyə və Hamidiyyə istehkamları ardıcıl atəşə tutuldu.

Dünyanın böyük bir ərazisini ədalətlə idarə edən Osmanlı dövlətinin tənəzzülündən yararlanmağa çalışan Avropa dövlətlərinin məqsədi Türkiyəni İstanbuldan vurub çıxarmaq, ümumilikdə, Anadolu ərazisini türk etnonimindən təmizləmək idi. Lakin azlıqda və çətinlikdə qalmasına baxmayaraq türk xalqı bu döyüşdən alnıaçıq və şərəflə çıxa bildi. Daha doğrusu xeyli əraziləri əldən getmiş Osmanlının bu sonuncu ümid torpaqları uğrunda türk xalqı əzmkar mübarizəyə qalxdı və düşmənləri geri oturtmağı bacardı.

Bu dövrdə Mustafa Kamal Paşaya Anafartalar cəbhəsində ordu qruplarından birinə rəhbərlik etmək tapşırılmışdı. Həmin dövrdə cəbhədə vəziyyət ağır olaraq qalırdı. Lakin düşmən Osmanlı əsgərlərinin müqavimətini qıraraq İstanbulu və boğazları tutmaq niyyətini həyata keçirə bilmədi. Qumqala, Beşike, Bolayır, Seddülbahir, Anbumu, Qabatəpə, Conkbayır və Anafartalarda gedən döyüşlərdə hər iki tərəf çoxlu sayda itkilər verdi. Dənizdən hücumla Çanaqqalanı ələ keçirə bilməyəcəyini anlayan düşmən taktikanı dəyişərək Mustafa Kamal Paşanın dediyi kimi, Seddülbahirdən quruya qoşun çıxarmağa başlayır.

1915-ci il aprelin 25-də adıçəkilən istiqamətdə quruya çıxarılan ingilis-fransız əsgərləri ilə Osmanlı ordusu arasında o dövrün ən qanlı döyüşləri başlayır. Başdan-ayağa qədər silahlanan çoxsaylı düşmən qarşısında Osmanlı əsgərlərinin sayı olduqca az idi. Bu zaman Mustafa Kamal Qocaçiməndə, Conkbayırda döyüşürdü. Ağır döyüşlər gedərkən əsgərlərin mərmilərinin bitdiyini görən Mustafa Kamal onlara süngülərini tüfənglərinə keçirməyi əmr etdi və "Mən sizə ölməyi əmr edirəm. Biz öldükdən sonra yerimizə digər qüvvələr, başqa komandanlar keçəcək", - deyə bildirdi. Bu, bəlkə də tarix boyu görünmüş ən böyük sınaq və şərəf döyüşü oldu. Şəhid olan əsgərlərin yeri həmin an doldurulurdu. Tezliklə dekabrın 20-də Anafartalar və Arıburnu cəbhəsi, 1916-cı il yanvarın 8-9-da Seddülbahir düşmənlərdən azad edildi. Beləliklə, düşmənin birləşmiş qüvvələri geri çəkilmək məcburiyyətində qalaraq döyüş məkanını tərk etdi.

Ümumiyyətlə, 1914-cü ildə başlanan bu ağır savaşın ilk bir saatı olduqca dəhşətli keçmişdi. Topçuların açdıqları atəş düşmənin "Agamenon" gəmisinin gövdəsini parçalamış, "İnfexible" gəmisinin komanda məntəqəsini dağıtmışdı. Düşmən gəmiləri Çanaqqalaya 7 kilometrə qədər yaxınlaşa bilmişdi. Lakin türk əsgərlərinin mətinliyini və əzmkarlığını, eləcə də döyüşün arzuedilən səviyyədə getmədiyini görən Robeck fransız gəmilərini döyüş meydanından uzaqlaşdıraraq, ingilislərin daha bir neçə gəmisini boğaza yeritmişdi. Buna baxmayaraq, düşmən xayin niyyətinə nail ola bilmədi. Türk topçularının açdıqları sərrast atəş nəticəsində Fransanın zədələnən "Gaulois" zirehli gəmisi döyüş meydanını tərk etdi. Onun ardınca zədələnən "Bouvet" gəmisi də döyüş meydanından uzaqlaşmaq istərkən mina ilə toqquşaraq partlamış, nəticədə gəmidə olan 639 hərbiçi suya qərq olmuşdu.

"Bouvet"in yardımına gələn və onu xilas etmək istəyən "Suffren" və "Gaulois" gəmiləri də minaya düşərək batmışdı. Beləliklə, 6 saat ərzində müttəfiqlər 3 böyük zirehli gəmisini itirmiş, bir o qədər də gəmi zədələnmişdi. Bunu görən Robeck donanmaya geri çəkilmək əmri vermiş, bu döyüşlərdə düşmən tamamilə sarsılmış və bir daha dənizdən İstanbulu ələ keçirmək mümkün olmamışdır. Bu, Osmanlı əsgərlərinin Çanaqqala döyüşündə düşmən üzərində qazandıqları ən böyük tarixi zəfər idi.

Çanaqqala döyüşü həm də gələcək qurtuluş savaşının şərəfli başlanğıcı oldu. Dəniz və quru qoşunlarını əhatə edən və bütün çətinliklərə baxmayaraq, türk hərb tarixinin şərəfli səhifələrindən birinə çevrilən Çanaqqala döyüşü Atatürk kimi bir dahini yetişdirmiş, gələcək qurtuluş savaşında onun liderliyinə əsas zəmin olmuşdur. Hər biri ayrı-ayrılıqda qəhrəmanlıq nümunəsi sayılan döyüşlərdə itirilən insanların sayına və sosial mənşəyinə nəzər salanda mübarizənin bir ümumxalq mübarizəsi olduğuna heç bir şübhə qalmır. Bu döyüşdə əhalinin bütün təbəqələri iştirak edirdilər. Çoxlu sayda ziyalı həm vuruşur, həm də əsl vətənpərvərlik təbliğatını aparırdı. Bu da təbii ki, texniki imkanlar baxımından avropalılardan xeyli dərəcədə geridə olan türk ordusunun mənəvi qüdrətini və döyüş ruhunu nəzərəçarpacaq dərəcədə artırırdı. Türklər döyüşdə elə vuruşurdular ki, sanki gələcəyin mübarizəsi gedirdi. Pis silahlanmış, lakin son dərəcə döyüşkən və əzmkar olan türklərin o dövrün ən son hərbi nailiyyətlərindən istifadə edən avropalıları geri oturtması onların mərdlik və cəsurluğunun parlaq nümunəsi kimi qiymətləndirilməlidir.

Bundan əlavə, illər ötəndən sonra Çanaqqala döyüşü bir dastana çevrilmişdir. Bu dastandakı qəhrəmanlardan biri də yanındakı topçuların hamısı şəhid olaraq tək qalan Seyid çavuşdur. Düşmən gəmisi boğaza yaxınlaşırdı. Gəmi boğaza girsə, Anadolunun taleyi həll olunacaq və düşmən İstanbulu işğal edəcəkdi. Seyid çavuş (qoca seyid) isə tək idi. Atmağa 276 kiloqramlıq bir top mərmisi qalmışdı. Adi vəziyyətdə bu mərmini bir nəfərin götürüb topun lüləsinə qoyması ağlabatan görünmürdü. Amma Seyid çavuş özü də inanmur ki, haradan ona güc gəlir ki, o, 276 kiloqramlıq mərmini bir anda götürərək topa qoyur və atəş açır. Bu atəşlə o, gəminin gövdəsini dağıdır və onu batırır. Beləliklə, Seyid çavuşun bu qəhrəmanlığı düşmənin geri çəkilərək qaçmasına səbəb olur. Bir sözlə, bir mərmi, bir nəfər topçu Çanaqqala döyüşünün taleyində çox mühüm və əhəmiyyətli rol oynayır.

Bu döyüşdə Osmanlı Türkiyəsi 253 min şəhid verdi. Çanaqqala döyüşündə 3 minə yaxın azərbaycanlı da şəhid olub.

Döyüşdə əsas canlı qüvvə və texnika ilə iştirak edən ingilislər 205 min, fransızlar isə 47 min itki verdilər. Ümumilikdə düşmən tərəf 300 minə yaxın canlı qüvvəsini itirdi və bundan əlavə onların çoxlu sayda hərbi-texniki qüvvələri məhv edildi.

Çanaqqalada türk əsgərlərinin göstərdiyi mətinlik və cəsarət düşmən generallarını və siyasi xadimlərini belə heyrətə gətirmişdi. İngiltərənin baş naziri Uinston Çörçill "Türklər Çanaqqalada ən müasir silahlarla silahlanmış güclər qarşısında bir qala kimi dayanmışdılar", ingilis generalı Oqlander isə "Türk əsgərlərinin döyüşdə göstərdikləri igidliklərin nəzərə alınmaması ingilislər üçün fəlakət oldu" demişdilər.

Bir millətin gücünü ortaya çıxararaq nələr edə biləcəyini göstərən bu şərəfli döyüş, yəni Türkiyə Cümhuriyyəti qurulduqdan sonra ingilis və fransız donanmalarının geri çəkilməyə məcbur edildiyi o tarixi gün, yəni 18 mart - Çanaqqala Şəhidlərini Anma Günü olaraq elan edilmişdir. Müttəfiqlər üçün isə bu döyüş əsgəri bacarıqsızlıq və fəlakət simvolu olaraq sayılmışdır. Bununla yanaşı, Çanaqqala döyüşü məhv olma vəziyyətindəki bir ölkənin möhtəşəm qələbəsi kimi artıq hər bir türk vətəndaşının mübarizliyinin simvolu kimi əbədiləşmişdir.

*Xəzər Hüseynov*
*Tarix elmləri doktoru, professor*

# Qazaxıstanda keçirilən təhsil sərgisində yaddaqalan təqdimat

Naxçıvan Dövlət Universiteti təkcə ölkə daxilində deyil, həmçinin beynəlxalq arenalarda sözünü deyə bilən, fəallığı və təşəbbüsləri ilə seçilən ali təhsil müəssisələrindən biridir. Ötən günlərdə Qazaxıstanın Əl-Fərabi adına Qazax Milli Universitetində keçirilən "Study in Azeribaijan" təhsil sərgisində Naxçıvan Dövlət Universiteti geniş təqdimatı ilə diqqət mərkəzində olub.

NDU-nun rektoru Elbrus İsayevin rəhbərlik etdiyi nümayəndə heyəti sərginin açılış mərasimində iştirak edərək universiteti beynəlxalq platformada layiqincə təmsil edib.



Beləki, elm sərgisi olmasına baxmayaraq NDU kollektivi elm və mədəniyyətin vəhdət təşkil etdiyini əyani şəkildə göstəriblər. Universitetin İncəsənət fakültəsinin əməkdaşları bir-birindən maraqlı çıxışları ilə izləyicilərin yaddaşında yer etməyi bacarıblar. Səhnədə "Turacı", "Naz eləmə", "Koroğlu" operasından "Cəngi" rəqsləri, əməkdar artistlərimiz Zülfiqar Mahmudovun ifasında "Ana yurdum", Mübariz Əsgərov ifasında isə "Arşın mal alan" operasından Əsgərin mahnısı xüsusi rəğbətlə qarşılanıb. NDU kollektivinin səsləndirdiyi "Türküstan" mahnısı isə beynəlxalq arenada təmsil olunan bütün türk dünyasını canlandırmağı bacarıb.

Bununla da NDU-nun illərlə formalaşan akademik gücü ilə yanaşı, zəngin mənəvi dünyası da öz sözünü deyib.

Səfər çərçivəsində NDU nümayəndə heyəti akademik əməkdaşlığın genişləndirilməsi istiqamətində də mühüm addımlar atıb. Belə ki, səfərin birinci günündə Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev Qazaxıstan və Azərbaycan Respublikasında fəaliyyət göstərən ali təhsil müəssisələrinin II Rektorlar Forumunda iştirak edərək Qazaxıstanın bir sıra nüfuzlu universitetləri ilə əməkdaşlıq memorandumları imzalayıb. Ualikhanov Universiteti, Cənubi Qazaxıstan Tibb Akademiyası, Almatı Menecment Universiteti, Yessenov Universiteti, Sarsen Amanjolov adına Şərqi Qazaxıstan Universiteti, Qazaxıstan Tibb Universiteti KSPH ilə imzalanan memorandumlar akademik mübadilə, birgə elmi fəaliyyət və ikili diplom proqramlarının həyata keçirilməsi üçün yeni imkanlar yaradır. Gün ərzində Naxçıvan Dövlət Universitetinin rektoru ilə IAAR - Beynəlxalq Akkreditasiya Şirkəti arasında da görüş baş tutub. NDU-nun tədrisi ingilis dilində olan üç təhsil proqramının beynəlxalq akkreditasiyasına dair yekun razılığa gəlinib.

Sərginin rəsmi açılış mərasimi Azərbaycan və Qazaxıstanın elm və təhsil nazirlərinin, eləcə də ali təhsil müəssisələrinin rəhbər şəxslərinin iştirakı ilə baş tutub və tədbir simvolik lent kəsimi ilə açıq elan edilib.

Səfərin ikinci günündə Qazaxıstanın ali təhsil müəssisələrinə və məktəb şagirdlərinə Azərbaycan universitetlərində təhsil imkanları barədə geniş məlumat verilib. NDU-nun stendində universitetin ixtisasları, təhsil proqramları, əcnəbi tələbələr üçün yaradılmış şərait, akademik mobillik və ikili diplom imkanları ətraflı şəkildə təqdim olunub. Bununla yanaşı, stenddə NDU-nun loqosunu daşıyan promomateriallar, broşurlar, çap versiyada məlumatlar, eyni zamanda tanıtım filmi də yer alıb. Əcnəbi tələbələr üçün QR kodlarla müxtəlif dillərdə süni intellekt vasitəsilə sual-cavab və məlumat imkanları təqdim edilib. Qonaqlara rus və ingilis dilində universitetin əməkdaşları tərəfindən şifahi təqdimatlar edilib. Stenddə, həmçinin Naxçıvan duzundan hazırlanmış suvenir və müxtəlif əl işləri də sərgilənib.

Azərbaycan Respublikasının elm və təhsil naziri Emin Əmrullayev də NDU-nun stendi ilə tanış olaraq universitetin fəaliyyəti və beynəlxalq əlaqələri barədə təqdimatı dinləyib.

Sərginin son günündə də tədbir uğurla davam etdirilib. Sərgi zamanı təşkil olunan lotereya oyununun nəticəsinə əsasən, üç qazaxıstanlı şagird Naxçıvan Dövlət Universitetində təqaüdlə təhsil almaq imkanı qazanıb. Seçilən şagirdlər qəbul olunduqları təqdirdə universitetdə təqaüdlə təhsil alacaqlar.

Günün sonunda universitetin yaradıcı kollektivləri tərəfindən təqdim olunan musiqi nömrələri tədbirə xüsusi rəng qatıb və sərgi yüksək səviyyədə yekunlaşıb.

Məlumat üçün qeyd etmək istərdim ki, NDU kollektivi üçün bu çıxış ilk təcrübə deyil. Universitet əməkdaşları bundan əvvəl də Fransa, Türkiyə, İordaniyada və digər ölkələrdə keçirilən beynəlxalq tədbirlərdə uğurla çıxış edərək zəngin təqdimat təcrübəsi formalaşdırıb.

Beləliklə, "Study in Azerbaijan" sərgisi Naxçıvan Dövlət Universiteti üçün növbəti beynəlxalq uğur səhifəsinə çevrilib. Bu təqdimat bir daha sübut etdi ki, NDU yalnız bilik verən bir məkan deyil — həm də mədəni mühit formalaşdıran, dəyərləri yaşadan və onları dünyaya təqdim etməyi bacaran bir ocaqdır.

*Badəm Əliyeva*
*Media və ictimaiyyətlə əlaqələr şöbəsinin əməkdaşı*

# Parta arxasında təhlükə: Məktəblərdə artan aqressiya

Son dövrlərdə məktəblərdə baş verən hadisələr cəmiyyətdə ciddi narahatlıq doğurur və geniş müzakirələrə səbəb olur. Təhsil ocağı kimi qəbul olunan məktəblərin təhlükəsizliyi və burada formalaşan mühit artıq daha çox diqqət mərkəzindədir. Xüsusilə yeniyetmələr arasında aqressiya hallarının artması, valideyn-məktəb münasibətləri və psixoloji dəstəyin rolu aktual mövzulardan birinə çevrilib. Bu problemlərin səbəbləri və mümkün həll yolları ilə bağlı suallar ictimaiyyəti düşündürməkdə davam edir. Mövzunun aktuallığını nəzərə alaraq bu sahədəki mövcud vəziyyəti və çıxış yollarını müzakirə etmək üçün NDU-nun müəllimi, jurnalist və psixoloq Səadət Əliyevaya müraciət etdik.

***Səadət xanım, son vaxtlar məktəblərdə baş verən hadisələrə bir ziyalı kimi mövqeyinizi bilmək istərdik.***

- Artıq bir müddətdir ki, məktəblərdə baş verən anormal hadisələr xəbər saytlarının manşetinə çevrilib. İctimaiyyət nümayəndələri bu hadisələrin səbəblərini araşdırmağa çalışır. Baş verənlər cəmiyyətin hər bir üzvündə təəssüf hissi doğurur. Çünki vəhşət xarakterli hadisələrin artıq məktəb mühitinə qədər gəlib çatması hər kəsi bu məsələ üzərində düşünməyə vadar edir. Şagirdlərin niyə bu qədər aqressiv formalaşması isə getdikcə cəmiyyətin ən ağrılı problemlərindən birinə çevrilir.

Biz hər zaman məktəbi təhsil və tərbiyə ocağı kimi qəbul etmişik və bu gün əldə etdiklərimizdə məktəbin rolu danılmazdır. Məktəb şagirdlərin şəxsiyyət kimi formalaşmasında, onların vətəndaş kimi yetişməsində mühüm rol oynayır. Şagird evdə aldığı ilkin tərbiyəni məktəb mühitində inkişaf etdirir və onun şəxsiyyət kimi formalaşmasının təməli məhz burada qoyulur.

Lakin bu gün ümumi mənzərəyə baxdıqda bəzi məktəblərin bu əsas missiyadan uzaqlaşdığını müşahidə edirik. Müasir təhsil sistemində mövcud olan boşluqlar şagirdlərin həm dərsə münasibətində, həm də intizamında problemlərə səbəb olur. Bu boşluqlar daha çox nizam-intizamın düzgün formalaşdırılmaması və şagirdlərdə məsuliyyət hissinin kifayət qədər inkişaf etməməsi ilə bağlıdır. Nəticədə yeniyetmələrdə aqressiv davranışlar müşahidə olunur ki, bu da cəmiyyət üçün narahatedici amilə çevrilir.

***Sizcə, məktəblər şagirdlər üçün nə dərəcədə təhlükəsiz məkandır?***

- Əslində məktəblər şagirdlər və onların valideynləri üçün təhlükəsiz və etibarlı məkan olmalıdır. Bu, dəyişməz bir prinsipdir. Valideyn övladını məktəbə göndərərkən əmin olur ki, onun təhlükəsizliyi təmin ediləcək və o, müəllim nəzarəti altında olacaq.

İbtidai siniflərdə bu nəzarət və qayğı daha aydın hiss olunur. Lakin yuxarı siniflərə keçdikcə, xüsusilə yeniyetməlik dövründə müəyyən problemlər ortaya çıxır. Bu mərhələdə şagirdlər özlərini daha müstəqil hesab edir, böyükləri təqlid etməyə çalışır və bəzən davranışlarına nəzarət etməkdə çətinlik çəkirlər.

Təəssüf ki, bəzi hallarda məktəbdə şagirdlərin bir-birinə və ya müəllimlərə qarşı aqressiv davranışları, hətta təhlükəli insidentlər müşahidə olunur. Bu isə məktəbin təhlükəsiz mühit statusunu sual altına qoyur və cəmiyyət üçün ciddi narahatlıq yaradır.

***Problemlərin baş verməsində valideynlərin rolunu necə qiymətləndirərdiniz?***

- Hesab edirəm ki, bu problemlərin əsas yükü müəyyən mənada valideynlərin üzərinə düşür. Valideynlərin rolu burada olduqca böyükdür. Bəzi valideynlər övladını məktəbə göndərməklə məsuliyyətlərinin böyük hissəsini yerinə yetirdiklərini düşünürlər. Halbuki təhsil prosesi valideyn, müəllim və şagirdin birgə əməkdaşlığı nəticəsində uğurlu olur.

Bu "üçbucaq modeli" yalnız o zaman effektiv işləyir ki, hər bir tərəf öz məsuliyyətini dərk etsin. Valideyn övladını yaxından tanımalı, onun davranışlarına və psixoloji vəziyyətinə diqqət yetirməlidir.

Təəssüf hissi ilə qeyd etmək lazımdır ki, son dövrlərdə müəllim nüfuzu da müəyyən qədər zəifləyib. Şagirdin etdiyi səhvlərə müəllimin adekvat reaksiya verməsi bəzən yanlış anlaşılır. Bu isə şagirdlərdə arxayınlıq yaradır. Halbuki uşaqlarda erkən yaşlardan məsuliyyət hissi və davranış mədəniyyəti formalaşdırılmalıdır. Verilən sərbəstliyin də müəyyən sərhədləri olmalıdır.

***Yeniyetmələrdə müşahidə olunan aqressivliyin əsas səbəbi sizcə nədir?***

- Yeniyetmələrdə aqressiyanın artmasının bir neçə səbəbi var. Bunlara psixoloji, sosial və həyat tərzi ilə bağlı amillər daxildir. Müasir dövrdə texnologiyalardan həddindən artıq istifadə, sosial şəbəkələrə bağlılıq və fiziki aktivliyin azalması da bu prosesə təsir göstərir.

Lakin əsas səbəblərdən biri yeniyetmələrin özlərini ifadə etməkdə çətinlik çəkməsidir. Onlar problemlərini valideyn və ya müəllimlə bölüşə bilmədikdə daxili gərginlik aqressiya kimi üzə çıxır.

Hər bir yeniyetmənin həyatında onu anlayan, dinləyən və dəstək olan bir insanın olması vacibdir. Əks halda, o bu dəstəyi başqa mühitlərdə axtarmağa başlayır ki, bu da mənfi nəticələrə səbəb ola bilir.

***Bir jurnalistika mütəxəssisi kimi bu problemlərdə medianın rolunu necə qiymətləndirərdiniz?***

Müasir dövrdə sosial şəbəkələrin təsiri danılmazdır. Zorakılıq xarakterli xəbərlərin geniş yayılması bəzi yeniyetmələrdə bu davranışların təqlid olunmasına səbəb ola bilər. Bu baxımdan medianın məsuliyyəti olduqca böyükdür.



İnformasiyanın yayılması ilə yanaşı, onun auditoriyaya təsiri də nəzərə alınmalıdır. Çünki yayılan hər bir məlumat insanların şüuraltına müəyyən təsir göstərir. Bu səbəbdən jurnalistlər paylaşdıqları xəbərlərdə etik prinsiplərə riayət etməli və auditoriyanın xüsusiyyətlərini nəzərə almalıdırlar.

***Məktəblərdə fəaliyyət göstərən psixoloqların rolu kifayət qədər hiss olunur, yoxsa formal xarakter daşıyır?***

Bu gün əksər məktəblərdə psixoloqlar fəaliyyət göstərir. Lakin onların işi hər zaman eyni səviyyədə effektiv olmur. Bəzi hallarda bu fəaliyyət formal xarakter daşıyır, digərlərində isə peşəkar yanaşma açıq şəkildə hiss olunur.

Əslində psixoloqların rolu son dərəcə vacibdir. Onlar şagirdlərin psixoloji vəziyyətini izləməli, problemləri vaxtında müəyyən etməli və müdaxilə etməlidirlər. Müəllimlərlə əməkdaşlıq da bu prosesdə mühüm rol oynayır.

Peşəkar psixoloq şagirdlə düzgün ünsiyyət qurmalı və onun etimadını qazanmalıdır. Şagird özünü güvənli hiss etdikdə problemlərini daha rahat şəkildə bölüşə bilir.

***Problemlər və onların səbəbləri barədə danışdıq. Son olaraq problemlərin qarşısını almaq üçün sizin tövsiyəniz nə ola bilər?***

- Bu problemlərin həlli üçün ilk növbədə valideyn-övlad münasibətləri gücləndirilməlidir. Valideyn övladı ilə açıq ünsiyyət qurmalı, onu dinləməli və həyatında aktiv rol oynamalıdır.

Eyni zamanda məktəblə valideyn arasında daimi əlaqə olmalıdır. Şagirdin davranışında hər hansı dəyişiklik hiss edildikdə vaxtında müdaxilə olunmalıdır.

Digər mühüm məsələ müəllim nüfuzunun bərpasıdır. Müəllim yalnız bilik verən şəxs deyil, həm də tərbiyəçi və istiqamətverici rolunu daşıyır. Onun cəmiyyətdəki mövqeyi gücləndirilməlidir.

Nəticə olaraq qeyd etmək olar ki, bu problem təkcə məktəbin deyil, bütövlükdə cəmiyyətin problemidir. Onun həlli üçün bütün tərəflərin birgə və məsuliyyətli fəaliyyəti vacibdir.

*Gülay Yalçınqızı*
*Jurnalistika ixtisası üzrə*
*I kurs tələbəsi*

# ŞOR TÜRKLƏRİ — UNUDULAN SƏSSİZ BİR XALQIN HEKAYƏSİ



Bəzən tarix ən çox səsi çıxanı deyil, səssiz qalanları unudur. Dünyanın bir küncündə – Sibir torpaqlarında yaşayan Şor türkləri də məhz belə taleyi yaşayan xalqlardandır. Onlar çox danışılmır, çox yazılmır, amma varlıqları zamanın içində inadla dayanır.

Şorlar, əsasən, Kemerovo vilayəti ərazisində yaşayırlar. Sayları çox deyil, lakin kimlikləri dərin və köklüdür. Onların dili türk dilləri ailəsinə aiddir. Bu dil sadəcə ünsiyyət vasitəsi deyil, həm də yaddaşdır – keçmişin səsi, ataların izi kimi. Hər söz bir iz, hər ifadə isə unudulmamaq üçün verilən səssiz bir mübarizədir.

Onların həyatı uzun illər təbiətlə içiçə keçib. Meşə, çay, dağ – bunlar Şorların sadəcə yaşadığı yer yox, həm də ruhudur. Onlar təbiəti yalnız istifadə etməyib, onunla uyğun yaşamağı öyrəniblər. Balıqçılıq, ovçuluq və sadə həyat tərzi onların düşüncə formasını formalaşdırıb. Bu həyat tərzi insanı yormur, əksinə, onu özünə qaytarır. Sanki Şorların dünyasında zaman tələsmir, həyat isə yarış deyil.

Amma müasir dünya heç kimi gözləmir. Sürət artdıqca, köklər zəifləyir. Şor türkləri də bu dəyişimin ortasında qalıb. Assimilyasiya, dilin unudulması və mədəniyyətin itməsi təhlükəsi onların gündəlik reallığına çevrilib. Gənclər şəhərlərə üz tutur, yeni həyat axtarır, amma çox vaxt bu axtarış onların kimliyindən uzaqlaşması ilə nəticələnir.

Bu səssiz hekayəni daha dərindən anlamaq üçün rəqəmlər də danışır: Şor türklərinin ümumi sayı təxminən 12–13 min nəfərdir, lakin onların yalnız 2–3 minə qədəri ana dilində sərbəst danışa bilir. Əhalinin böyük hissəsi, yəni 70 faizdən çoxu artıq şəhər həyatına keçib və bu da ənənəvi həyat tərzinin zəifləməsinə səbəb olub. Xüsusilə gənclər arasında vəziyyət daha kəskindir – bəzi bölgələrdə Şor dilini bilənlərin faizi 10 faizdən belə aşağı düşüb. Son yüz ildə isə ana dilindən gündəlik istifadə edənlərin sayı sürətlə azalıb və bu azalma hələ də davam edir. Bu isə o deməkdir ki, bir xalqın yaddaşı yavaş-yavaş səssizliyə qarışır.

Bir dili itirmək sadəcə sözləri itirmək deyil. Bu, dünyaya baxışın, düşüncə tərzinin, hiss etmə formasının yox olması deməkdir. Şor türkləri ilə birlikdə təbiətə daha yaxın bir həyat anlayışı, daha sadə və daha səmimi bir dünya da yavaş-yavaş yoxa çıxır.

Bəlkə də ən acısı budur: bir xalqın yox olması qışqırıqla deyil, səssizliklə baş verir. Onlar yox olmur, sadəcə unudulurlar və unudulmaq bəzən yox olmaqdan daha ağırdır.

Şor türkləri bizə bir həqiqəti xatırladır – millət yalnız sayla ölçülmür. Bəzən azlıq olmaq yox olmaq demək deyil, amma unutmaq… artıq yox olmaqdır. İnsan kökünü unutduğu anda, harada yaşamasından asılı olmayaraq bir hissəsini itirmiş olur.

Və zaman axmağa davam edir. Kimi xalqlar bu axında iz qoyur, kimi xalqlar isə sadəcə axının içində itir. Bəziləri tarix yazır, bəziləri isə tarixdə səssizcə silinir.

Şorlar isə hələ də dayanır…
Sakit, səssiz, amma dirənişli.
Amma sual hələ də açıq qalır:
bu səssizlik nə vaxta qədər davam edəcək?

*Onur Cəbrayılov*
*Jurnalistika ixtisası üzrə*
*I kurs tələbəsi*

# NDU-da auditoriyadan kənar tələbə həyatı

Universitet deyiləndə ilk olaraq dərslər, imtahanlar, auditoriyalar yada düşür. Universitet həyatı sadəcə bunlarla məhdudlaşmır, bəzən yeni tanışlıqların, dostluqların, tədbirlərin, konsertlərin, universi-



tet bufetində içilən çayların, kitabxanada keçən saatların xatirəsi ömür boyu bizimlə qalır. Universitet insanın öz potensialını kəşf etdiyi, gələcəyini formalaşdırdığı və həyatın müxtəlif sahələrinə hazırlandığı çoxşaxəli inkişaf mərhələsi, bir sözlə, həyat məktəbidir. Ali təhsil ocaqları sadəcə auditoriyaları ilə deyil, həm də auditoriyadan kənarda görülən işləri ilə dəyər qazanır. Bu baxımdan Naxçıvan Dövlət Universitetində, xüsusilə, son illərdə görülən işlər böyük əhəmiyyət daşıyır.

Nə xoş ki, bu universitetin tələbələri gələcək üçün unudulmaz xatirələr toplayırlar.

Gəlin etiraf edək ki, bu gün bir çox tədbirlərə insanlar könül - süz gedirlər, amma mən dəfələrlə Naxçıvan Dövlət Universitetinin təşkilatçılığı ilə keçirilən tədbirlərdə iştirak üçün hətta göz yaşı tökən tələbələrlə rastlaşmışam. Məsələn, İlber Ortaylı ilə görüş... Türk dünyasının böyük aliminin bizim məmləkətimizə, bizim universitetimizə gəlməsi, onu canlı-canlı dinləyə bilmək, həqiqətən də, böyük şans idi. O anlarda zalda əyləşən insanlar saata baxmağı, qapıya tərəf dönməyi unutmuşdular.

Türk dünyasının "Nobel" mükafatçısı Aziz Sancar, dünya şöhrətli macar yazıçı Şandor Lejak, tanınmış astrofizik-alim Umut Yıldız, TÜRKSOY-un baş katibi Sultan Raev, Xalq yazıçısı Kamal Abdulla, Rafiq Əliyev, Mənsum İbrahimov, bədii yaradıcılıq müsabiqə-festivalı çərçivəsində ustad dərsləri keçən tanınmış sənətkarlar, respublikanın xalq artistləri və daha kimlər, kimlər... Bu görüşlərin hər biri tələbələrin yaddaşına ömürlük həkk olunur.

2021-ci ildə Naxçıvan Dövlət Universitetinin Simfonik Orkestri yaradılıb. Simfonik Orkestr Naxçıvan MR-də, həm də muxtar respublikadan kənarda, o cümlədən Müslüm Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasında, Ümumilli Lider Heydər Əliyevin 100 illiyi münasibətilə təşkil olunmuş tədbirdə, 15 İyun – Milli Qurtuluş Gününə həsr olunmuş "Azərbaycan film musiqilərindən ibarət" konsertdə və s. bu kimi bir çox dövlət əhəmiyyətli tədbirlərdə yüksək səviyyədə çıxış edib. Auditoriyalarda elm öyrənən tələbələr bu konsertlərdə ruhlarını dincəltmək imkanı əldə ediblər.

Simfonik Orkestr, NDU Caz qrupu, Qədim Xalq Çalğı Alətləri ansamblı adlarından da göründüyü kimi, millilik, beynəmiləllik, qədimlik və müasirliyi əhatə edən bu tədbirlər tələbələrə musiqinin bütün qolları ilə tanışlıq imkanı verir.

Sadəcə diplomla şəxsiyyət formalaşmaz, şəxsiyyət ən çox belə mədəni tədbirlərdə, qloballaşan dünyada hələ də insan qəlbini fəth edə bilən incəsənətdə formalaşır. Təsadüfi deyil ki, NDU-da keçirilən əksər tədbirlərin bədii hissəsi mütləq olur.

Məsələn, dünən Naxçıvan Dövlət Universitetində "2025-2026-cı tədris ilində TEC xətti ilə aparılan elmi-tədqiqat işlərinin Başlanğıc Konfransı" keçirildi, bu elmi konfransın belə sonunda bədii hissə vardı, İncəsənət fakültəsinin "Belkanto" vokal qrupunun ifasında bir-birindən maraqlı musiqi nömrələri dinlədik. Dinlədik və dincəldik... Həmişə olduğu kimi...

Bir də tədbirlərimizin bəzəyi olan sərgilər var. Bu sərgilər universitet həyatına xüsusi rəng qatır, yaradıcılığın və estetik zövqün ən gözəl ifadəsinə çevrilir. Sərgi zallarında dolaşdıqca rənglərin dili, formaların ahəngi və ideyaların dərinliyi insanı özünə çəkir. Tələbələr bu əsərlər vasitəsilə həm başqalarının yaradıcılığı ilə tanış olur, həm də öz daxili dünyalarını kəşf etməyə bir addım daha yaxınlaşırlar. Belə tədbirlər onların estetik zövqünü formalaşdırır, yaradıcılıq potensialını üzə çıxarır və yaddaşlarda iz buraxır.

Hörmətli rektorumuz Elbrus İsayev çıxışlarında hər zaman



milli-mənəvi dəyərlərimizə sahib çıxmağın, gənclərə vətənpərvərlik duyğusunu aşılamağın, onların həm də emosional zəkasını inkişaf etdirməyin prioritet istiqamətlərimizdən biri olduğunu vurğulayır. Və bu fikirlərin heç bir sözdə qalmır, əməldə də görünür. Axı söz ancaq əmələ çevrildiyi zaman dəyərli olur.

Universitetimizdə biz müəllimlərdən tələb olunan işlərdən biri də auditoriyadan kənar dərslərdir. Bəzən muzeydə, bəzən təbiətin qoynunda, bəzən teatrda keçirilən bu dərslər tələbələrin yaddaşında özünə yer edir.



NDU Elmi Kitabxanasını da hər zaman tələbələrlə dolu görürük. 40 milyondan artıq resursa çıxış imkanı təqdim edən bu kitabxana həm də ideyaların doğulduğu, fikirlərin formalaşdığı bir mərkəzdir. Burada tələbə və tədqiqatçılar üçün hər cür şərait yaradılıb – rahat mütaliə zonaları, müasir texnologiyalar, zəngin elektron bazalar… Bütün bunlar gənclərin araşdırmalarını daha səmərəli və məhsuldar etməsinə xidmət edir. Burada qazanılan hər təcrübə, oxunan hər sətir gələcək uğurların təməlini qoyur və bu gənclər zamanla öz zəhmətlərinin bəhrəsini qürurla seyr edəcəkləri bir zirvəyə doğru addımlayırlar.

Naxçıvan Dövlət Universitetində könüllülük fəaliyyəti də tələbə həyatının mühüm və dinamik istiqamətlərindən biridir. Bu fəaliyyətlər tələbələrin yalnız akademik biliklərlə kifayətlənməməsi, eyni zamanda praktiki təcrübə qazanması və cəmiyyətə faydalı fərd kimi formalaşması məqsədi daşıyır.

Universitetdə könüllülük fəaliyyəti müxtəlif sahələri əhatə edir. Tələbələr sosial layihələrdə, mədəni tədbirlərdə, elmi konfranslarda və ictimai aksiyalarda fəal iştirak edirlər. Bu fəaliyyətlər onların təşkilatçılıq bacarıqlarını inkişaf etdirir, komanda ilə işləmə vərdişlərini gücləndirir, liderlik keyfiyyətlərini formalaşdırır və əmək bazarına daha təcrübəli addım atmalarında mühüm rol oynayır.

Ümumilikdə, Naxçıvan Dövlət Universiteti 8 müxtəlif könüllülük proqramını vahid platformada birləşdirərək tələbələr üçün kompleks və inklüziv könüllülər mühiti formalaşdırıb. Könüllülərimizlə, onların fəaliyyətləri ilə yaxından tanış olan biri kimi deyə bilərəm ki, bu gənclər məsuliyyətli, təşəbbüskar, cəmiyyətə fayda verməyə çalışan fərdlərdir. Onlar öz işlərinə sadəcə vəzifə kimi deyil, daha çox məsuliyyət və dəyər kimi yanaşırlar. NDU-da könüllülük, doğrudan da, könül işidir.

NDU-da tələbələr auditoriyadan kənar fəaliyyətlərdə də özlərini inkişaf etdirir, elm və mədəniyyətin zəngin ahəngində formalaşırlar. Auditoriyadan kənarda yaşanan hər bir an istər tədbir, istər könüllülük fəaliyyəti, istərsə də tələbə təşəbbüsləri gənclərin dünyagörüşünü genişləndirir və onların gələcəyini daha möhkəm əsaslar üzərində qurmasına şərait yaradır. Bu baxımdan NDU-da tələbəlik sadəcə oxumaq deyil, eyni zamanda yaşamaq, öyrənmək və formalaşmaq prosesidir. Nəticədə, burada hər bir tələbə öz yolunu tapır, öz izini qoyur və universitet həyatının rəngarəng dünyasında gələcəyinə doğru inamla addımlayır.

*Gülay Tahirli*
*Media və ictimaiyyətlə əlaqələr şöbəsinin əməkdaşı*

---

# Uşaq ruhunun susqun fəryadı

Uşaq ruhu saf və təmiz bir səhifə kimidir. O səhifəyə yazılan hər bir söz, səslənən hər bir cümlə, atılan hər bir baxış gələcəkdə bir insanın həyatına istiqamət verəcək qədər güclüdür. Uşaqlar dünyaya yalnız fiziki ehtiyaclarla deyil, sevgi, qayğı və emosional təhlükəsizlik kimi fundamental ehtiyaclarla gəlirlər. Onlar sevgi üçün doğulub, sevgi ilə böyüməlidirlər. Lakin bəzən həyat onları sevgisiz bir evdə, bir-birini sevməyən iki insanın arasında yaşamağa məcbur edir. O evdə divarlar çox şey danışar, amma heç vaxt "səni sevirəm" deyə səslənməz.

Belə bir mühitdə böyüyən uşaq sanki görünməyən bir müharibənin səssiz şahidinə çevrilir. Nə qaça bilir, nə də müdaxilə edə bilir. Ata və ana bir-birini sevmədikdə, bu, sadəcə onların şəxsi münasibəti olmur. Bu soyuqluq evin havasına hopur, divarlara sinir, mətbəxə, yataq otağına, hətta uşaq otağındakı oyuncaq rəfinə qədər yayılır. Sevgi çatışmazlığı böyüklərlə məhdudlaşmır – uşağın ruhuna da sirayət edir.

Uşaq hər səhər oyandıqda valideynlər arasındakı soyuqluğu, səssizliyi və ya bəzən səssizlikdən daha ağır olan mübahisələri hiss edir. Duyğularla danışa bilməsə də, o, evdə nəyinsə yolunda olmadığını anlayır. Hər bir qışqırıq, hər bir inciklik, hər bir susqunluq uşağın qəlbində görünməz bir yarıq açır. Və heç nə deməsə belə, içində bir narahatlıq toxumu cücərməyə başlayır.

Psixologiyada bu vəziyyət "emosional laqeydlik" və ya "təhlükəli emosional mühit" kimi tanınır. Uşaqlar üçün sevgi və emosional təhlükəsizlik şəxsiyyətlərinin və gələcək münasibətlərinin təməlidir. Valideynlər tərəfindən sevilmədiyini hiss edən uşaq çox zaman özünü günahkar sayır. O düşünür ki, bəlkə də valideynlərinin bir-birinə olan nifrətinin səbəbi elə özüdür. Çünki uşaq zehnində dünya sadə işləyir: "Əgər məni sevsəydilər, bir-birilə də dalaşmazdılar."

Belə evlərdə uşaqlar təkcə sevilmədiklərini deyil, eyni zamanda varlıqlarının yük kimi görüldüyünü də hiss edirlər. Analar onları ataya, atalar isə anaya oxşatdıqları üçün bəzən şüurlu, bəzən də şüursuz şəkildə onlara qarşı soyuqluq göstərirlər. "Sən də atan kimisən!" və ya "Bu baxışların anana bənzəyir!" kimi cümlələr uşağın özününkarına səbəb olur. Uşaq tədricən öz şəxsiyyətindən utanmağa başlayır, özünü olduğu kimi qəbul edə bilmir. Bunun nəticəsində onun özünəinamı zədələnir, daxili dünyasında dərin çatlar yaranır.

Psixoloji araşdırmalar göstərir ki, bu cür ailələrdə böyüyən uşaqların əksəriyyəti gələcək həyatlarında emosional qeyri-sabitlik, güvən problemi və aşağı özünə dəyər hissi ilə üzləşirlər. Onlar sevilməyə layiq olduqlarına inanmaqda çətinlik çəkirlər. Çünki sevgi anlayışları ilk dəfə və ən güclü şəkildə valideyn münasibətləri vasitəsilə formalaşır. Əgər bu model zədəlidirsə, uşaq sevginin nə olduğunu da zədələnmiş şəkildə öyrənir.

Ən acınacaqlısı isə odur ki, valideynlər çox vaxt bu psixoloji dağıntının fərqində belə olmurlar. Onlar üçün bu münasibətlər "böyüklər məsələsi"dir. Mübahisələrdən bir neçə saat sonra sanki heç nə olmamış kimi həyatlarına davam edirlər. Lakin uşaqlar üçün bu anlar ötəri hadisə deyil. Uşaq yaddaşı zərif, amma çox dərindir. O, bir baxışı, bir səsi, bir səssizliyi belə unutmur. Bu xatirələr illərlə onun ruhuna incidir.

Bir uşaq üçün ən böyük təhlükə sevgisizliyə alışmaqdır. Sevgi görmədikcə, sevgisizliyi normal qəbul edir. Gələcəkdə ya eyni modeli təkrarlayır, ya da sevgidən tamamilə uzaqlaşır. Hər iki halda da içindəki boşluq dolmur. O, həmişə bir hissin, bir təbəssümün, bir toxunuşun yoxluğunu hiss edir.

Amerikalı psixoloq Alice Millerin dediyi kimi: "Əgər bir uşaq sevilmədən böyüyərsə, gələcəkdə bu sevgini daim axtaracaq, çox zaman yanlış yerlərdə." Sevgi almayan uşaq sevilmək üçün özünü dəyişdirməyə çalışır, öz hisslərini bastırır və zamanla özünə yad bir insana çevrilir.

Valideynlər bilməlidirlər ki, bir-birini sevməmək onların şəxsi faciəsi ola bilər, amma bu faciənin ən ağır yükünü uşaqlar daşıyır. Sevgi olmayan bir evdə uşaqlar sadəcə böyümürlər – içlərində parçalanırlar. Onlar bizdən yalnız yemək, geyim və təhsil istəmirlər. Onlar anlayış, diqqət və dərin sevgi istəyirlər.

Əgər bu sevgi onlara verilməzsə, uşaqlar susacaq. Amma o səssizlikdə bir fəryad gizlənəcək. Və həmin fəryad çox zaman bir ömür boyu uşağın içində səslənməyə davam edəcək.

*Rəhimə Hacıyeva*
*"Elektroenergetika mühəndisliyi" kafedrasının laborantı*

# Rəqəmsal transformasiya: Naxçıvan Dövlət Universiteti gələcəyin modelini yaradır

Müasir mərhələdə IV Sənaye inqilabı çərçivəsində baş verən texnoloji inkişaflar yalnız istehsal və iqtisadi strukturları deyil, həm də bilik istehsalı və ötürülməsi sistemlərini əsaslı şəkildə dəyişdirmişdir. İnformasiya axınının sürətlənməsi, rəqəmsal texnologiyaların geniş yayılması və qlobal əlaqələrin intensivləşməsi ali təhsil sistemini yeni reallıqlara uyğunlaşmağa vadar edir.

Ənənəvi təhsil modeli uzun müddət sabit məzmun və müəllim mərkəzli yanaşma üzərində qurulsa da, müasir şəraitdə bu modelin effektivliyi zaman keçdikcə azalır. Yeni dövr universitetlərdən daha çevik, interaktiv və texnologiya əsaslı yanaşmalar tələb edir. Bu baxımdan rəqəmsal transformasiya ali təhsilin inkişafında əsas istiqamətlərdən biri kimi ön plana çıxır.

Azərbaycan Respublikasında təhsil sahəsində həyata keçirilən islahatlar rəqəmsal inkişaf strategiyası ilə sıx bağlıdır. Dövlət səviyyəsində qəbul edilmiş proqramlar göstərir ki, gələcək iqtisadi və sosial inkişafın təmin olunması üçün texnoloji bilik və bacarıqlara malik insan resurslarının formalaşdırılması vacib hesab olunur.

Bu yanaşma ali təhsil müəssisələrinin funksional çərçivəsini genişləndirir. Universitetlər artıq yalnız təhsil verən qurumlar deyil, həm də innovasiya yaradan, tədqiqat aparan və texnologiyaların tətbiq olunduğu platformalar kimi fəaliyyət göstərir.

Naxçıvan Dövlət Universiteti bu istiqamətdə sistemli addımlar atan ali təhsil müəssisələrindən biridir. Universitet öz fəaliyyətində klassik akademik ənənələri qorumaqla yanaşı, müasir texnologiyaların tətbiqinə xüsusi önəm verir. Burada həyata keçirilən dəyişikliklər yalnız texniki səviyyədə yenilənmə ilə məhdudlaşmır. Əksinə, bu proses təhsilin təşkili, idarə olunması və məzmununun yenidən düşünülməsi kimi daha geniş aspektləri əhatə edir. Bu isə universitetin ümumi fəaliyyət modelinin modernləşdirilməsinə gətirib çıxarır.

Universitetdə tətbiq olunan elektron idarəetmə yanaşması təhsil və inzibati proseslərin rəqəmsal platformalar üzərindən həyata keçirilməsinə imkan yaradır. Bu sistem vasitəsilə sənəd dövriyyəsi, tədris prosesinin təşkili və qiymətləndirmə mexanizmləri vahid mühitdə idarə olunur.

KOICA ilə əməkdaşlıq çərçivəsində yaradılmış texnoloji baza bu sahədə mühüm rol oynamışdır. Bu əməkdaşlıq nəticəsində universitetin rəqəmsal infrastrukturu genişlənmiş və daha funksional hala gəlmişdir.

Rəqəmsal transformasiyanın uğurla həyata keçirilməsi müasir texniki imkanların mövcudluğunu tələb edir. Universitetdə qurulmuş şəbəkə infrastrukturu və geniş internet əhatəsi tədris və elmi fəaliyyətin fasiləsizliyini təmin edir.



Tələbələr nəzəri bilikləri LMS üzərindən əvvəlcədən öyrənir, auditoriyada isə yalnız müzakirə, problem həlli və praktiki tətbiqlə məşğul olurlar. Bu yanaşma tədrisin səmərəliliyini 40%-dək artırır. Hibrid model tələbəyə öz sürəti ilə öyrənmə imkanı tanıyır ki, bu da "heç bir tələbə geridə qalmasın" prinsipinin rəqəmsal təminatıdır. Xüsusilə mühəndislik, tibb, biologiya və kimya kimi eksperimental elmlərdə rəqəmsal transformasiyanın ən möhtəşəm tətbiqi Virtual laboratoriyalardır. Real mühitdə bahalı və ya riskli hesab olunan kimyəvi reaksiyalar və fiziki proseslər virtual simulyasiyalar vasitəsilə virtual laboratoriyalarda həyata keçirilir.

NDU-nun Tibb fakültəsində tətbiq edilən virtual anatomiya masaları və 3D simulyasiya proqramları tələbələrə insan bədəninin mürəkkəb strukturlarını rəqəmsal mühitdə tədqiq etmək şansı verir.

Memarlıq və mühəndislik ixtisaslarında tələbələr öz layihələrini virtual reallıq (VR) eynəkləri vasitəsilə 3D formatda "gəzə" bilir, inşaatdan öncə potensial xətaları müəyyən edirlər. Bu texnologiyalar NDU məzunlarını əmək bazarında rəqabətə davamlı mütəxəssislərə çevirir.

NDU-da təhsil artıq statik deyil. Flipped Classroom (Tərsüz sinif) metodu ilə tələbə nəzəriyyəni rəqəmsal mühitdə öyrənir, auditoriyada isə yalnız müzakirə və praktika ilə məşğul olur.

Tibb fakültəsində tətbiq edilən virtual anatomiya masaları və mühəndislik ixtisaslarında VR eynəkləri tələbələrə real mühitdə riskli olan eksperimentləri rəqəmsal təhlükəsizlikdə aparmaq şansı verir.

Elmi fəaliyyət rəqəmsal transformasiyanın ən mühüm poliqonlarından biridir. Naxçıvan Dövlət Universiteti elmi-tədqiqatların keyfiyyətini və beynəlxalq standartlara uyğunluğunu təmin etmək üçün elmin rəqəmsal arxitekturasını qurur. Universitetdə mövcud olan Elektron kitabxana sistemi və qlobal inteqrasiya da diqqətəlayiq məsələlərdəndir.

Müasir tədqiqatçı üçün informasiyaya çıxış sürəti uğurun 50%-ni təşkil edir. NDU-nun zəngin kitabxana fondu sürətlə rəqəmsallaşdırılaraq vahid bazaya yerləşdirilir. Lakin proses yalnız kitabların skan edilməsi ilə bitmir. Universitetin elektron kitabxanası EBSCO, ScienceDirect, Web of Science kimi qlobal elmi bazalara inteqrasiya olunur. Bu, tələbə və alimlərə dünyanın ən prestijli jurnallarına bir kliklə çıxış imkanı yaradır. Beləliklə, Naxçıvanda oturan gənc tədqiqatçı Oksford və ya Harvard universitetinin ən son nəşrlərini real vaxt rejimində mütaliə edə bilir.

Tətbiq olunan TMIS sistemi akademik və inzibati proseslərin inteqrasiyalı şəkildə idarə olunmasına şərait yaradır. Bu platforma: tədris planlarının koordinasiyası, tələbə məlumatlarının sistemləşdirilməsi, qiymətləndirmə proseslərinin təşkili, analitik məlumatların hazırlanması kimi funksiyaları yerinə yetirir. Bu isə idarəetmədə səmərəliliyin artmasına səbəb olur.

Tədris prosesinə yeni yanaşmalar universitetdə sağlam təhsil mühiti formalaşdırmışdır. Beləki, rəqəmsal mühitin inkişafı tədris metodlarında da dəyişikliklərə səbəb olmuşdur. Universitetdə tətbiq edilən müasir platformalar tələbələrə tədris materiallarına istənilən vaxt çıxış imkanı verir və onların müstəqil öyrənmə bacarıqlarını inkişaf etdirir.

Hibrid təhsil modeli və tərs sinif yanaşması tələbələrin aktiv iştirakını təmin edir. Bu modeldə tələbələr nəzəri bilikləri müstəqil şəkildə mənimsəyir, auditoriya mühitində isə daha çox praktiki fəaliyyətlər həyata keçirilir.

Simulyasiya texnologiyaları və virtual laboratoriyalar xüsusilə tətbiqi ixtisaslarda təhsilin keyfiyyətini artırır və real təcrübəyə yaxın şərait yaradır.

Universitetdə elmi fəaliyyətin təşkili rəqəmsal imkanların tətbiqi ilə daha da gücləndirilmişdir. Elektron kitabxana sistemləri vasitəsilə tədqiqatçılar beynəlxalq elmi resurslara çıxış əldə edirlər.

Elmi işlərin keyfiyyətinin qorunması üçün müasir yoxlama sistemlərindən istifadə olunur. Bundan əlavə, müxtəlif rəqəmsal platformalar vasitəsilə elmi nəticələrin yayılması və akademik əməkdaşlıq imkanları genişlənir.

Müasir universitet modelində innovasiya fəaliyyəti mühüm yer tutur. Bu baxımdan universitetdə yaradılmış mühit tələbələrin yaradıcılıq potensialını inkişaf etdirməyə yönəlib.

Süni intellekt texnologiyalarının tətbiqi tədris prosesinin fərdiləşdirilməsinə imkan verir. Bununla yanaşı, startap təşəbbüsləri tələbələrin praktik bacarıqlarının formalaşmasına şərait yaradır.

Texnoloji inkişafın effektivliyi insan resurslarının səviyyəsindən birbaşa asılıdır. Universitetdə müəllim və tələbələrin rəqəmsal bacarıqlarının inkişafına xüsusi diqqət yetirilir. Bu istiqamətdə həyata keçirilən təlimlər texnologiyaların düzgün istifadəsini təmin edir və rəqəmsal mühitdə effektiv fəaliyyət göstərmək üçün zəruri kompetensiyaları formalaşdırır.

Naxçıvan Dövlət Universitetində həyata keçirilən transformasiya prosesi ali təhsilin müasirləşdirilməsi baxımından mühüm nümunə hesab edilə bilər. Bu proses nəticəsində tədris mühiti yenilənmiş, idarəetmə sistemləri təkmilləşdirilmiş, elmi fəaliyyət genişləndirilmiş, beynəlxalq əlaqələr gücləndirilmişdir. Beləliklə, universitet təcrübəsi göstərir ki, rəqəmsal yanaşmaların tətbiqi ali təhsilin inkişafında mühüm rol oynayır və bu istiqamətdə həyata keçirilən sistemli dəyişikliklər gələcəyin təhsil modelinin formalaşmasına töhfə verir.

Naxçıvan Dövlət Universitetində həyata keçirilən rəqəmsal transformasiya prosesi sadəcə texnoloji bir yenilənmə deyil, köklü bir zəka və idarəetmə inqilabıdır. NDU bu gün rəqəmsal infrastrukturunu qurmaqla, inzibati idarəetməsini şəffaflaşdırmaqla və təhsilin məzmununu innovativləşdirməklə regionda lider təhsil mərkəzinə çevrilmişdir. Universitetin yaratdığı rəqəmsal ekosistem, gələcəyin mütəxəssislərini hazırlamaq üçün ən optimal mühitdir.

Rəqəmsallaşma NDU üçün bir məqsəd deyil, keyfiyyətli təhsil, azad elmi təfəkkür və milli tərəqqi üçün ən effektiv vasitədir. Universitet bu yolu uğurla keçməklə göstərir ki, tarixi ənənələrə sadiq qalaraq ən müasir texnologiyaların zirvəsinə ucalmaq mümkündür. Naxçıvan Dövlət Universiteti öz rəqəmsal vizyonu ilə təkcə Naxçıvanın deyil, bütövlükdə Azərbaycanın ali təhsil sisteminə yeni, müasir və rəqabətədavamlı bir standart gətirir. Bu, "Gələcəyin universiteti" modelinin bugünkü reallığıdır.

2026-cı ilin mart ayından etibarən isə universitetdə daha müasir yanaşmaya əsaslanan distant.ndu.edu.az distant təhsil platforması istifadəyə verilmişdir. Bu platform Zoom kimi real vaxt rejimində sinxron dərslərin keçirilməsini təmin edən onlayn təhsil mühiti kimi fəaliyyət göstərir. Yeni sistem müəllim və tələbələr arasında birbaşa canlı ünsiyyət, dərslərin interaktiv şəkildə aparılması, ekran paylaşımı, müzakirə və sual-cavab imkanları yaradır. Naxçıvan Dövlət Universitetində həyata keçirilən bu köklü transformasiya sadəcə texnoloji bir yenilik deyil, bir zəka inqilabıdır. Bütün bu sadalananlar göstərir ki, tarixi ənənələrə sadiq qalaraq NDU ən müasir texnologiyaların köməyilə daha bacarıqlı kadrların yetişməsinə şərait yaradır. Bu gün NDU rəqəmsal vizyonu ilə təkcə Naxçıvanın deyil, Azərbaycanın ali təhsil sistemində rəqabətədavamlı bir standart formalaşdırır.

*Tehranə Xudaverdiyeva*
*"İngilis dili və tərcümə" kafedrasının baş müəllimi, filologiya üzrə fəlsəfə doktoru*

# "Azərbaycan teatrında inqilab"

Azərbaycanın teatr mühiti, əslində, kökləri dərindən gələn böyük bir ailə kimidir. Bu sənət ocağı həm öz qədim ənənələrini qoruyur, həm də müasir dövrün tələblərinə uyğunlaşaraq davamlı təzələnməyə can atır. Bu gün teatr deyəndə ağlımıza ağır qırmızı pərdələr gəlməməlidir, çünki teatr mühitində artıq ciddi bir transformasiya baş verir. Səhnədəki aktyorlar artıq bizə "nağıl danışmır", onlar tamaşaçı ilə birbaşa dialoqa girir, dördüncü divarı yıxaraq auditoriyanı oyunun bir hissəsinə çevirirlər. Dövlət teatrlarımız öz sanballı statusunu qorusa da, müstəqil teatrların və gənc aktyorların gətirdiyi o "dəli-dolu" enerji mühiti tamamilə dəyişib. Sevindirici haldır ki, bu canlanma yalnız Bakı ilə məhdudlaşmır. Lənkəran, Naxçıvan və digər bölgələrimizdə də teatra maraq yeni müstəviyə qalxır. Müasir səhnəmiz artıq yalnız yerli dramaturgiya ilə kifayətlənmir. Dünya ədəbiyyatının "Dorian Qreyin portreti", "Hamlet", "Anna Karenina" kimi ən mürəkkəb və fəlsəfi əsərləri paytaxt səhnəsində uğurla nümayiş etdirilir. Region teatrlarının oyanışının bariz nümunəsi kimi, Naxçıvan Milli Musiqili Dram Teatrının hazırladığı yeni "Hamlet" tamaşası sənət mühitində böyük əks-səda doğurdu. Bu inkişaf təkcə mövzu seçimində deyil, həm də vizual həllərdə özünü göstərir. Xüsusilə gənc rejissorların klassik əsərlərə eksperimental yanaşması Azərbaycan teatrını beynəl xalq standart lara bir addım da yaxınlaşdırır. Bu inqilabi gedişatın ən həyəcanlı məqamlarından biri isə "White Roof" teatr studiyasının imza atmağa hazırlaşdığı dünya miqyaslı yenilikdir. Dünya teatr tarixində bir "ilk" olaraq, hamımızın kinodan və ədəbiyyatdan yaxından tanıdığı məşhur "Xaç atası" (The Godfather) əsəri teatr variantında məhz Bakıda təqdim olunacaq.



İstedadlı aktyorlar Ziya Ağa və Vidadi Həsənlinin iştirakı ilə hazırlanan bu tamaşa, Azərbaycan teatrının həm də cəsarətli prodüser layihələrinə açıq olduğunu sübut edir. Mario Püzonun bu epik əsərinin səhnə həlli geniş tamaşaçı kütləsində böyük maraq oyatmışdır.

*Yusif Əhməd*
*Jurnalistika ixtisası üzrə I kurs tələbəsi*

# Müasir gənclik və psixoloji risklər



Müasir dövrdə texnologiyanın sürətli inkişafı, sosial şəbəkələrin həyatımızın ayrılmaz hissəsinə çevrilməsi və gündəlik həyat ritminin dəyişməsi insanların, xüsusilə də gənclərin psixoloji durumuna ciddi təsir göstərir. Son illərdə gənclər arasında depressiya hallarının artması cəmiyyəti narahat edən əsas problemlərdən birinə çevrilib. Elə bu aktual mövzu ilə bağlı Naxçıvan Dövlət Universiteti "Pedaqogika və psixologiya" kafedrasının müəllimi, pedaqogika üzrə fəlsəfə doktoru, psixoloq Kübra Quliyeva ilə həmsöhbət olduq.

*– Kübra xanım, ilk olaraq gənclərdə depressiyanın artma səbəbləri barədə fikirlərinizi öyrənmək istərdik.*

– Əvvəlcə onu deyə bilərəm ki, depressiyanın yaranmasına bir neçə faktor təsir edir. Müasir dövrdə təhsil həyatı, imtahanlar, iş tapmaq və gələcəklə bağlı narahatlıqlar gənclərdə stress yaradır. Sosial şəbəkələrin geniş yayılması da bu problemin əsas səbəblərindən biridir. Gənclər özlərini başqaları ilə müqayisə edir, bu isə onlarda narazılıq və özgüvən əskikliyi yaradır. Ailə daxilində yaranan problemlər, valideyn diqqətsizliyi və emosional dəstəyin olmaması da depressiyaya təsir göstərir. Bundan əlavə, tənhalıq hissi, dost çevrəsinin zəif olması və insanın özünü anlaşılmamış hiss etməsi psixoloji vəziyyəti ağırlaşdıra bilər. Maddi çətinliklər və gələcəklə bağlı qeyri-müəyyənlik də gəncləri ruhdan salır. Həmçinin yuxu rejiminin pozulması, telefondan həddindən artıq istifadə və qeyri-sağlam həyat tərzi də depressiyanın yaranmasına səbəb olur. Buna görə də gənclərə mənəvi dəstək göstərmək, onları dinləmək və lazım olduqda psixoloqa müraciət etmək vacibdir.

*– Depressiyaya səbəb faktorlar sırasında sosial şəbəkələri də qeyd etdiniz. Bu barədə bir qədər ətraflı məlumat verərdiniz.*

– Sosial şəbəkələr müasir həyatın ayrılmaz hissəsinə çevrilsə də, onların insan psixologiyasına, xüsusilə də depressiv mühitin formalaşmasına ciddi təsiri vardır. İnsanlar sosial platformalarda, adətən həyatlarının yalnız xoşbəxt, uğurlu və gözəl tərəflərini paylaşırlar. Bu görüntülər digər insanlarda öz həyatlarını kifayət qədər yaxşı hesab etməmək hissi yaradır. Nəticədə insan özünü başqaları ilə müqayisə edir, narazılıq və özgüvən əskikliyi yaşayır.

Sosial şəbəkələrdə uzun müddət vaxt keçirmək insanın real ünsiyyətdən uzaqlaşmasına da səbəb olur. Canlı münasibətlərin azalması tənhalıq hissini gücləndirir və insanı emosional olaraq yorur. Bəzən bəyənmə, izləyici sayı və rəylərə həddindən artıq önəm vermək insanın psixoloji durumuna mənfi təsir göstərir. Gözlənilən diqqəti görmədikdə isə insan özünü dəyərsiz hiss edir.

Bundan əlavə, sosial şəbəkələrdə yayılan neqativ xəbərlər, aqressiv şərhlər və kiberzorakılıq da depressiv mühit yaradan amillərdəndir. Davamlı şəkildə mənfi informasiyaya məruz qalmaq insanın əhvalına təsir edir, narahatlıq və ümidsizlik hisslərini artırır. Xüsusilə gənclər bu təsirlərə daha həssas yanaşırlar.

Bu səbəbdən sosial şəbəkələrdən düzgün və balanslı istifadə etmək vacibdir. Vaxt məhdudiyyəti qoymaq, real ünsiyyətə üstünlük vermək və virtual həyatı gerçək həyatla qarışdırmamaq psixoloji sağlamlığın qorunmasına kömək edir.

*– Müasir dövrdə insanların psixoloqa müraciət etməsinə qarşı cəmiyyətdə hələ də müəyyən stereotiplər mövcuddur. Bir psixoloq kimi cəmiyyətdə formalaşan bu düşüncələrə qarşı reaksiyalara cavabınız necədir?*

– Bəli, müasir dövrdə maariflənmə artsa da, insanların psixoloqa müraciət etməsinə qarşı cəmiyyətdə hələ də müəyyən stereotiplər qalmaqdadır. Bəzi insanlar psixoloqa yalnız ciddi psixi problemi olan şəxslərin getdiyini düşünürlər. Bu səbəbdən bir çox insan yardım almağa ehtiyacı olsa belə, cəmiyyətin qınağından çəkinərək mütəxəssisə müraciət etmir.

Lakin son illərdə bu sahədə müsbət dəyişikliklər müşahidə olunur. Sosial media, televiziya proqramları və maarifləndirici layihələr sayəsində psixoloji sağlamlığın önəmi daha çox anlaşılmağa başlanıb. Xüsusilə gənc nəsil psixoloqa müraciəti normal və faydalı addım kimi qəbul edir. Artıq insanlar anlayırlar ki, psixoloqa getmək zəiflik deyil, insanın öz sağlamlığına verdiyi dəyərin göstəricisidir.

Bununla belə, stereotiplərin tam aradan qalxması üçün cəmiyyətdə maarifləndirmə işlərinin davam etdirilməsi vacibdir.

– İnsanın ən böyük psixoloqu özü olmalıdır-deyiblər. Belə olduğu təqdirdə psixoloqa ehtiyac qalmır, yoxsa…

– Məncə bu fikirdə müəyyən həqiqət var. İnsan ilk növbədə özünü tanımağı, hisslərini anlamağı və daxili dünyasını idarə etməyi bacarmalıdır. İnsan öz düşüncələrini analiz etdikdə, davranışlarının səbəblərini dərk etdikdə və problemlərinə sağlam yanaşdıqda özü üçün ən böyük dəstəyə çevrilə bilər. Çünki insanı ən yaxşı yenə də özü tanıyır.

Lakin bu, o demək deyil ki, insan hər problemi təkbaşına həll etməlidir. Bəzən elə psixoloji vəziyyətlər olur ki, peşəkar dəstəyə ehtiyac yaranır. Stress, depressiya, travma və uzunmüddətli narahatlıq hallarında mütəxəssis yardımı çox önəmlidir.

Yəni insan özünün ilk psixoloqu ola bilər, amma ehtiyac olduqda peşəkar psixoloqa müraciət etmək də müdrik addımdır. Özünü anlamaqla yanaşı, yardım istəməyi bacarmaq da psixoloji gücün göstəricisidir.

*– Kübra xanım, maraqlı və maarifləndirici fikirlərinizi bizimlə bölüşdüyünüz üçün sizə təşəkkür edir, elmi və pedaqoji fəaliyyətinizdə uğurlar arzulayırıq.*

***Səkinə Əhmədova***
***Jurnalistika ixtisası üzrə***
***III kurs tələbəsi***

# ŞUŞADA BİR GÜN

***"...Şuşa Azərbaycanın ən əziz və böyük tarixi olan bir guşəsidir. Şuşa Azərbaycanın gözüdür. Bu, Azərbaycan xalqının, əcdadlarımızın yaratdığı böyük bir tarixi abidədir. "Şuşasız Qarabağ, Qarabağsız isə, ümumiyyətlə, Azərbaycan yoxdur".***

***Heydər ƏLİYEV***
***Azərbaycan xalqının***
***Ümummilli lideri***




Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyev 8 noyabr 2020-ci iltarixdə Azərbaycan xalqına Müraciətində Şuşa şəhərinin erməni işğalından azad edilməsi müjdəsini verdiyi zaman dövlətçilik tariximizin Şanlı Zəfər dövrünün mühüm hadisəsinə şahidlik etməklə, sonsuz fəxarət və qürur hissləri yaşamışdıq.

Təsadüfi deyil ki, Zəfər Bayramı məhz Şuşanın azad edildiyi gündə qeyd olunur. Belə ki, Şuşa sevgisi hər bir azərbaycanlının mənəvi varlığının

Şuşa qalibiyyəti xalqımızın qəhrəmanlıq dastanına çevrilməklə, onun ayrılmaz parçasıdır və şanlı tariximizə Zəfər Günü kimi həkk olunan yaddaşında daim qürurla xatırlanacaq.

Şuşa azad olunanda ölkə prezidenti böyük qürur hissilə demişdir: "Bu, bizim qədim, tarixi şəhərimizdir. Əsrlər boyu azərbaycanlılar Şuşada yaşayıb, qurub, yaradıb. Şuşa nəinki Azərbaycanın, bütün Qafqazın incisidir... Bu gün Azərbaycan bayrağı Şuşada dalğalanır".

Ölkə prezidentinin qeyd etdiyi kimi, Qarabağın tacı, xalqımız üçün müqəddəs və əziz məkan sayılan, təməli 1752-ci ildə Qarabağ xanı Pənahəli xan tərəfindən qoyulan Şuşa şəhəri Azərbaycan tarixi və mədəniyyətində özünəməxsus əhəmiyyətli yer tutur. Şuşa əbəs yerə "Azərbaycanın mədəniyyət beşiyi" adlandırılmır.

Dini-mədəni vətarixi abidələri, sarayları ilə məşhur olan bu torpağın ədəbiyyat, incəsənət, siyasət və digər sahələrdə yetişdirdiyi bir çox şəxsiyyətləri də məşhurdur. Bu qədim diyar Azərbaycanın milli-mənəvi və mədəni irsinin təşəkkül və inkişa fına mühüm töhfələr vermişdir. Bu mənada, "Şuşa şəhərinin Azərbaycanın mədəniyyət paytaxtı elan edilməsi haqqında" Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin 7 may 2021-ci ilvə "Azərbaycan Respublikasında 2022-ci ilin "Şuşa İli" elan edilməsi haqqında" 5 yanvar 2022-ci iltarixli sərəncamları xüsusi əhəmiyyət kəsb edir. Prezident İlham Əliyev Türkiyənin "A Haber" televiziya kanalına müsahibəsində demişdir: "İşğal edilmiş torpaqların hər bir qarışı, hər bir şəhər bizim üçün doğmadır, əzizdir. Mənim üçün hər bir kəndin dəyəri, qiyməti o biri kəndlə müqayisədə, o biri şəhərlə müqayisədə eynidir, bərabərdir. Ancaq siz də yaxşı bilirsiniz ki, Şuşanın Azərbaycan xalqının qəlbində xüsusi yeri var. Bu, bizim tarixi şəhərimizdir, qədim mədəniyyət ocağıdır. Şuşa Azərbaycan xalqına bir çox istedadlı, dahi şəxslər bəxş edibdir. Əlbəttə ki, Şuşasız bizim işimiz yarımçıq olar".

Mən həmişə arzulamışdım ki, Qarabağ işğaldan azad olunsun və mən gedib oranın gözəlliyini öz gözlərimlə görüm, rənglərini canlandırım, Şuşa qalasının önündə etüd edim. Mənim bu arzum prezidentimizin siyasəti, dəmir yumruğun gücü, ordumuzun qüdrəti və ürəkdən gələn dualarımız sayəsində yerinə yetdi. Bugün Şuşamız azaddır. Bu torpaqlar uğrunda canından keçən şəhidlərimizin ruhu artıq şaddır. İllərlə içimizdə yığılıb qalan nisgilimiz artıq bitib. Şuşanın adı artıq xatirələrdə, köhnə şəkillərdə yox, ölkəmizin azad səmasında səslənir. Şuşa artıq uzaq bir arzu deyil, qovuşulan həqiqətdir. Mən hələ ora gedə bilməsəm də, bu arzu, istəyimi "Şuşada bir gün" adlı işimlə reallaşdırdım. Sanki fırçama zəfərin sevinci çöküb. Rəngləri daha canlı vururam, bununla sanki tarixi qala divarları, daşları gülümsəyir, zəfərin sevincini yaşayır. Mən bu işi yağlı boya ilə kətan üzərində işləmişəm. Bəzən gedə bilmədiyin yerlərə sənət aparır insanı. Bu rəsmdə belə yarandı-içimdəki Şuşanın rəngi ilə. Orada gördüklərim yox, hiss etdiklərim var. Daşların dili, səmanın sükutu, torpağın qüruru... Hamısını rənglərlə əvəz etdim. Mənim üçün bu əsər sadəcə bir təsvir deyil, bu arzunun gerçəyə çevrilməsinin rəmzidir. Bu əsəri bir neçə baxımdan xarakterizə etmək olar: – etüd xarakterli, emosional və simvolik bir rəngkarlıq əsəridir. Mən bu əsəri canlı müşahidədən yox, daxili hisslərə və təsəvvürə dayanaraq çəkmişəm. Bu əsər, Şuşa qalasının tarixi əzəmətini və yaradıcılıq prosesini bir araya gətirən maraqlı bir "tablo içində tablo" kompozisiyasıdır. Qalanın divarları möhkəmlik və sarsılmazlıq rəmzi kimi mərkəzdədir. Divarların üzərindəki qırmızı hərflərlə yazılmış "Şuşa" yazısı və qalanın sağ tərəfində dalğalanan Azərbaycan bayrağı, şəhərin azadlığını və milli kimliyini vurğulayır. Aşağıdan yuxarıya doğru daralan daşlı yol izləyicinin nəzərini rəssamdan birbaşa qalanın girişinə doğru yönəldir. Bu, həm də keçmişə və tarixə gedən bir yol kimi qəbul edilə bilər. Əsərdə rənglərin kontrastından istifadə olunub: yaşıl otlar və göy səma: Təbiətin oyanışı və sülhü təmsil edir. Qalanın üzərinə düşən işıq sol tərəfdə dərin kölgələr divarların teksturasını daha real və həcmli göstərir. Qadının geyimi, ətrafdakı parlaq yaşıl və mavi rənglərlə təzad təşkil edərək onun fiqurunu ön plana çıxarır. Rəssamın yanındakı boya qutusu, fırçalar və molbert üzərindəki kiçik Şuşa rəsmi, yaradıcılığın sonsuzluğunu ifadə edir. Qadının uzun hörükləri və geyimi isə milli köklərə bağlılığı, Azərbaycan qadınının zərifliyini və gücünü təmsil edir. Bu əsər həm tarixi bir abidəyə ehtiram, həm də müasir incəsənətin vəhdətidir. Şuşanın həm bir qala, həm də ilham mənbəyi olduğunu çox gözəl ifadə edir. Yekunda qarşımızda duran bu mənzərə sadəcə rəssamın iş prosesi deyil, həm də tarixin və gələcəyin eyni kətanda birləşməsidir. Şuşa qalasının vüqarlı divarları qarşısında əyləşib fırça tutan bu qadın, əslində zamanın dondurulmuş bir anını bizə bəxş edir.

Nəticə olaraq, bu mənzərədə yadda qalan ən güclü hiss əminlikdir. Qala divarlarının kölgəsində rahatca məşğul olan bu qadın, bu torpaqlarda artıq əbədi bir hüzurun və yaradıcılıq ruhunun hakim kəsildiyinin ən bariz nişanəsidir. Bu kadr sadəcə bir görüntü deyil, dirçəlişin rənglərlə yazılmış dastanının canlı sübutudur. Burada artıq Şuşa sadəcə bir qala deyil, o, rənglərin dilində canlanan azadlıq tablosudur. Mən bu əsərlə sadəcə bir mənzərəni deyil, xəyallarımda hər gün canlandırdığım o anı rəsmə köçürdüm. Şuşa qalasının qarşısında etüd etmək arzum artıq sadəcə bir xəyal deyil, rənglərin dili ilə həyata keçirdiyim bir həqiqətdir.

***Ülviyyə Qəhrəmanova***
***Rəngkarlıq ixtisası üzrə***
***IV kurs tələbəsi***

# Ürəyə fəlsəfi baxış

Əgər beynimizdə yer aldığını düşündüyümüz hisslərimizi gözlərimizlə görsəydik, bu baxışın əsas nüvəsində ürəyin durduğunu anlayacaqdıq. Yəni hisslərə baxmağın yeganə vasitəsinin ürək olduğunu düşünürəm. Mən döş qəfəsinin arxasında yer alan ürəyi, sadəcə mexanik bir qan pompası kimi yox, bəlkə bizi şüurun və zehni oyanıqlığın yüksək səviyyələrinə çıxardan və enerji səviyyələrimizi artıran yardımçı bir körpü olduğu kimi, eyni zamanda onu hisslərimizin başlanğıc tapdığı nöqtə olaraq təsvir edirəm. Ürək körpüsünü belə bir misal ilə başa düşmək olar: ürək bir uşağın yerə yıxıldığında dizində hissetdiyi fiziki ağrının ve anasının bu hadisəni görməsi ilə hissetdiyi hüzünün kəsişən nöqtəsində yer alır. Fiziki və qeyri fiziki hissləri birləşdirən və onlara birgə şəkildə məna verən bir orqandır ürək. Məhz buna görə də ürəyimizi vasitə edərək ürək daşıyan varlıqlar ilə əlaqə qura bilərik, çünki o ikilik və ya qütblülüyün birliyini təmsil edir. Ürək beynin parçaladığı, böldüyü və polarizasiya etdiyi hər şeyin birləşərək bir olduqları yer olduğu kimi daha həqiqi mənada, yaxşı və pis, müsbət və mənfi, kişi və qadın, keçmiş və gələcək kimi paradoksların həyata keçdiyi və reallaşdığı yerdir. Paradoksları birləşdirərək, onların bir birini məhv etmələrini yox, bəlkə iki paradoksun bir araya gəlməsi ilə təkamülün və tam olmağın yarandığını anladır ürək. Yəni ağ və qaranın bir-birini məhv etmək ideyasını ortaya qoyan beyinin önünə, ürək ağ və qaranı birləşdirərək tamamlanmaq və ölümsüzlük ideyasını irəli sürür. Ürəyimiz müntəzəm və uyğun bir hal aldığında, sinir sistemimiz beynimizin enerjisini, yaradıcılığını və intuisiyasını artıraraq ürəyə cavab reaksiyası verir. Bununla da orqanizmin hər orqanında müsbət bir təsiri yaranmış olur. Beləliklə, beyin və ürək birgə işləyir; özümüzü daha bütün, daha bağlı hiss edirik, hissiyyatımız sadəcə öz bədənimizin içində deyil, həmçinin hər şey və hər kəs ilə daha qənaətbəxş və məmnun edici hiss edirik. Hər birimiz həyatımızın bir yerində ürəyimizin şüurunu hiss etmişik. Bu hiss özümüz və ətrafımızla razılaşmaq və barış hissi ilə əlaqəlidir. Mən ürəyin şüurunun insanların dərinliyindən və həqiqi mənliyindən gələn bir supranatural varlıq olduğuna inanıram.




Ürəyin digər bir unikal xüsusiyyəti, onun avtonom sisteminin hər iki qoluna, yəni parasimpatik və simpatik sinir sistemlərinə sinirlərin daxil olmasıdır. Buda hər iki sistemdəki hər hansı bir dəyişikliyin, ürəyin vurğu ritmina, yəni ürəyin əsas işləmə funksiyasına dərhal təsiri olduğu deməkdir. Bu önəmli bir məsələdir, çünki biz fərqində olsaq da, olmasaq da, yaşadığımız hər bir hiss, mərkəzi sinir sistemi ilə əlaqə quraraq ürəyin ritminə təsir edir. Ürək, limbik beyin və avtonom sinir sistemi arasında çox yaxın bir əlaqəyə malikdir, çünki bu iki varlıq bir-biri ilə əlaqəli olduğundan öz daxillərindəki tarazlığın pozulması aralarındakı tarazlığın pozulmasına da səbəb olur. Qeyd etmək lazımdır ki, limbik beyin avtonom sinir sisteminin olduğu yer olaraq, həmçinin hissiyyat beyni kimi də tanınır. Beləliklə, hislərimizi dəyişdirdikdə avtonom funksiyalarımızı dəyişdirmiş oluruq. Hazırda insanın hansı duyğuları hissetdiyi, ürək vurğularının dəyişikliklərinə baxaraq müəyyənləşdirilir. Beləliklə, burada bir tarazlıqdan söhbət gedir. Beyin və ürək tarazlığı. Bu tarazlıq orqanizmin normal fizioloji vəziyyətdə sağlam durması üçün önəmli və vacibdir. Bilindiyi kimi orqanizmdə patologiya homeostazın pozulduğu zaman baş verir. Ürək patologiyalarıda bu qanuna tabedir, yəni limbik beyin ilə ürək arasındakı homeostazın varlığı normal sağlam fizioloji vəziyyət ilə və bu tarazlığın pozulması ruhi, fiziki pozğunluq və patologiyalarla nəticələnəcəkdir. Homeostazdakı orqa - nizminizi inkişaf etmiş və frekans parametrləri düzgün təyin edilmiş bir cihaz kimi təsəvvür edə bilərsiniz, lakin nifrət, qəzəb, qısqanclıq, səbrsizlik, stress və çarəsizlik kimi hissiyyatlar davamlı olduqda və insanın könlündə dərinləşdiyi zaman daxili tarazlığımızı pozacaqdır. Beynimizin biologiyamıza dominant olduğuna inandırılmışıq. Bu qismən doğrudur, çünki ürək avtoritmik bir orqandır. Bu, ürəyin vurğularının beyin tərəfindən deyil, özündən qaynaqlanan ixtisaslaşmış bir şəkildə olması deməkdir. Məsələn, ürək orqanizmdən alınıb "Ringer" məhlulu adlanan duzlu bir məhlul içinə qoyularsa, uzun bir müddət boyunca beyinlə hər hansı bir nevroloji əlaqə olmadan döyünməyə davam edəcəkdir. Ana qarnındakı dölün ürəyi beyin formalaşmadan əvvəl döyünməyə başlayır (təxminən 3-cü həftədə), lakin dölün beyninin elektrik fəaliyyəti beşinci və ya altıncı həftədən sonra başlayır. Bu, ürəyin mərkəzi sinir sistemi ilə əlaqə qurmaq bacarığının varlığı deməkdir.

Ürək 40.000 neyron ilə birlikdə bir sinir sisteminə malikdir və beyindən müstəqil olaraq funksiyasını yerinə yetirir. Bu sistemə texniki termin olaraq "intrinsik kardiak sinir sistemi" adı verilir və daha geniş olaraq "ürəyin beyni" kimi tanınır.

Ürək və beyin efferent (aşağı enən) və afferent (yuxarı çıxan) yollarla birbirinə bağlıdır. Bununla belə, bir-birinə bağlı sinir liflərinin 90%-i ürəkdən beyinə doğru qalxan sinirlərdir. Görkəmli alim "Amour" afferent yolların davamlı olaraq impulslar göndərdiyini, beynin konseptual və hissi mərkəzləri ilə əlaqəsini və oradakı aktivliyi inkişaf etdirdiyini ortaya çıxardı. Ürəkdən beyinə gedən bu impulslar vaqus sinirinə qoşulur və oradan da talamusa (düşünmə, dərk etmək və danışma dilini anlama kimi korteks hərəkətliliyini eyni zamanda təmin edir.) çatır, sonra ön paylara (motor funksiyalar və problemlərin həllində məsul olan) və oradan da beynin həyatda qalma mərkəzi kimi adlandırılan "amigdala" hissəsinə (hissiyaddaşa impuls göndərən) çatır. Amigdalanın mərkəz hüceyrələri ürəyin vurğu funksiyasını, eyni zamanda təmin edir. "Amour"-un beyinə gedən afferent yolların mövcudluğu ilə əlaqəli kəşfi ürəyin hissi olaraq müstəqil şəkildə fəaliyyət göstərə biləcəyini, birbaşa mühitə cavablar verə biləcəyini və ritmlərini tənzimləyə biləcəyini (beyindən məlumat almadan) sübut etmişdir. Bu, ürəyin və avtonom sinir sisteminin birgə fəaliyyət etməsindən irəli gəlir. Həmçinin ürəyin həssas olmasını, yaddaşını və sinir sistemindən asılı olmadan bütün idarə etmə və tənzimləmə funksiyasını yerinə yetirən və bu əlaqəni təmin edən sinirlərin oldu- ğunu qeyd etmək faydalıdır.

***Babək Bəhrami***
***Tibb ixtisası üzrə***
***VI kurs tələbəsi***

# Daun sindromuna etik və insan hüquqları perspektivindən baxış

Tibb çox zaman xəstəlikləri müəyyən edən və müalicəyə yönələn bir elm kimi qəbul olunur. Lakin elə hallar var ki, onları yalnız bioloji çərçivədə dəyərləndirmək mümkün deyil. Daun sindromu da bu hallardan biridir. Çünki Daun sindromu yalnız genetik bir fərqlilik deyil, eyni zamanda etik, insan hüquqları və ictimai dəyərlərlə birbaşa əlaqəli bir mövzudur. Bu səbəbdən bu vəziyyətə baxarkən yalnız xromosom sayını deyil, cəmiyyətin baxış bucağını da sorğulamaq lazımdır. Əslində məsələ çox sadə bir sualda cəmlənir: Cəmiyyət fərqli olan fərdlərlə nə edir?

Daun sindromu 21-ci xromosomun əlavə bir nüsxəsinin olması ilə ortaya çıxan genetik bir vəziyyətdir. Bu fərdlərdə öyrənmə çətinliyi və bəzi sağlamlıq problemləri müşahidə oluna bilər. Lakin bu tərif tək başına kifayət deyil. Çünki Daun sindromu, eyni zamanda cəmiyyətin inklüzivliyini sınağa çəkən bir vəziyyətdir. Bu gün bir çox Daun sindromlu fərd təhsil ala, işləyə və sosial həyata aktiv şəkildə qoşula bilir. Buna baxmayaraq, hələ də kənarlaşdırılan, təhsil hüququna çıxışı olmayan fərdlərin mövcudluğu problemin yalnız tibbi deyil, həm də ictimai olduğunu göstərir.

Daun sindromu diaqnozu hamiləlik dövründə və ya doğumdan sonra qoyula bilər. Prenatal skrininq testləri risk haqqında məlumat verir və əlavə testlərlə diaqnoz dəqiqləşdirilir. Lakin bu prosesin ən çətin hissəsi diaqnozu qoymaq deyil, onu izah etməkdir. Çünki bu, sadəcə laborator nəticə deyil. Bu an bir ailənin həyatında dönüş nöqtəsidir. Bu səbəbdən səhiyyə işçisinin rolu yalnız məlumat verməklə məhdudlaşmır. Verilən məlumat balanslı, doğru və yönləndirici olmadan təqdim edilməlidir. Ailənin qərarına müdaxilə etmədən dəstək olmaq etik baxımdan ən doğru yanaşmadır.

***Qərar prosesi***

Diaqnozdan sonra ailələr, adətən iki seçimlə qarşılaşır: hamiləliyi davam etdirmək və ya sonlandırmaq.

Bu qərar çox vaxt "şəxsi" kimi təqdim olunsa da, əslində bir çox xarici amillərin təsiri altındadır. Sosial dəstək mexanizmləri, iqtisadi şərait və gələcəklə bağlı narahatlıqlar bu prosesi formalaşdırır. Bu səbəbdən bu qərar yalnız fərdi deyil, eyni zamanda ictimai kontekstdə qiymətləndirilməlidir.

Hamiləliyi davam etdirmək qərarı verildikdə, əsl proses bundan sonra başlayır.

Bu mərhələdə səhiyyə işçilərinin rolu genişlənir. Onlar artıq yalnız müalicə edən deyil, eyni zamanda istiqamət verən və dəstək olan mövqeyə keçirlər. Ailələrin ən əsas sualı isə çox vaxt eynidir: *"Uşağım necə bir həyat yaşayacaq?"*



Bu suala veriləcək cavab nə tam optimist, nə də tam pessimist olmalıdır. Realist, lakin ümidverici bir yanaşma tələb olunur. Çünki Daun sindromlu uşaqlar öyrənə, inkişaf edə və cəmiyyətə aktiv şəkildə qoşula bilərlər. Bu prosesdə erkən təhsil, müntəzəm tibbi nəzarət və sosial dəstək böyük əhəmiyyət daşıyır.

***Uşaq hüquqları***

Daun sindromlu uşaqlar digər bütün uşaqlar kimi əsas hüquqlara malikdir. Yaşamaq hüququ, təhsil hüququ, səhiyyə xidmətlərinə çıxış və ayrı-seçkilikdən qorunmaq bu hüquqların başında gəlir. Bu səbəbdən bu uşaqlara dəstək göstərmək yalnız etik bir məsuliyyət deyil, eyni zamanda insan hüquqları tələbidir.

***Tibbi yanaşma: fərdi görmək***

Daun sindromlu fərdlərin izlənməsi multidissiplinar yanaşma tələb edir. Lakin burada əsas məsələ fərdi yalnız diaqnozu ilə qiymətləndirməməkdir.

Tibb etikasının dörd əsas prinsipi bu nöqtədə yol göstərir: faydalılıq, zərər verməmə, muxtariyyət və ədalət. Bu prinsiplər yalnız nəzəri anlayışlar deyil, gündəlik praktikada qərarları formalaşdıran əsaslardır.

Xüsusilə muxtariyyət prinsipi, mümkün olduğu hallarda fərdin öz qərar prosesinə daxil edilməsini vurğulayır. Bu isə ünsiyyətin yalnız ailə ilə deyil, fərdin özü ilə də qurulmasını tələb edir.

Müasir dövrdə əlillik anlayışı ciddi şəkildə dəyişmişdir. Artıq bu vəziyyət fərdi çatışmazlıq kimi deyil, ictimai məsuliyyət kimi qiymətləndirilir. Müasir yanaşma açıq şəkildə göstərir ki, fərdlər sahib olduqları fərqliliklərə görə deyil, cəmiyyət kifayət qədər inklüziv olmadığı üçün çətinlik yaşayırlar. Bu səbəbdən təhsildən iş həyatına qədər hər sahədə inklüzivliyi artırmaq yalnız fərdlər üçün deyil, cəmiyyətin etik inkişafı üçün də vacibdir.

***Hüquqların təminatı***

Daun sindromlu fərdlərin hüquqları yalnız etik səviyyədə qalmır, eyni zamanda beynəlxalq hüquq tərəfindən də qorunur. Birləşmiş Millətlər Təş ki la tının Əlillərin Hüquqları haq qında Konvensiyası, əlilliyi olan şəxslərin bərabər hüquqlara malik olduğunu açıq şəkildə bəyan edir və bu hüquqların qorunmasını dövlətlərin məsuliyyətinə verir.

Daun sindromu bir xəstəlikdən daha artıqdır. Bu vəziyyət cəmiyyətin dəyərlərini, empati qabiliyyətini və ədalət anlayışını ortaya qoyur. Səhiyyə işçiləri üçün bu yalnız klinik bir hal deyil, eyni zamanda etik məsuliyyətdir. Doğru məlumat vermək, empati qurmaq və ayrıseçkiliklə mübarizə aparmaq bu məsuliyyətin əsas hissələridir.

Sonda məsələ bir nöqtəyə gəlir: Daun sindromu bir çatışmazlıq deyil, bir fərqlilikdir. Əsas məsələ isə bu fərqliliyə həqiqətən yer verib-vermədiyimizdir.

***Zeynep Sude Yeşildağ***
***Tibb ixtisası üzrə***
***IV kurs tələbəsi***

# NDU-da idman həyatına maraq artır



Naxçıvan Dövlət Universiteti ölkəmizin aparıcı ali təhsil müəssisələrindən biri kimi yalnız yüksək ixtisaslı kadrların hazırlanması ilə deyil, eyni zamanda tələbələrin fiziki və mənəvi inkişafına göstərilən xüsusi diqqətilə də seçilir. Müasir ali təhsil artıq yalnız auditoriya ilə məhdudlaşmır. Bu gün universitetlər gənclərin həm intellektual, həm də fiziki və mənəvi inkişafını təmin edən kompleks mühit formalaşdırmalıdır. Naxçıvan Dövlət Universiteti də məhz bu yanaşmanı əsas götürərək tələbə həyatında idmanın rolunu prioritet istiqamətlərdən birinə çevirib.

Universitetdə yaradılan müasir idman infrastrukturu – idman zalları, stadion və müxtəlif meydançalar təkcə texniki imkanlar toplusu deyil. Bu, gənclərin sağlam həyat tərzinə təşviqinin real mexanizmidir. Bu imkanlar gənclərin idmana olan marağını artırmaqla yanaşı, onların sağlam və aktiv həyat tərzi sürməsinə də geniş şərait yaradır.

Universitetdə idman sahəsində bir sıra mühüm addımlar atılmış, mövcud infrastruktur yenilənmiş, yeni idman obyektləri istifadəyə verilmiş və tələbələrin bu sahəyə marağını artırmaq üçün müxtəlif layihələr həyata keçirilmişdir. Bu prosesdə universitet rəhbərliyinin diqqəti və təşkilatçılığı xüsusi rol oynayır, tələbələrin potensialının üzə çıxarılması üçün əlverişli mühit formalaşdırılır. İdman artıq sadəcə əlavə fəaliyyət deyil, tələbə həyatının ayrılmaz hissəsinə çevrilir.

Naxçıvan Dövlət Universitetində keçirilən fakültələrarası yarışlar, universitet daxili çempionatlar və müxtəlif idman festivalları tələbə həyatına xüsusi rəng qatır. Bu tədbirlər gənclərin asudə vaxtının səmərəli təşkilinə, sağlam rəqabət mühitinin formalaşmasına və dostluq münasibətlərinin möhkəmlənməsinə xidmət edir. Bu strategiya universitetdə idmanın kompleks və davamlı şəkildə inkişaf etdirilməsini, tələbələrin Naxçıvan Dövlət Universitetində təqdim olunan "İdman Strategiyası 2026–2030" fiziki hazırlıq səviyyəsinin yüksəldilməsini və sağlam həyat tərzinin geniş şəkildə təşviqini əsas məqsəd kimi qarşıya qoyur.

Proqram çərçivəsində universitetdə həm kütləvi, həm də peşəkar idmanın inkişafı nəzərdə tutulur. Tələbələrin idmana cəlb olunmasının artırılması, onların asudə vaxtlarının səmərəli təşkili və fiziki aktivliyinin yüksəldilməsi prioritet istiqamətlərdən biridir. Eyni zamanda, perspektivli idmançıların seçilməsi və onların sistemli məşq prosesinə cəlb olunması ilə yüksək nəticələrin əldə



olunması hədəflənir.

Strategiyada idman infrastrukturunun müasirləşdirilməsi də mühüm yer tutur. Müasir idman zallarının yaradılması, mövcud bazanın yenilənməsi və tələbələrin istifadəsinə uyğun şəraitin formalaşdırılması bu istiqamətdə atılacaq əsas addımlardandır. Bununla yanaşı, idman avadanlıqlarının yenilənməsi və beynəlxalq standartlara uyğunlaşdırılması nəzərdə tutulur.

Digər mühüm istiqamət isə idman təhsili və elmi yanaşmanın gücləndirilməsidir. Tədris prosesində müasir metodların tətbiqi, məşqçilik sahəsində bilik və bacarıqların artırılması, eləcə də idmanla bağlı elmi tədqiqatların genişləndirilməsi planlaşdırılır. Bu yanaşma tələbələrin həm nəzəri, həm də praktiki biliklərinin inkişafına xidmət edir.

Strategiya çərçivəsində müxtəlif yarışların, turnirlərin və idman tədbirlərinin təşkili də xüsusi əhəmiyyət kəsb edir. Universitet daxilində və regionlararası səviyyədə keçiriləcək yarışlar tələbələrin motivasiyasını artırmaqla yanaşı, onların təcrübə qazanmasına da şərait yaradacaq.

Bu yanaşmanın məntiqi davamı kimi təqdim olunan "İdman Strategiyası 2026–2030" proqramı universitetdə idmanın gələcək inkişaf konturlarını müəyyənləşdir. Bu strategiya universitetdə sağlam, aktiv və rəqabətədavamlı tələbə mühitinin formalaşdırılmasına, eyni zamanda idman sahəsində yeni uğurların əldə olunmasına zəmin yaradır. Strategiya yalnız mövcud imkanların qorunmasını deyil, onların genişləndirilməsini və keyfiyyətcə yeni mərhələyə keçidi hədəfləyir. Burada həm kütləvi idmanın təşviqi, həm də peşəkar idmançıların yetişdirilməsi paralel istiqamətlər kimi nəzərdə tutulur.

Universitet tələbələrinin respublika səviyyəli yarışlarda qazandığı uğurlar isə NDU-nun idman sahəsində də nüfuzunu artırır. Bu nailiyyətlər gənclərdə özünəinam yaradır, onları daha böyük hədəflərə doğru istiqamətləndirir.




İdman fəaliyyəti tələbələrin gündəlik həyatında mühüm yer tutur. Gərgin dərs prosesindən sonra idmanla məşğul olmaq onların fiziki sağlamlığını möhkəmləndirməklə yanaşı, psixoloji rahatlıq da təmin edir. Bu isə ümumi təhsil göstəricilərinə də müsbət təsir edir.

NDU-da keçirilən tədbirlər də bu ümumi strategiyanın praktik ifadəsidir. Bədən tərbiyəsi və idman günü münasibətilə təşkil olunan proqram bir daha göstərdi ki, idman universitet həyatının mərkəzində dayanır. Fərqlənən idmançıların təltif olunması, müxtəlif idman növləri üzrə çıxışlar və nümayişlər bu sahəyə verilən dəyərin konkret təzahürü idi. Bu cür tədbirlər motivasiya yaradır, sağlam rəqabət mühitini gücləndirir və tələbələri daha aktiv olmağa sövq edir.

Eyni yanaşma Novruz bayramı münasibətilə keçirilən tədbirdə də özünü göstərdi. Xüsusilə güləş idman növünə ayrılan yer proqramın ən təsirli məqamlarından biri kimi yadda qaldı. Bu, sadəcə idman nümayişi deyil, həm də milli dəyərlərin təqdimatı idi. Azərbaycan güləşinin güc, dözümlülük və iradə simvolu kimi nümayiş etdirilməsi gənclərdə milli kimlik hissini gücləndirdi. Bu tədbir yalnız bayram əhvali-ruhiyyəsi ilə kifayətlənməyərək, eyni zamanda milli idman ənənələrinin təbliği və gənclərin fiziki inkişafının təşviqi baxımından böyük əhəmiyyət daşıdı.

Bu uğurlu proqramın həyata keçirilməsində "Məşqçilik" kafedrasının dosenti Cavanşir Rəhimovun əməyi xüsusilə vurğulanmalıdır. Onun rəhbərliyi və peşəkar yanaşması nəticəsində idmançılar yüksək hazırlıq səviyyəsi ilə çıxış edərək tədbirə xüsusi rəng qatdılar. İdmançıların nümayiş etdirdiyi texnika, çeviklik və taktiki düşüncə onların sistemli hazırlıq keçdiyini bir daha sübut etdi.

Bütün bunlar göstərir ki, Naxçıvan Dövlət Universitetində idman təsadüfi fəaliyyət deyil. Burada idman həm sağlamlıq, həm tərbiyə, həm də milli dəyərlərin daşıyıcısı kimi çıxış edir. Nəticə etibarilə, universitetdə formalaşdırılan bu model təkcə bugünün deyil, gələcəyin də təminatıdır. Sağlam, aktiv və məqsədyönlü gənclik isə hər bir cəmiyyətin ən böyük kapitalıdır.

*Əvəz Tağıyev*
*"Məşqçilik" kafedrasının müdiri*
*David Dadaşov*
*"Məşqçilik" kafedrasının əməkdaşı*

# Sözün gücü: Azadlıq harada başlayır, harada bitir?

Bir söz dünyanı dəyişə bilərmi?

Bəziləri üçün bu sadəcə bir cümlədir. Amma tarix göstərir ki, bəzən bir fikir, bir yazı, hətta bir cümlə belə cəmiyyəti silkələməyə kifayət edir.

Söz azadlığı insanın ən təbii haqqıdır :düşünmək, danışmaq və öz fikrini ifadə etmək. Lakin bu azadlıq yalnız danışmaqdan ibarət deyil. Bu, həm də dinlənilmək, başa düşülmək və cəmiyyətə təsir etmək deməkdir.

Mətbuat isə bu azadlığın ən güclü vasitəsidir. Jurnalistlər sadəcə xəbər yazmır, onlar həqiqətin axtarışında olan insanlardır. Onların qələmi bəzən ən güclü silahdan belə təsirli olur. Çünki doğru söz, gec-tez öz yerini tapır. Amma gəlin özümüzə bir sual verək:

Həqiqətən hər kəs azaddırmı?

Bəzi yerlərdə insanlar fikirlərini sərbəst ifadə edə bilir, sosial şəbəkələrdə yazır, müzakirələr aparır. Digər yerlərdə isə bir söz belə insan üçün problemə çevrilə bilər. Bu isə göstərir ki, söz azadlığı hər yerdə eyni səviyyədə deyil.

Müasir dövrdə internet bu azadlığı daha da genişləndirib. Artıq hər kəs bir növ "mini jurnalistə" çevrilib. Bir paylaşım




minlərlə insana çata bilir. Lakin burada başqa bir problem ortaya çıxır "yalan məlumatlar, saxta xəbərlər". Saxta xəbərlər bəzən həqiqətdən daha sürətlə yayılır və cəmiyyətə ciddi təsir edir.

Deməli, azadlıq təkcə haqq deyil, həm də məsuliyyətdir. Sözün gücü böyükdür,o, həm qura, həm də dağıda bilər.

Unutmayaq ki, azad söz yalnız danışmaq deyil, doğru danışmaqdır.

Çünki həqiqi azadlıq - məsuliyyətlə istifadə olunan azadlıqdır.

*Filiz Məmməd*
*Jurnalistika ixtisası üzrə I kurs tələbəsi*

Baş redaktor:
**Şəhla Şirəliyeva**
shehlashiraliyeva@ndu.edu.az

**Ünvan:** AZ 7012, Naxçıvan şəhəri, Universitet şəhərciyi
**Telefon:** 544-08-61 (1360)
yenifikir.ndu@gmail.com

Qeydiyyat № 330
Sifariş № 374
**Tiraj 350**

Dizayner:
**SAHİLƏ ABBASOVA**
*"Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyində ofset üsulu ilə çap olunmuşdur.*